Кроме перечисленных крупных западноевропейских плавучих доков, следует упомянуть еще о доке подъемной силой 50 тыс. т для французского порта Гавр. Док обслуживает крупные контейнеровозы и балкеры, имеет размеры 290х40 м. Его стоимость оценивается в 300 млн. франков.

На верфи компании Bethlehem Steel Corp. в Сан-Франциско построен цельнометаллический плавучий док подъемной силой 65 тыс. т. Основные характеристики дока: длина наибольшая 274,6 м; длина по стапель-палубе 244 м; ширина между внутренними стенками башен 46 м; глубина воды над кильблоками 11,4 м. Док предназначен для приема крупнотоннажных танкеров, транспортирующих нефть из Аляски в западные порты США, а также других судов дедвейтом до 230 тыс. т. Док был смонтирован на плаву из четырех **L**-образных блоков, предварительно изготовленных на стапелях верфи [14].

Некоторые доки служат для спуска судов с горизонтальных стапелей. Одни предназначены для продольного, другие для поперечного спуска. Для поперечного спуска используют док с одной башней (другая демонтируется). Такой плавучий док подъемной силой 81 тыс. т построен и эксплуатируется на американской верфи компании Avondale Shipyards Inc. в Новом Орлеане (рис.9 [15]). От существующих доков он отличается большой шириной и возможностью демонтажа башен. Длина дока 275 м, ширина по стапель-палубе 68 м. Док пришвартовывают вдоль строительной площадки и устанавливают на подводные опоры, расположенные вдоль набережной. При этом рельсы на понтон–палубе дока после снятия секций башни стыкуют с рельсами судовозных путей на строительной площадке и док используют для поперечного спуска на воду вновь построенных судов. Остальное время его используют для ремонта и модернизации судов.

Аналогичная система (док-понтон) используется на верфи в Паскагуле компании Ijtton Industries Div. Этот док обеспечивает спуск и подъем судов и кораблей длиной 305 м.




Рис. 9. *Док компании Avondale Shipyards Inc. для верфи в Новом Орлеане.*
1 – плавучий док длиной 275 м со снятой башней; 2 – береговой 200-тонный кран;
3 – спусковые пути; 4 – плавучнй кран грузоподъемностью 600 т.

В порту Галвестон используют плавучий док подъемной силой 90 тыс. т Док предназначен для обслуживания судов, заходящих в порт, а также для продольного спуска строящихся судов. Основные характеристики дока: длина максимальная 281,0 м; ширина по стапель-палубе 53,4 м; высота борта 23,7 м. Корпус дока состоит из 10 понтонов, связанных непрерывными стальными башнями. Проектом предусмотрена возможность увеличения максимальной ширины дока между башнями до 61 м, максимальной длины - до 431 м и подъемной силы – до I50 тыс. т. Стоимость строительства составляет 16 млн. долл.

Компанией San Shipbuilding and Dry Dock Co. для своей верфи в Честере (шт. Пенсильвания) построен плавучий док подъемной силой 70 тыс. т. Для увеличения пропускной способности доки иногда строят составными из нескольких частей-секций (рис. 10 а). Эксплуа-

тация каждой секции отдельно увеличивает пропускную способность дока. Суда длиной 2/3 и 4/5 длины дока помещают только по одному в секцию (рис. 10 б). Разъединяя секции и действуя ими одновременно, докуют суда, значительно превышающие размеры дока (рис. 10 в).. Именно такой док принадлежит компании Sun Shipbuilding & Dry Dock Co [16].

Компания Bethlehem Steel Corp. закупила и перестроила для увеличения своих производственных мощностей плавучий док подъемной силой 44,7 тыс.т. После модернизации подъемная сила дока увеличена до 70 тыс. т Реконструкцию осуществила компания Sun Shipbuilding & Dry Dock CO. в Честере. Док эксплуатируется на верфи Key Highway компании Bethlehem Steel Corp. Габариты дока - 268,9x42,4 м**,** назначение – ремонт судов и кораблей.

В Гонконге эксплуатируется один из крупнейших плавучих доков в мире, подъемная сила которого составляет 100 тыс. т. (длина – 261,2 м, ширина 59,1 м). Док, получивший название Чунг Шан был построен в Бомбее, а отбуксирован из Японии. Из-за больших размеров док буксировали в Гонконг двумя половинами. Две основные судоремонтные верфи Гонконга обслуживают крупнотоннажные суда дедвейтом до 85,5 тыс. т.




Рис. 10. *Способы увеличения пропускной способности плавучего дока*
а – докование одного судна максимально допустимой длины – 305 м;
б – докование в отдельных частях дока двух судов общей длиной 316 м;
в – докование крупного судна секциями дока.

Кроме перечисленных крупных западноевропейских и американских плавучих доков известны аналогичные сооружения и в других развитых судостроительных регионах. Так, например, японская фирма Mitsui на верфи в Тамано использует для ремонтных работ плавучий док подъемной силой 80 тыс. т с размерениями 282,2x47,0x17,0 м.

В 2017 году Херсонским государственным заводом "Паллада" был построен док, который предназначен для докования и докового ремонта судов и плавсредств с доковой массой до 7100 т на территории морского порта Лимассол (Кипр). Проект плавучего автономного дока был разработан собственным проектно-конструкторским бюро "Паллада" и построен за 14 месяцев, под наблюдением «American Bureau of Shipping». Док был спущен на воду в начале октября, а уже через три недели успешно прошел все испытания (рис.11). Цикл испытаний предусматривал погружения дока на максимальную глубину 12,2 м и его подъем. Кор-

пус дока рассчитан на срок службы - 50 лет. Тип дока - плавучий, однопонтонний, двухбашенный, композитный несамоходный, автономный по энергоснабжению (автономность по топливу 10 суток). Форма корпуса дока прямоугольная, U - образная, днище понтона без килеватости, стапель-палуба имеет уклон к бортам - 200 мм, другие палубы горизонтальные [17].

Выводы. Проведен анализ состояния строительства плавучих доков. Описана их классификация по назначению, форме, материалу корпуса и автономности. Описаны технологические решения, которые применяются при постройке и эксплуатации доков. Проведен анализ особенностей стальных и композитных доков. Преимущество железобетона заключается в том, что бетон сам хорошо работает на сжатие, а работа на растяжение обеспечивается арматурной сталью, которая защищена от воздействия агрессивной морской воды слоем бетона. В этом случае расходуется значительно меньше стали, чем на стальной корпус, так как исключается увеличение толщины конструкций на коррозию. Поскольку железобетон не коррозирует в морской воде, корпус понтона не требуется окрашивать и доковать, а металлические башни можно покрасить и отремонтировать в процессе проведения ремонта судна без выведения дока из эксплуатации.



Рис. 11. *Испытания композитного автономного плавучего дока "ERENEOS"грузоподъемностью 7100 тонн*

В то же время недостатками железобетонных плавучих сооружений являются: больший вес корпуса; пониженная сопротивляемость тонкостенных железобетонных конструкций динамическим, особенно сосредоточенным нагрузкам; более высокие требования к обеспечению непотопляемости в связи с тем, что прочность наружной обшивки корпуса ниже, чем у стальных.

Таким образом, с целью устранения вышеуказанных недостатков железобетонных конструкций плавучих композиционных доков, необходимо проведение дополнительных научных исследований и выполнение расчетов прочности, которые позволят оптимизировать конструкцию железобетонного понтона и усовершенствовать технологию его изготовления.

Литература

1. Рашковский, А. С. Проектирование, технология и организация строительства композитных плавучих доков [Текст] / А.С. Рашковский, Слуцкий Н.Г., А.В. Щедролосев, В.Н. Коннов, А.Н. Узлов.: Монография. – Николаев: НУК: РАЛ Полиграфия, 2008, 614 с.
2. http://www.pallada-doc.com
3. http://www.proinvel.ru
4. Мишутин А.В. Железобетонные плавучие сооружения и перспективы их использования [Текст] / А.В. Мишутин.: Вісник ОДАБА. Одесса, 2002, Вып. 6, с. 181-187.
5. Борчевский О.А. Тенденции развития судоподъемных сооружений / О.А. Борчевский, Г.Н. Финкель // Проектирование и эксплуатация судоподъемных сооружений. // Судостроение 1987. вып. 87. с. 8-13.
6. Николаев Б.В. Состояние и перспективы развития некоторых типов судоподъемных сооружений / Б.В. Николаев // Проектирование и эксплуатация судоподъемных сооружений. // Судостроение 1987. вып. 87. с. 14-16.
7. Шквар А.Я. Развитие флота и судостроения до 2005-2010 годов / А.Я.Шквар, Ю.В.Захаров, А.Е.Еганов, К.В.Кошкин // Зб. наук. праць УДМТУ. Миколаїв: УДМТУ, 2000. № 3 (372). с. 99-109.
8. Sailing Directions (Enroute)/ Pub. 194 Baltic Sea (Southern part)/ Eleventh edition - Revised and Corrected throud NTN 17/05 - 23 April 2005.
9. Shipcare & Maritime Managemen/ Intec Press, 1986. № 1, 314p.
10. https://www.blohmvoss.com/
11. http://gdansk.fotopolska.eu/342047,foto.html
12. http://www.remontowa.com.pl/
13. http://www.cerricantierinavali.it/
14. https://www.laconservancy.org/locations/southwest-marine-bethlehem-steel-corp-southwestern-shipbuilding
15. Рашковський О.С. Проектування, технологія і організація побудови композитних плавучих доків [Текст] / О.С. Рашковський, О.В. Щедролосєв, Д.В. Єрмаков, А.Н. Узлов.: Навчальний посібник. Миколаїв: НУК: РАЛ Поліграфія, 2015, 254 с.
16. http://shipbuildinghistory.com/shipyards/large/sun.htm
17. Маломан В. Ф. Впровадження у виробництво нових модифікованих суднобудівних бетонів при будівництві композитних доків та інших плавучих споруд [Текст] / В.Ф. Маломан, В.М. Коннов, Г.П. Клебанов, О.В. Щедролосєв, К.В. Кириченко, О.С. Воробйов Харитонов // Матеріали VIII Міжнародної науково-технічної конференції. «Інновації в суднобудуванні та океанотехніці» 11-13 жовтня 2017 р. Миколаїв: НУК, 2017. с.

Tövsiyə edib: t.e.d, prof. ***Z.Ə.Rüstəmov***

GƏMİÇİLİK TEXNİKASI

UOT;621.436

2 Ч 9,5/11 MARKALI DİZEL MÜHƏRRİKİNİN SINAQ STENDİ

Alməmmədov N.M., İsmayılov M.H.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: Almammadov-nizami@rambler, ismayilovmehman4377155@gmail.com

Xülasə*. Məqalədə köməkçi mühərrik kimi istifadə olunan 2 silindrli, 4 taktlı, 2Ч 9,5/11 markalı dizelin bazasında qurulmuş eksperimental sınaq stendi barədə məlumat verilmişdir.*

Abstract*. Data on the experimental installation have been given on the basis of the 2nd cylinder, four-cycle, main and auxiliary ship diesel engine of brand 2Ч 9,5/11*

Аннотация. *В статье приведены сведения по экспериментальной установке, созданной на базе 2-х цилиндрового, четырехтактного, вспомогательного судового дизельного двигателя марки 2Ч 9,5/11.*

Açar sözlər*: sınaq qurğusu, metodika, köməkçi gəmi dizeli, forsunka, yanacaq, yağlama və soyutma sistemləri, Leonard elektrik sxemi*

Key words*: test device, technique, diesel, direct current, nozzle, motor potential, lubricaut oil, fuel oil and coolinq system, the electric scheme Leonard*

Ключевые слова: *вспомогательный судовой дизель, форсунка, испытательный стенд, топливная система, система смазки и система охлаждения, электрическая схема Леонарда*

Giriş. Daxili yanma mühərriklərinin konstruksiyalarının və işçi proseslərinin təkmilləşdirilməsi, eləcə də onların modernləşdirilməsi hesablamalarla yanaşı, həm də motor sınaqlarının aparılmasını tələb edir. Motor sınaqlarını, həmçinin tədqiqat işlərini yerinə yetirmək üçün isə sınaq qurğusu yaradılmalıdır. Aparılan sınaq təcrübəsinin məqsədindən asılı olaraq bu qurğu lazımi avadanlıq və cihazlarla təchiz edilməlidir ki, mühərrikin tələb olunan göstəricilərini təyin etmək mümkün olsun.

Azərbaycan Dövlət Dəniz Akademiyasının ”Gəmi energetik qurğuları” kafedrasında gəmi dizel mühərriklərinin istismar effektivliyinin yüksəldilməsi ilə bağlı bir neçə istiqamətdə elmi-tədqiqat işləri aparılır. Bu tədqiqat işləri, əsasən, mühərrikin istismar parametrlərinin rasional qiymətlərinin təyin edilməsi yolu ilə dizelin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına aiddir. Bunun üçün 2 Ч 9,5/11 markalı köməkçi dizel mühərrikinin sınaq qurğusu yaradılmışdır. Qurğu motor sınaqlarının və tədqiqat işlərinin aparılmasına imkan verir ki, bu da baxılan məsələnin aktual olduğunu göstərir

Məsələnin qoyuluşu. Tədqiqat obyekti olaraq kiçik gəmilərdə, gəzinti gəmilərində və xilasedici qayıqlarda köməkçi mühərrik kimi, geniş istifadə edilən 2 silindrli, 4 taktlı, 2 Ч 9,5/11 markalı dizel mühərriki seçilmişdir. Sınaq qurğusunun quraşdırılmasında məqsəd mühərrikin soyuducu sistemində istifadə edilən suyu başqa soyuducu maye ilə əvəzləyəcək, mühərrikin texniki göstəricilərinin dəyişməsini tədqiq etməkdir. Sınaq qurğusunda həmçinin mühərrikdən xaric olan qazların tüstülüyünün də ölçülməsi nəzərdə tutulmuşdur.

Sınaq olunan mühərrik sabit cərəyan generatoruna qoşulmuş yanacaq, yağlama və soyutma sistemlərindən ibarətdir. Sınaq qurğusu baş paylayıcı elektrik şəbəkəsinə qoşulmuşdur.

Əsas hissə. Mühərrikə müqavimət yaratmaq üçün adi elektrik maşınlarından istifadə etmək məqsədəuyğun deyildir. Bu zaman mühərrikin gücü xarici dövrədəki cərəyan və gərginlik vasitəsi

ilə ölçülür ki, bu halda da elektrik mühərrikinin fırçalarında, yastıqlarında və elektrik dövrəsində alınan itkilər nəzərə alınmaz. Bu isə alınan gücün mühərrikin gücündən fərqli olacağına zəmin yaradacaq. Ona görə də tormoz kimi statoru diyircəkli yastıq üzərində yerləşdirilmiş ПН-205 markalı (N=10,5 kVt, V=230V və n=1500$dəq^{-1}$) balansirli elektrik mühərrikindən istifadə olunur. Elektrik generatoru elektriki yolla umformerə birləşdirilmişdir. Umformer dəyişən cərəyanı sabit cərəyana çevirir və sabit cərəyan maşınını qidalandırır. Sabit cərəyan, maşının dolaqlarına birləşdirilən bir cüt sürüngəcli reostatın köməyi ilə tənzimlənir.

Şəkil 1-də Leonard sxemi üzrə işləyən elektrik tormozu göstərilmişdir. Elektrik tormozunun rotoru mühərrikin dirsəkli valına birləşdirilir, gövdəsi isə diyircəkli yastıqlardan ibarət olan dayaqlar üzərində oturdulur. Belə birləşmə stator gövdəsinin fırlanma oxu ətrafında dönməsinə imkan verir. Tormoz elektrik mühərriki kimi işləyərək sınaq mühərrikini fırladır, bu zaman statorun gövdəsi fırlanmanın əksinə, tormoz kimi işlədikdə isə fırlanma istiqamətinə yönəlir. Tormozun müqavimət momentini qurğuya birləşmiş həkim tərəzisi vasitəsilə ölçmək mümkündür.

Sınaq mühərrikində yanıcı qarışığın hazırlanma keyfiyyətini artırmaq məqsədi ilə ЦНИДИ tipli yanma kamerasından istifadə olunmuşdur. Bu yanma kameri həcmi-təbəqəli qarışdırma üsuluna aid edilir. Burada yanacağın yalnız 35-40%-i divardakı təbəqəyə düşür. Sıxmanın sonuna yaxın porşen təpəsindəki sıxlaşdırıcılardan sıxışdırılan hava yanma kamerinin bir boğazlığından daxil olaraq, yanma kamerindəki toroidal formalı burulğan əmələ gətirir. Həmin burulğan da divarın konik səthindən maye təbəqəsinin buxarlanmasını təmin edir.

ЦНИДИ kamerli dizellərdə yanma prosesinin orta sərtlik dərəcəsi 0,45-0,50 MPa/dər, maksimum təzyiqi isə 6,0-6,5 MPa hədlərindədir [1].

Tədqiqat qurğusunun ümumi görünüşü şəkil 2-də, baş paylayıcı şitin ümumi görünüşü isə şəkil 3-də göstərilmişdir.

Burucu moment həkim tərəzisinin köməyi ilə ölcülür. Bu zaman tormoz qüvvəsi, qolu L=0,716 m olan xüsusi ling vasitəsi ilə tərəziyə verilir.

Sınaq olunan mühərrikin qida sisteminə yüksək təzyiqli yanacaq nasosu (YTYN), forsunka, yanacaq süzgəcləri, yanacaq çəni, yanacaq çəni, yüksək və alçaq təzyiqli yanacaq boruları daxildir.

Yanacaq çəni hündürlükdə yerləşdiyinə görə yanacağın YTYN-ə verilməsi basqı hesabına əldə edilir. Mühərrikin saatlıq yanacaq sərfi həcmi üsulla (şəkil 4) ölçülür.

Sınaq qurğusunda satlıq hava sərfi РГ40-1 markalı rotasion qaz sayğacı ilə təyin edilir. Sayğac mühərrikə resiver vasitəsi ilə birləşmişdir. Resiverin həcminin boyük olması sorma sistemində hava axınındakı təzyiq pulsasiyalarını söndürməyə imkan verir. Tədqiq olunan mühərrikin yağlama sistemi dövri və təzyiqlədir. Yağlama sistemindəki təzyiq manometrlə, yağın temperaturu isə manometrik termometrlə təyin edilir.

Sınaq zamanı təzyiq və temperatur uyğun olaraq 0,18÷0,25 MPa və 85 ± 5^0C hədlərində saxlanılır.

Mühərrikin soyutma sistemi axan tipli və məcburidir, mühərrikin üzərində yerləşdirilmiş asma nasos vasitəsilə həyata keçirilir. Soyuducu mayenin mühərrikin girişindəki və çıxışındakı temperaturlarını manometrik termometlərlə ölçmək mümkündür.


Mühərrikə daxil olan soyuducu mayenin sərfini tənzimləyən xüsusi quruluşun olması çıxış və girişdəki temperaturlar fərqini 15÷25^{0}C hədlərində saxlamağa imkan verir.

Mühərrikin işlənmiş qazlarının tüstülüyünü ölçmək üçün şəkil 2-də göstərilmiş ИД-1 markalı tüstüölçəndən istifadə edilir.

Dirsəkli valin dövrlər sayı ТМ və 3М markalı elektrik taxometri ilə ölçülür. İşlənmiş qazların temperaturu xaricetmə klapanının yaxınlığında yerləşdirilmiş xromel-alümel termocütü ilə təyin edilir. Bu temperaturun qiymətinə Ш4501 markalı millivoltmetr vasitəsilə nəzarət olunur.

Ətraf mühitin təzyiqi БАММ-1 markalı barometr, temperaturu isə civəli termometrlə ölçülür.

Motor sınaqlarının mühərrikin nominal iş rejimində (N_e =10,5 kVt və n=1500 dəq^{-1}) aparılması nəzərdə tutulur.




Şəkil 1*.Leonard sxemi üzrə işləyən elektrik aylacinin dövrəsi*

Tormoz qurğusunun sərbəst qıcıqlandırma ilə elektrik sxemi


Cədvəl

2 Ч 9.5/11 markalı mühərrikin əsas texniki-iqtisadi göstəriciləri

S/S	Göstəricilər	Qiymət
1.	Mühərrikin nominal gücü, kVt	10,5
2.	Nominal dövrlər sayı, dəq^{-1}	1500
3.	Silindrlərin sayı	2
4.	Silindrin diametri, mm	95
5.	Porşenin gedişi, mm	110
6.	Porşenin orta sürəti, m/san	5,5
7.	Sıxma dərəcəsi	17÷18
8.	Orta effektiv təzyiq, MPa	0,71
9.	Yanmanın maksimum təzyiqi, MPa	5,5
10.	Xüsusi effektiv yanacaq sərfi, q/(kVt saat)	245^{+12}
11.	Forsunkanın başlanğıc püskürmə təzyiqi, MPa	$17,5^{+5}$
12.	Motoresurs , saat	18000



Şəkil 2. *Sınaq qurğusunun ümumi görünüşü*



Şəkil 3. *Baş paylayıcı şit*



Şəkil 4. *Yanacaq sərfinin ölçülməsi*

Təcrübələrin nəticələrinə əsasən sınaq olunan mühərrikin əsas gostəriciləri aşağıdakı kimi hesablanır: [2,3].

1.Mühərrikin effektiv gücü: kVt

$$N_e = P_t \cdot n/1360 \qquad (1)$$

burada P_t - tərəzinin göstərişi, kq;

n - mühərrikin dirsəkli valının dövrlər sayıdır, dəq^{-1}.

2. Mühərrikin mexaniki itkilərini dəf etmək üçün sərf etdiyi gücü tapmaq məqsədilə mühərrikə yanacaq verməməklə onun dirsəkli valını sabit cərəyan maşınının köməyi ilə nominal dövrlər sayında fırladır və mexaniki itkilərin orta gücünü təyin edirik: kVt

$$N_{mex} = P_{tmex} \cdot n/1360 \qquad (2)$$

burada P_{tmex} - tərəzinin göstərişidir, kq

3. Mühərrikn indikator gücü: kVt

$$N_i=N_e+N_{mex} \tag{3}$$

4. Mühərrikin orta effektiv təzyiqi: MPa

$$P_e = \frac{120 \cdot N_e}{i \cdot V_h \cdot n} \tag{4}$$

5. Mühərrikin orta indikator təzyiqi: MPa

$$P_i = \frac{120 N_i}{i V_h \cdot n} \tag{5}$$

6. Mühərrikin saatlıq yanacaq sərfi: kq/saat

$$G_y = 3{,}6 \cdot \Delta V_y \cdot \rho_y / \tau_y \tag{6}$$

burada: ΔV_y – qəbul olunmuş yanacaq dozasının həcmi, sm^3;

ρ_y – yanacağın sıxlığı q/sm^3 ; τ_y – yanacaq dozasının sərf olunma müddətidir, san.

7. Xüsusi effektiv yanacaq sərfi: kVt saat

$$g_e = 1000 \cdot G_y / N_e ,\ q/ \tag{7}$$

8. Xüsusi indikator yanacaq sərfi: kVt saat

$$g_i = 1000 \cdot G_y / N_i ,\ q/ \tag{8}$$

9. Mühərrikin saatlıq hava sərfi: kq/saat

$$G_h = 3600 \cdot \Delta V_h \cdot \rho_h / \tau_h , \tag{9}$$

burada ΔV_h - qəbul olunmuş hava dozasının həcmi, m^3; ρ_h - havanın sıxlığı, kq/m^3 ; τ_h – qəbul edilmiş hava dozasının silindrə daxil olduğu vaxt, san.

Havanın sıxlığı ətraf mühit təzyiqindən və temperaturundan asılı olaraq aşağıdakı kimi tapılır: kq/m^3

$$\rho_h = \frac{P_0 \cdot 10^6}{R_h \cdot T_0}, \tag{10}$$

burada: P_0 - ətraf mühitin təzyiqi, MPa; R_h - hava üçün qaz sabiti, C/(kq·dər);

T_0 - ətraf mühitin temperaturudur, K.

10. Mühərrikin hava artıqlıq əmsalı:

$$\alpha = G_y / \left(l_0 \cdot G_y \right) \tag{11}$$

burada $l_0 - 1kq$ yanacağın tam yanması üçün tələb olunan havanın nəzəri miqdarıdır:

Burada C, H, S, və O, uyğun olaraq, yanacağın tərkibindəki karbonun, hidrogenin, kükürdün və oksigenin miqdarıdır: kq/kq

$$l_0 = \frac{1}{0{,}23}\left(\frac{8}{3}C + 8H + S - 0\right), \quad (12)$$

11. Mühərrikin doldurma əmsalı: MPa

$$\eta_v = 0{,}0425\,\Delta G_y \big/ \left(i \cdot D^2 \cdot S \cdot \rho_h\right), \quad (13)$$

burada D – silindrin diametri, m ; S-porşenin gedişidir, m.

12. Mühərrikin mexaniki f.i.ə.:

$$\eta_m = N_e / N_i\,, \quad (14)$$

Nəticə

1. Köməkçi gəmi dizel mühərriklərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün 2Ч 9,5/11 markalı dizelin bazasında sınaq qurğusu yaradılmışdır.
2. Sınaq qurğusunda təcrübələrin aparılması və alınan nəticələrin işlənməsi üçün metodika hazırlanmışdır.

Ədəbiyyat

1. İsmayılov A.Ş., Talıbov M.Ə. Nəqliyyat mühərrikləri, avtomobillər və traktorlar. (I hissə. Nəqliyyat mühərrikləri). "Təhsil" NPM, Bakı, 2006, 216 s
2. Исмаилов А.Ш. Исследование рабочего процесса дизеля с ПАРСС, восстанавливающий объем камеры сгорания в конце выпуска - в начале наполнения - Дис. канд. тех. наук-Баку, 1990, 187 с.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UDK 621.43

YANACAĞIN BAŞLANĞIC PÜSKÜRMƏ TƏZYİQİNDƏN VƏ YANACAQ VERİLMƏSİNİN QABAQLAMA BUCAĞINDAN ASILI OLARAQ 6L20 MARKALI BAŞ GƏMİ MÜHƏRRİKİNİN İŞÇİ TSİKLİNİN NƏZƏRİ TƏDQİQİ

Axundov İ.S., İsmayılov A.Ş., Məmmədov H.Ə.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: a.ismayilov27@gmail.com

Xülasə. *Məqalədə 6L20 markalı baş gəmi dizel mühərrikində yanacağın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının yanma prosesinin parametrlərinə, mühərrikin indikator və effektiv göstəricilərinə təsirini aydınlaşdırmaq məqsədi ilə riyazi eksperimentlərin nəticələrinin nəzəri tədqiqinə baxılmışdır.*

Аннотация. *В статье рассматривается теоретическое исследование результатов вычислительных экспериментов с целью определения влияние давления начала впрыска топлива и угла начала подачи топлива на параметры процесса сгорания, на индикаторные и эффективные показатели главного судового дизельного двигателя марки 6L20.*

Abstract. *The theoretical study of the results of computational experiments is examined in the Article, in order to determine the influence of the starting pressure of fuel injection and the initial angle of the fuel supply on the parameters of the combustion process as well, as on the indicator and effective parameters of 6L20 marine main diesel engine.*

Açar sözlər: *dizel mühərriki, püskürmə təzyiqi, qabaqlama bucağı, riyazi eksperimentlər, indikator və effektiv göstəriciləri, indikator gücü, effektiv güc, yanacaq sərfi, yanma müddəti, istilikdən istifadə olunma əmsalı, induksiya periodu*

Ключевые слова: *дизельный двигатель, давление впрыска, угол опережения, вычислительные эксперименты, индикаторные и эффективные показатели, индикаторная мощность, эффективная мощность, расход топлива, продолжительность сгорания, коэффициент использования теплоты, период индукции*

Key words: *diesel engine, injection pressure, advance angle, computational experiments, indicatory and effective parameters, indicated power, effective power, fuel consumption, combustion duration, coefficient of heat utilization, induction period*

Giriş. Yanacağın başlanğıc püskürmə təzyiqi və yanacaq verilməsinin qabaqlama bucağı mühərrikin əsas istismar parametrlərindən hesab olunur. Onlar yanma prosesinin gedişinə, eləcə də mühərrikin indikator və effektiv göstəricilərinə təsir göstərən əsas amillərdən biridir. Bundan başqa, baş gəmi dizellərində istifadə olunan yanacağın növü tez-tez dəyişdiyindən, başlanğıc püskürmə təzyiqi və yanacaq verilməsinin qabaqlama bucağının da rasional qiymətlərinin seçilməsi çox vacibdir. Bu qiymətlərin motor sınaqlarının köməyi ilə təyin edilməsi həm vaxt, həm də maddi itkilərin yaranmasına səbəb olur. Ona görə də yanacağın növü dəyişdikdə və yaxud, hər hansı bir konstruktiv dəyişiklik aparıldıqda püskürmə təzyiqi və yanacaq verilməsinin qabaqlama bucağının yanma prosesinin parametrlərinə, mühərrikin indikator və effektiv göstəricilərinə təsirini aydınlaşdırmaq, həmçinin onların rasional qiymətlərini təyin etmək lazım gəldikdə riyazi eksperimentlərdən istifadə olunması olduqca aktualdır.

Aşağıda 6L20 markalı baş gəmi dizel mühərrikində yanacağın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının yanma prosesiniin parametrlərinə, mühərrikin indikator və effektiv göstəricilərinə təsirini aydınlaşdırmaq məqsədi ilə yerinə yetirilən riyazi eksperimentlərin nəzəri tədqiqinin nəticələri şərh olunmuşdur.

Əsas hissə. Yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi mühərrikinin yanma prosesini xarakterizə edən parametrlərinin (φ_z, ξ_z, P_z, T_z, τ_i), indikator (P_i, N_i, g_i, η_i) və effektiv (P_e, N_e, g_e, η_e) göstəricilərinin hesbi yolla alınan qiymətləri cədvəl 1.-də göstərilmişdir. Riyazi eksperimentlər mühərrikin nominal iş rejimi üçün ($n=1000$*dəq*$^{-1}$) püskürmənin başlanğıc təzyiqinin *35, 40, 45* və *50 MPa* qiymətlərində yerinə yetirilmişdir. Bu zaman yanacaq verilməsinin qabaqlama bucağı meniskə görə $\theta_{men} = 9{,}8^0$, mühərrikin mexaniki f.i.ə. $\eta_m = 0{,}85$, istifadə olunan standart dizel yanacağının sıxlığı $\rho_{dy} = 848\, kq/m^3$, setan ədədi *45*, mühərrikin nominal iş rejimi üçün yanacağın başlanğıc püskürmə təzyiqi P_{fo}*=45 MPa* qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, əgər P_{fo}*=45MPa* mühərrikin nominal iş rejimi üçün optimal qiymət olarsa onda φ_z və ξ_z başlanğıc püskürmə təzyiqinin digər qiymətlərində aşağıdakı düsturlarla hesablanır və riyazi eksperimentlər nəticəsində alınan qiymətlər cədvəl 1-də P_{fo}*=50 MPa* olan sütunda kəsrin surətində qeyd edilmişdir:

$P_{fx} \geq P_{fo}$ olduqda

$$\varphi_z = \varphi_{zop} \cdot P_{fx} / P_{fo} \quad (1)$$

$$\xi_z = \xi_{zop} \cdot P_{fo} / P_{fx} \quad (2)$$

$P_{fx} < P_{fo}$ olduqda isə

$$\varphi_z = \varphi_{zop} \cdot P_{fo} / P_{fx} \quad (3)$$

$$\xi_z = \xi_{zop} \cdot P_{fx} / P_{fo} \quad (4)$$

Əgər P_{fo}=*45 MPa* optimal qiymət kimi nəzərdə tutulmazsa və yanacaq püskürməsinin başlanğıc təzyiqinin mühərrikin göstəricilərinə təsiri tədqiq edilərsə, onda həm $P_{fx} \geq P_{fo}$, həm də $P_{fx} < P_{fo}$ olduqda φ_z və ξ_z uyğun olaraq (3) və (4) ifadələri ilə təyin edilir. Bu halda riyazi eksperimentlər zamanı alınan nəticələr cədvəl 1.-də P_{fx}=*50 MPa* olan sütunda kəsrin məxrəcində göstərilmişdir.


Cədvəl 1.

Yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizelinin əsas göstəriciləri

($\theta_{men} = 9{,}8^0$; n=*1000dəq*$^{-1}$; $\eta_m = 0{,}85$; $\rho_y = 848\, kq/m^3$)

Göstəricilər	**P_{fo}, MPa**			
	35	**40**	**45**	**50**
1. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	16,93	18,09	18,56	$\frac{14{,}14}{18{,}11}$
2. Yanmanın maksimum temperaturu (T_z), *K*	1668	1838	1992	$\frac{1787}{2133}$
3. İndikator f.i.ə. (η_i)	0,422	0,482	0,537	$\frac{0{,}463}{0{,}582}$
4. İnduksiya periodu (τ_i), *saniyə*	$0{,}2154 \cdot 10^{-3}$	$0{,}1678 \cdot 10^{-3}$	$0{,}6747 \cdot 10^{-3}$	$1{,}338 \cdot 10^{-3}$
5. Orta indikator təzyiqi (P_i), *MPa*	2,229	2,55	2,834	$\frac{2{,}443}{2{,}834}$
6. İndikator gücü (N_i), *kVt*	980	1120	1247	$\frac{1074}{1353}$
7. Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	200	175	157,2	$\frac{182}{144{,}9}$
8. Orta effektiv təzyiq (P_e), *MPa*	1,895	2,168	2,410	2,08
9. Effektiv güc (*Ne*), *kVt*	833	952	1060	$\frac{913}{1150}$
10. Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	235	206	185	$\frac{214}{170{,}5}$
11. Yanma istiliyindən istifadə olunma istiliyi (ξ_z)	0,666	0,761	0,856	$\frac{0{,}77}{0{,}951}$
12. Effektiv f.i.ə. (η_e)	0,359	0,410	0,456	$\frac{0{,}394}{0{,}495}$
13. Yanma müddəti (φ_z), dər.	64	56	50	$\frac{55{,}6}{45}$

Şəkil 1-də yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizelində yanma prosesinin göstəricilərinin hesabi qrafikləri göstərilmişdir. Şəkildən göründüyü kimi başlanğıc püskürmə təzyiqi böyüdükcə induksiya periodu (τ_i) də artır. Fikrimizcə, buna səbəb, püskürmə təzyiqinin böyüməsi ilə silindrə püskürülən yanacaq daha narın tozlandığından, yanacağın buxarlanması üçün daha çox istilik sərf edildiyinə görə silindrdəki temperaturun azalması nəticəsində yanmanın gec başlamasıdır. Başlanğıc püskürmə təzyiqi artdıqca τ_i–nin artması [1]–də də öz təsdiqini tapmışdır.



Şəkil 1. *Yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizelində yanma prosesinin göstəricilərinin dəyişməsi ($\theta_{men} = 9{,}8^0$; n = 1000 dəq^{-1}).*


Başlanğıc püskürmə təzyiqinin artması zamanı yanacağın tozlanması və buxarlanması yaxşılaşdığından yanıcı qarışığın hazırlanma keyfiyyəti yaxşılaşır, yanma prosesi daha intensiv gedir və silindrdəki təzyiq (P_z) və temperatur (T_z) yüksəlir. P_{fb} = *50 MPa*-da təzyiqin aşağı düşməsi silindrdəki maksimum təzyiqin və temperaturun porşenin y.ö.n-dən daha çox keçmiş qiymətində ($16{,}5^0$) alındığına görə silindrin həcminin böyüməsi ilə izah olunur.

Başlanğıc püskürmə təzyiqi böyüdükcə induksiya periodunun artması, yanıcı qarışığın hazırlanma keyfiyyətinin yaxşılaşması və yanma prosesinin daha sürətlə baş verməsi yanma müddətinin (φ_z) azalmasına, istilikdən istifadə olunma əmsalının (ξ_z) isə artmasına səbəb olur.

P_{fo}=*50 MPa*-da φ_z-in artmasına, ξ_z-in isə azalmasına yanmanın genişlənmə prosesinə keçməsi səbəb olur.

Şək. 2-də yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizelinin indikator və effektiv göstəricilərinin dəyişməsi qrafikləri göstərilmişdir. Şəkildən göründüyü kimi, başlanğıc püskürmə təzyiqinin yüksəlməsi nəticəsində mühərrikin indikator gücü (N_i), effektiv gücü (N_e) və effektiv f.i.ə. (η_e) artır, xüsusi indikator və effektiv yanacaq sərfləri (g_i və g_e) isə azalır. P_{fo}=*50 MPa*-da η_e, N_i və N_e-nin azalması, g_i və g_e-nin isə artması yanmanın genişlənmə xəttinə keçməsi ilə izah olunur.

Şək. 2-də təsvir olunmuş qrafiklərdən göründüyü kimi, $P_{fo} \leq$ *45 MPa*-ya kimi indikator və effektiv göstəricilərinin artma intensivliyi P_{fo}>*45 MPa*-da olduğundan daha çoxdur. Belə ki, P_{fo} *40 MPa*-dan *45MPa*-ya kimi yüksəldikdə mühərrikin effektiv gücü (N_e) 108 kVt artırsa, P_{fo} *45 MPa*-dan *50 MPa*-ya kimi yüksəldikdə N_e *90 kVt* artır. Bu isə onu göstərir ki, başlanğıc püskürmə təzyiqinin *45 MPa*-dan çox artırılması o qədər də effektiv deyil və P_{fb}=*45 MPa* baxılan rejim üçün optimal hesab oluna bilər.



Şəkil 2. *Yanacağın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizelinin indikator və effektiv göstəricilərinin dəyişməsi (n=1000dəq^{-1}; α=1,65; θ_{men}=9,8^0,η_m=0,85).*

Şək. 1 və 2-də P_{fb}=*45 MPa*-dan sonra qırıq-qırıq xətlər $P_{fx} \geq P_{fo}$ olduqda φ_z və ξ_z uyğun olaraq (3) və (4) ifadələri ilə hesablandıqda alınan nəticələrə aiddir (cədvəl 1-də P_{fb}=*50 MPa* olduğu hala uyğun gələn sütunda kəsrin məxrəcində qeyd olunan qiymətlər).

6L20 markalı baş gəmi dizelində yanacaq verilməsinin qabaqlama bucağının *(θ)* mühərrikin göstəricilərinə təsiri tədqiq edilərkən induksiya periodu A.İ.Tolstovun təklif etdiyi aşağıdakı emprik düsturla təyin edilmişdir [2]:

$$\tau_i = \sqrt{\left(\frac{V_\theta - V_c}{V_{zsk}} + \frac{1}{\varepsilon}\right)\frac{T_o}{P_o}} \cdot 10 \cdot B \cdot exp\left[\left(\frac{V_\theta - V_c}{V_{zsk}} + \frac{1}{\varepsilon}\right)^{0,34} \cdot E/\left(R_\mu \cdot T_o\right)\right] \cdot \rho_{dt}/\rho_{dy} \qquad (5)$$

burada V_θ və V_{zsk} – uyğun olaraq yanacağın silindrə verilməsinin başlanğıcında və sorma klapanı bağlandıqda silindrin həcmləri; E – şərti aktivləşmə enerjisi, *MCl/kmol*; $B = (1\text{-}1{,}6\cdot10^{-4}\,n)\cdot12\cdot10^{-5}$ - əmsalı; ε – mühərrikin sıxma dərəcəsi; P_o *və* T_o - ətraf mühitin təzyiq və temperaturu, *MPa* və *K;* R_μ- universal qaz sabiti, *MCl/(kmol·K)*; n – mühərrikin dövrlər sayıdır, *dəq*$^{-1}$.

(5) ifadəsində ρ_{dt}/ρ_{dy} nisbəti yanacağın növünün, daha doğrusu, onun sıxlığının dəyişməsini nəzərə alır. Belə ki, yanacağın sıxlığı (ρ_{dt}) standart dizel yanacağının sıxlığından (ρ_{dy}) az olduqda induksiya periodunun azalması, əksinə olduqda isə artması qəbul olunmuşdur.

Yanacaq verilməsinin qabaqlama bucağının meniskə görə *4,8; 9,8; 14,8; 19,8* və *24,8*^{0} qiymətlərində riyazi eksperimentlərin nəticələri cədvəl 2-də verilmişdir. Bu nəticələrə əsasən yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq yanma prosesini xarakterizə edən göstəricilərin (τ_i, φ_z, ξ_z, P_z və T_z), eləcə də mühərrikin indikator (η_i, g_i, N_i) və effektiv (η_e, g_e, N_e) parametrlərinin qrafikləri şək. 3 və şək. 4 - də göstərilmişdir.

Şək. 3-dən göründüyü kimi yanacaq verilməsinin qabaqlama bucağının böyüməsi induksiya periodunun (τ_i) da artmasına səbəb olur. Bu, θ-nın artması ilə silindrə yanacaq verilməsi anında silindrdəki havanın sıxlıq və temperaturunun azalması ilə izah olunur [2]. Bu riyazi eksperimentlər yanma müddətinin (φ_z), istilikdən istifadə olunma əmsalının (ξ_z) sabit və optimal qiymətlərində yerinə yetirilmişdir.


Yanacaq verilməsinin qabaqlama bucağının yüksəlməsi nəticəsində silindrdəki maksimum təzyiq (P_z) və maksimum temperatur (T_z) da artır. Lakin bu zaman temperaturun artma intensivliyi eyni olduğu halda, təzyiqin dəyişməsi $\theta \le 14{,}8^0$ qiymətlərində daha intensiv olur. Məsələn, θ *4,8*^{0}-dən *9,8*^{0}-yə kimi böyüdükdə P_z *3,03 MPa*, θ *9,8*^{0}-dən 14,8^0-yə kimi böyüdükdə P_z *2,9 MPa* qədər artırsa, θ *14,8*^{0}-dən *19,8*^{0}-yə kimi böyüdükdə P_z *2,49 MPa,* θ *19,8*^{0}-dən *24,8*^{0}-yə kimi böyüdükdə isə P_z *1,9 MPa* qədər artır.

Cədvəl 2

Yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi dizelinin əsas göstəriciləri

(P_{fo}*=45 MPa;* n*=1000 dəq*$^{-1}$*;* η_m*=0,85;* ρ_y*=848 kq/m*^{3})


Göstəricilər	**θ_{men}, dər. Y.Ö.N.-ə qalmış**				
	4,8	**9,8**	**14,8**	**19,8**	**24,8**
1. Yanmanın maksimum təzyiqi *(P_z), MPa*	15,94	18,97	21,87	24,36	26,26
2.Yanmanın maksimum temperaturu *(T_z), K*	1949	2000	2061	2122	2185
3.İndikator f.i.ə. *(η_i)*	0,519	0,539	0,553	0,561	0,565
4.İnduksiya periodu *($\tau_i\cdot10^3$), san.*	0,5173	0,572	0,7031	0,9352	1,309
5.Orta indikator təzyiqi *(P_i), MPa*	2,738	2,846	2,921	2,963	2,982
6.İndikator gücü *(N_i), kVt*	1204	1252	1285	1303	1312
7.Xüsusi indikator yanacaq sərfi *(g_i),* $\frac{q}{kVt\cdot saat}$	162,8	156,6	152,6	150,4	149,4
8.Orta effektiv təzyiq *(P_e), MPa*	2,327	2,42	2,483	2,519	2,535
9.Effektiv güc *(N_e), kVt*	1023	1064	1092	1108	1115
10.Xüsusi effektiv yanacaq sərfi *(g_e),* $\frac{q}{kVt\cdot saat}$	191,5	184,2	179,5	176,9	175,8
11.Effektiv f.i.ə. *(η_e)*	0,441	0,458	0,470	0,477	0,48



Şəkil 3. *Yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi dizelində yanma prosesinin göstəricilərinin dəyişməsi qrafikləri (P_{fo}=45 MPa; n=1000 dəq^{-1})*

Şəkil 4-dən aydın olur ki, yanacaq verilməsinin qabaqlama bucağının artması zamanı mühərrikin indikator və effektiv gücü (N_i və N_e) artır, xüsusi indikator və effektiv yanacaq sərfləri (g_i və g_e) isə azalır. Lakin, burada da, maksimum təzyiqdə (P_z) olduğu kimi $\theta \leq 14{,}8^0$ qiymətlərində N_i və N_e-nin artma intensivliyi, g_i və g_e-nin isə azalma intensivliyi daha çoxdur. Məsələn, θ $4{,}8^0$-dən $9{,}8^0$-yə kimi artdıqda N_e 48 *kVt*, $9{,}8^0$-dən $14{,}8^0$-yə kimi böyüdükdə isə N_e 33 *kVt* artırsa, θ $14{,}8^0$-dən $19{,}8^0$-yə kimi böyüdükdə N_e 18 *kVt*, $14{,}8^0$-dən $24{,}8^0$-yə kimi böyüdükdə isə 9 *kVt* artır. Xüsusi effektiv yanacaq sərfi (g_e) θ $4{,}8^0$-dən $9{,}8^0$-yə kimi böyüdükdə 7,3 $q/(kVt \cdot saat)$, $9{,}8^0$-dən $14{,}8^0$-yə kimi böyüdükdə isə 5,2 $q/(kVt \cdot saat)$ qədər azalırsa, θ $14{,}8^0$-dən $19{,}8^0$-yə kimi böyüdükdə g_e 2,6


$q/(kVt \cdot saat)$, 19,8^0-dən *24,8^0*-yə kimi böyüdükdə isə *1,1* $q/(kVt \cdot saat)$ qədər azalır. Deməli, 6L20 markalı baş gəmi dizelində yanacaq verilməsinin qabaqlama bucağının *14,8^0*-dən çox böyüdülməsi mühərrikin effektiv göstəricilərinin yaxşılaşması, həmçinin silindrdəki maksimum təzyiq və temperaturun çox böyüməsi nöqteyi-nəzərindən effektli deyil və $\theta = 9{,}8^0$ qiyməti optimal hesab oluna bilər.



Şəkil 4. *Yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi dizelində indikator və effektiv göstəricilərin dəyişməsi qrafikləri (P_{fo}=45 MPa; n=1000 dəq^{-1})*

Şəkil 5-də yanacaq verilməsinin qabaqlama bucağının $4,8^0$; $9,8^0$ və $14,8^0$ qiymətlərində 6L20 markalı mühərrik üçün nəzəri indikator diaqramları, daha doğrusu, silindrdəki maksimum təzyiqlərin hesabi qiymətlərinin dəyişməsi qrafikləri göstərilmişdir.

Şəkil 5-dən göründüyü kimi, yanacaq verilməsinin qabaqlama bucağı böyüdükcə silindrdəki maksimum təzyiqin həm qiyməti böyüyür, həm də bu qiymət y.ö.n.-ə yaxınlaşır. Bu isə təzyiqin yüksəlmə sürətinin, daha doğrusu, mühərrikin sərtlik dərəcəsinin də artması ilə müşahidə olunur. Bundan başqa yanacaq verilməsinin qabaqlama bucağının həddindən artıq kiçilməsi (məsələn, $\theta_1 = 4,8^0$ olduqda) zamanı yanma prosesi genişlənmə xəttinə keçir ki, bu da indikator və effektiv göstəricilərin pisləşməsinə, daha doğrusu, gücün azalmasına, yanacaq sərfinin isə artmasına səbəb olur.



Şəkil 5. *Yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi dizelində hesabi indikator diaqramları:*
__ __ __ __ __ - $\theta_1 = 4,8^0$;
_____ - $\theta_2 = 9,8^0$;
_ _ _ _ _ _ _ _ - $\theta_2 = 14,8^0$.

Nəticə. Beləliklə, 6L20 markalı baş gəmi dizel mühərrikində riyazi eksperimentlərin nəticələrinin nəzəri tədqiqi nəticəsində aydınlaşdırıldı ki, yanacağın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının uyğun olaraq *45MPa* və *9,8*^{0} qiymətlərini rasional qiymətlər kimi qəbul etmək olar. Belə ki, bu halda həm yanma prosesiniin parametrləri, həm də mühərrikin indikator və effektiv göstəriciləri qənaətbəxşdir.

Ədəbiyyat

1. И.В.Парсаданов, С.И.Третьяков. Оценка влияния угла начала подачи топлива на показатели динамической напряженности и топливной экономичности быстроходного дизеля. Двигатели внутреннего сгорания №1, 2004, с.30-33
2. Двигатели внутреннего сгорания: Теория поршневых и комбинированных двигателей. Учебник для вузов по специальности "Двигатели внутреннего сгорания" / Д.Н.Вырубов, Н.А.Иващенко, В.И.Ивин и др.: Под ред. А.С.Орлина, М.Г.Круглова - 4-е изд., перераб. и доп. М.: Машиностроение, 1983, 372 с.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UOT 62.83.52

DƏYİŞƏN CƏRƏYANLI AVAR ELEKTRİK MÜHƏRRİKLƏRİNİN MİKROPROSESSORLARLA İDARƏ OLUNMASININ TƏDQİQİ

Cəlilov T.A., Sultanov E.F., Bayramova İ.P.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000 Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: elshen_sultanov@mail.ru, genclik76@mail.ru, turyan777@mail.ru

Xülasə. *Məqalədə dəyişən cərəyanlı avar elektrik mühərriklərinin mikroprosessorlarla idarə olunmasının xüsusiyyətlərinə baxılmış və onun üstünlükləri təyin edilmişdir.*

Аннотация. *В статье рассмотрены особенности микропроцессорного управления гребных электродвигателей переменного тока и определены их преимущества.*

Abstract. *The characteristics of propellered electric engines of alternative current managed by microprosessors has been considered and their several advantages have been obtained.*

Açar sözlər: *dəyişən cərəyan, avar elektrik mühərriki, mikroprosessor, tiristor, asinxron mühərrik*

Ключевые слова: *переменный ток, гребной электрический двигатель, микропроцессор, тиристор, асинхронный двигатель*


Key words: *alternating current, propellered electric engine, microprosessor, thryster, asynchronous motor*

Giriş. Özübağlanan tiristorlar üzərində yığılmış invertorlar kommutasiya elementlərindən azad olmaqla yanaşı, hər qoldakı tiristorun bağlanması üçün idarə elektroduna verilən əks istiqamətli siqnal işçi cərəyana görə tənzimlənir. Bunun üçün idarə sxeminin mikroprosessor üzərində yığılması daha məqsədəuyğundur [1].

Bu məqsədlə də avar asinxron mühərrikinin gərginlik invertoru ilə idarə olunan eninə impuls modulyasiyalı (EİM) avtomatik idarəetmə sistemindən istifadə olunur.

Bu sistem avtotransformatorlardan, tiristorlu tezlik çeviricisindən, mikroprosessordan, sürət vericisindən ibarətdir. Belə sistemin struktur sxemi şəkil 1-də, tezlik çeviricisinin güc sxemi isə şəkil 2-də verilmişdir.

Əsas hissə. Tiristorların məlum üstünlükləri (keçiricilik istiqamətində çox kiçik gərginlik düşgüsünə malik olması, yüksək cəldliyi, kompaktlığı, tərpənən hissələrinin olmaması və.s) yüksək etibarlılığa malik olmağa, çıxış gərginliyinin amplitudunu və tezliyini səlis dəyişə bilən statik tezlik çeviricisinin yaranmasına imkan verir. Belə tezlik çevirici kiçik qabarit ölçüləri ilə və səssizliyi ilə fərqlənir. Sabit şəbəkə gərginliyində əlavə düzləndirici quraşdırılmasına ehtiyac yoxdur. Üç fazlı dəyişən cərəyan şəbəkəsində isə iki yarımperiodlu üç fazlı tənzim olunmayan düzləndiricidən istifadə olunması daha məqsədyönlüdür [2].




***Şəkil 1**. Mikroprosessorla idarəolunma sisteminin struktur sxemi*

Sinusoidal EİM invertor, növbəli kommutasiyalı invertordan fərqli olaraq, qoşulduğu aktiv-induktiv yük müqavimətindən sinusoidaya yaxın cərəyan axır. Bu isə avar asinxron mühərrikində (AAM) itgilərin az olmasına səbəb olur. Şəkil 2-dən göründüyü kimi T_1-T_6 tiristorları açar rolunu oynayır və C_1-C_6 kondensatorların, L induktivliyin köməyi ilə kommutasiya olunurlar. Burada yarım period ərzində T_2, T_4, T_6 tiristorları isə acıq vəziyyətində T_1, T_3, T_5 tiristorları isə bağlı vəziyyətdə olur və əksinə.

Tiristorlar bir istiqamətdə keçiriciliyə malik olduğundan əks istiqamətdə cərəyanı keçirmək üçün D_{11}-D_{12} dinistorlarından istifadə olunmuşdur.

Tiristorların bağlanması zamanı C_1-C_6 kondensatorları gərgiliyin aperiodik artmasını təmin edir. Əlavə olaraq qoşulmuş R_1-R_6 rezistorlarını şuntlamaq üçün D_1-D_6 dinistorlarından istifadə olunmuşdur. Onlar tiristorların bağlanmasında C_1-C_6 kondensatorların dolmasını, açılmasında isə məhdudlaşdırıcı R_1-R_6 rezistorlarının köməyilə bu kondensatorların boşalma cərəyanının məhdudlaşmasını təmin edir [3].

Nəticə: Məqalədə dəyişən cərəyanlı avar elektrik mühərriklərinin mikroprosessorlarla idarə olunması araşdırılmış və üstünlüklər qeyd edilmişdir.



Şəkil 2. *Tezlik çeviricisinin güc sxemi*

Ədəbiyyat

1. E.F. Sultanov. Elektron güc çeviricilərinin gəmilərdə tətbiqi. ADDA-nın mətbəəsi, Bakı, 2015, 100 səh.
2. H.A. Mehdiyev, B.Ə. Bağırov. Gəmi elektroenergetik qurğularının mikroprosessor sistemi ilə idarə olunması. Bakı, 2004 il. 235 səh.
3. Лихошерст В.И. Полупроводниковые преобразователи электрической энергии с импульсным регулированием. Екатеринбург, УГТУ, 2000 г, 116 ст.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UOT 62.83.52

VEKTOR İDARƏLİ ASİNXRON MÜHƏRRİKİN AVTOMATİK İDARƏ SXEMİNİN QURULMASI VƏ TƏDQİQİ

Sultanov E.F., Bayramova İ.P., Şıxıyev A.S.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000, Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: elshen_sultanov@mail.ru, genclik76@mail.ru, 0911_alim@mail.ru

Xülasə. *Məqalədə vektorlarla idarə olunan asinxron mühərriklərin avtomatik idarə sxemi qurulmuş və tədqiq edilmişdir.*

Аннотация*. В статье построена и исследована автоматическая схема управления асинхронного двигателя векторного управления.*

Abstract. *Automatic management scheme of asynchronic engine run by vectors has been drown up and studied in the article.*

Açar sözlər: *vector idarəli, asinxron mühərrik, elektrik intiqalı, idarə sxemi, maqnit seli*

Ключевые слова: *векторное управление, асинхронный двигатель, электрический привод, схема управления, магнитный поток*

Key words: *vector controlled, asynchronous motor, electrical drive, control scheme, magnetic food*

Giriş. Asinxron mühərrikin vektorla idarə olunmasının başqa idarə üsullarına nisbətən əsas üstünlüyü ondan ibarətdir ki, onun yaratdığı momenti müəyyən proqramlarla dəyişmək və yaxud sabit saxlamaq mümkündür [1].

Buna görə də avtomatik idarə sxeminin qurulmasında momentin əsas təşkiledicisi olan rotorun ilişmə maqnit selinin sabit saxlanılması prinsipini seçirik.

Əsas hissə. Maşının momentinin vektor şəkilli olması xüsusiyyətləri vektor idarəetmə sisteminin işlənilməsini reallaşdırır və lazımi aparatların seçilməsini tələb edir. Burada birinci məsələ əsas ilişmə maqnit seli vektorunun ölçülməsidir.

Onun həllində həmin vektor aşağıdakı şəkildə göstərilir:

$$\psi_0 = |\psi|(\cos\eta + j\sin\eta)$$


Burada, η-α oxundan (A fazasının maqnit oxu) əsas ilişmə maqnit seli vektorunun ani qiymətinə qədər olan elektrik bucağıdır. Bu bucağın ölçülməsi çətin olsa da onun $\psi_{0a} = |\psi| \cdot \cos\eta$ və $\psi_{ob} = |\psi| \cdot \sin\eta$ təşkiledicilərini müəyyən etmək olar.

Bunun üçün bir-birindən $\frac{\pi}{2p}$ qədər sürüşmüş α və β oxlarında stator nüvəsi üzərinə DXK–7 markalı Xoll vericisi yapışdırılmalıdır.

Burada, 2p-statorun qütblər sayıdır.

Beləliklə, statik tezlik çeviricili asinxron mühərrikin vektor idarəetməsinin mümkünlüyü üçün gərginliyin amplituduna və tezliyinə görə idarəedilməsi ilə yanaşı, onu fazasına görə də idarə olunması lazımdır. Vektor idarəsində tezlik çeviricisinə verilən siqnal tezliyə, amplituda və fazaya görə modulyasiya olunmuş ikifazalı dəyişən cərəyan gərginliyindən ibarətdir. Belə idarəetmə kənardan təsirlənən sabit cərəyan mühərrikinin idarəetmə xüsusiyyələrinə malik olacaqdır [2].

Bu sxemin əsas amillərindən biri mühərrikin hansı kəmiyyətə görə idarə olunmasıdır, yəni rotorun ilişmə seli mühərrikin idarə edilməsi üçün yaramadığına görə, onu müvafiq olaraq ya stator gərginliyinə ya da stator cərəyanına çevirmək lazımdır. Bu prinsiplərin, yəni rotorun ilişmə selinin sabit saxlanılması və idarəemə kəmiyyəti kimi stator cərəyanından istifadə prinsiplərinin əsasında qurulan avtomatik idarə sisteminin funksional sxemi şəkildə göstərilmişdir.



Şəkil. *Vektorla idarə olunan asinxron mühərrikin funksional sxemi*

Sxemdə aşağıdakı işarələr qəbul edilmişdir:

TÇ - tiristorlardan yığılmış tezlik çeviricisi
TV - mühərrikə verilən cərəyanın tezlik vericisi
CV - cərəyan vericisi
FÇ1, FÇ2 - faza çeviriciləri
KÇ1 - koordinat çeviricisi
DXα, DXβ - Xoll vericiləri
İSB1, İSB2 - ilişmə seli çeviricisi
HB1, HB2 - hesablayıcı bloklar
EB - idarə siqnallarının emal bloku

Şəkildən göründüyü kimi, avtomatik idarə sxeminin düzgün işləməsi üçün onun girişinə asinxron mühərrikin 3 parametri haqqında məlumat verilir. Bunlar mühərrikin əsas maqnit ilişmə seli (ψ_0), statorun faz cərəyanları (i_a, i_b, i_c) və statora verilən cərəyanın tezliyidir (f_1). Sxemin əsas əks əlaqəsini yaradan rotorun ilişmə selini ψ_2 ölçmək mümkün deyil, bunun üçün əsas ilişmə seli (ψ_0) Xoll vericiləri vasitəsilə tərpənməz koordinat sistemində $\psi_{0\alpha}$ və $\psi_{0\beta}$ ölçülür. Hesablama sxemin ilişmə seli blokları İSB1 və İSB2 vasitəsilə yerinə yetirilir. İSB1 blokunda hesablama aşağıdakı düsturlarla aparılır [2].

$$\left.\begin{aligned}\psi_{2\alpha} &= \frac{L_2}{L_m}\psi_{0\alpha} - L_{2\delta} i_{1\alpha} \\ \psi_{2\beta} &= \frac{L_2}{L_m}\psi_{0\beta} - L_{2\delta} i_{1\beta}\end{aligned}\right\} \qquad (1)$$

Bu düsturlarda göstərilmiş stator cərəyanının tərpənməz oxlara proyeksiyası ($i_{1\alpha}$ və $i_{1\beta}$) sxemdə statorun faza cərəyanlarını həmin cərəyanların tərpənməz oxlardakı proyeksiyasına çevirən FÇ2 faza çeviricisindən alınır.

İSB1 blokundan alınmış ($\psi_{2\alpha}$ və $\psi_{2\beta}$) rotorun ilişmə selinin təşkiledicilər İSB2 blokunda Pifaqor teoremi əsasında $|\psi_2| = \sqrt{\psi_{2\alpha}^2 + \psi_{2\beta}^2}$ rotorun ilişmə selinin moduluna çevirilir. Sonra rotorun ilişmə selinin modulu $|\psi_2|$ mənfi əks əlaqə siqnalı kimi avtomatik idarə sisteminin girişinə verilir və burada o, rotorun ilişmə selinin verilmiş qiyməti ilə müqayisə edilir. Alınan fərq $\Delta\psi_{2d}$ stator cərəyanı ilə idarə olunan asinxron mühərrikin struktur sxemindəki idarə qurğusunda olduğu kimi hesablanır.

Hesablama aşağıdakı düsturlarla aparılır:

$$\left.\begin{aligned}\Delta i_{1d} &= \frac{\Delta\psi_{2d}}{L_m}\left(1 + pT_2\right) \\ \Delta i_{1q} &= \frac{\Delta\psi_{2d}}{L_m}\cdot T_2\omega_2\end{aligned}\right\} \qquad (2)$$

Burada $T_2 = \frac{L_2}{r_2}$ - rotorun elektromaqnit zaman sabiti.

ω_2 -rotor cərəyanının yaratdığı maqnit selinin bucaq sürətidir.

Şəkildən göründüyü kimi, ω_2 -nin qiyməti stator cərəyanının tezlik vericisi (TV) vasitəsii ilə əldə edilmiş statorun fırlanan maqnit selinin bucaq sürəti ω_1 və TG taxogeneratorun verdiyi rotorun fırlanmasının bucaq sürətinin ω fərqindən ($\omega_2 = \omega_1 - \omega$) alınır. (2) düsturları ilə aparılmış hesablamalar nəticəsində $\Delta\psi_{2d}$ -yə müvafiq fırlanan koordinat sistemində (d, q) stator cərəyanı $(\Delta i_d, \Delta i_q)$ alınır. Sonra Δi_d və Δi_q cərəyanları EB emal blokunda yüksək harmonika təşkil-edicilərdən süzgəclər vasitəsi ilə təmizlənir, onların gövdələri bir-birindən ayrılır və koordinat çeviricisi KÇ1-ə ötürülür. İş prinsipi [3] verilmiş KÇ1 koordinat çeviricisində stator cərəyanının proyeksiyaları fırlanan koordinat sistemi olan d, q-dən tərpənməz koordinat sistemi α, β-ya köçürülürlər [2].

Nəhayət statorun tərpənməz koordinat sistemindəki cərəyanları $i_{1\alpha}$ və $i_{1\beta}$ faz çeviricisinə FÇ1-ə verilir. Bu çevirici həmin cərəyanları üç fazalı (i_a, i_b, i_c) cərəyanlara çevirir. Sonra həmin cərəyanlar tiristor tezlik çeviricisinin idarə blokuna verilir, orada həmin siqnallar mühərrikə verilən gərginliyin tezliyinə, amplituduna və fazasına görə modulyasiya edilir [2].

Nəticə. Məqalədə vektorlarla idarə olunan asinxron mühərriklərin avtomatik idarə sxemin qurulmuş və onun iş prinsipi araşdırılmışdır.

Ədəbiyyat

1. Рудаков В.В., Столяров И.М., Дартау В.А. «Асинхронные электроприводы с векторным управлением» Л.:Энергоатомиздат, 1987, 134 стр.
2. Усольцев А.А. Векторное управление асинхронными двигателями. Учебное пособие, по дисциплинам электромеханического цикла, СПб: СПбГУ ИТМО, 2006, 94 с.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UOT 62.83.52

SABİT CƏRƏYAN MÜHƏRRİKİ ÜÇÜN TƏNZİMLƏNƏN TRANZİSTOR ÇEVİRİCİLİ REVERSİV İDARƏ SİSTEMİNİN İŞLƏNMƏSİNİN ARAŞDIRILMASI

Sultanov E.F., Cəlilov T.A.

Azərbaycan Dövlət Dəniz Akad emiyası
Az1000, Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: elshen_sultanov@mail.ru, turyan777@mail.ru

Xülasə. *Məqalədə sabit cərəyan mühərriki üçün tənzimlənən tranzistor çeviricili reversiv idarə sisteminin işlənməsinə baxılmışdır.*

Abstract. *The article deals with the work of reverse management system with transistor transducer regulated for direct current engine.*

Аннотация. *В статье рассмотрена система реверсивного управления с регулируемым транзисторным преобразователем для двигателя постоянного тока.*

Açar sözlər: *sabit cərəyan, mühərrik, tənzimetmə, tranzistor, impuls çeviriciləri*

Ключевые слова: *постоянный ток, двигатель, регулирование, транзистор, импульсный преобразователь*

Key words: *direct current, engine, regulation, transistor, impulse transducer*

Giriş. İmpuls çeviriciləri vasitəsilə enerji tələbatçısının sabit gərginliyinin tənzim edilməsi impuls tənzimlənməsidir. İmpuls çeviriciləri vasitəsilə mənbə qoşulub–açılır. Nəticədə yükdə gərginlik impulsları formalaşır. Əgər tənzim elementi ideal açıq qəbul edilərsə, onun qapalı olduğu intervalda yükdə gərginliyin ani qiyməti qida mənbəyi gərginliyinə, açıq olduqda isə gərginliyin ani qiyməti sıfıra bərabər olur. Yükdə gərginliyin tənzimlənməsi impuls elementinin komutasiya periodu ərzində açıq qalma müddətini dəyişdirməklə mümkündür [1].

Yüksək faydalı iş əmsalı və cəldlik, idarəetmənin dəqiqliyi, çıxış gərginliyinin geniş hədlər daxilində səlis tənziminin və kontaktsız revers edilməsinin mümkünlüyü impulsun eninə tənzimi (İET) prinsipində işləyən yarımkeçirici sabit gərginlik çeviricilərinin müxtəlif növ yüklərin tənzimi və stabilizasiyası üçün tətbiqini perspektivli edir.

Əsas hissə. İdarə sistemində açar elementi kimi tranzistorların istifadəsi həm çeviricinin güc sxemini sadələşdirir, həm də mühərrikin qidalandırıcı gərginliyinin kontaktsız reversini təmin edir.

İdarə sistemində reversiv İET çeviricisi körpü sxemi ilə yığılıb, sabit cərəyan mühərrikinin lövbər dolağı körpünün çıxış sıxaclarına qoşulub. İdarə sisteminin sxemi şəkil 1-də, ventillərin vəziyyətdəyişmə alqoritmi, həmçinin cərəyan və gərginliklərin zaman əyriləri şəkil 2-də göstərilmişdir. Güc tranzistorlarının idarəsi üçün simmetrik üsul tətbiq edilir. Tranzistorlar əks fazada yerləşən siqnallarla qoşa açılır: T4 ilə T7 və T5 ilə T6.

T4 və T7 tranzistorlarının açıq olduğu intervalda ($0<t<t_0$) qida mənbəyindən enerji tələb olunur. T4, T7 tranzistorlarının bağlanıb, T5, T6 tranzistorlarının açıldığı t_0 anında mühərrikin lövbər dolağının gərginliyi revers olunur, ançaq özünə-induksiya e.h.q.-nin hesabına lövbər cərəyanı hələlik əvvəlki istiqamətini qoruyub saxlayır və əks diod körpüsünün VD11, VD12 diodları və qida mənbəyi vasitəsilə qapanır. Mühərrikin sıxaclarında gərginliyin orta qiyməti:

$$U_y = U_d(2\gamma - 1) \tag{1}$$

Burada $\gamma = \frac{t_{i1}}{T}$ - impulsun doldurma əmsalıdır, qiyməti çeviricinin idarə sistemi vasitəsilə tənzim edilir [1].

(1) ifadəsindən görünür ki, $\gamma \succ 0,5$ olduqda, çeviricinin çıxış gərginliyinin orta qiyməti müsbət, $\gamma \prec 0,5$ olduqda isə mənfidir (şəkil 2. v). $\gamma = 0,5$ qiymətində çıxış gərginliyi sıfır olur və mühərrik tormozlanır.

Qeyri-reversiv İET çeviricisindən fərqli olaraq, reversiv çevirici sabit cərəyan mühərriki ilə işləyərkən kəsilən cərəyan rejimi yaranmır (şəkil 2. q).

Lövbər cərəyanının orta qiyməti:

$$I_y = \frac{U_d}{r_y}\left(2\gamma - 1 - \frac{E}{U_d}\right);$$

r_y - mühərrikin lövbər dolağının aktiv müqavimətidir.


T4, T7 (T5, T6) tranzistorlarının cərəyanının orta qiyməti (şəkil 2 d):

$$I_T = \frac{U_d}{r_y}\gamma - \frac{E}{r_y}\gamma - \frac{2U_d}{r_y}\cdot\frac{T_y}{T}\cdot\frac{\left(1-b_1^{-1}\right)\left(1-a_1b_1\right)}{1-a_1};$$


Burada T – çıxış gərginliyinin periodu, T_y – yük dövrəsinin zaman sabiti, a_1 və b_1 – perioddan asılı olan əmsallardır.

$$T_y = \frac{L_y}{r_y}; \quad a_1 = e^{-\frac{T}{T_y}}; \quad b_1 = e^{-\frac{\gamma T}{T_y}};$$

VD9, VD12 (VD10, VD11) diodlarının cərəyanlarının orta qiyməti (şəkil 2i):



Şəkil 1. *Sabit cərəyan mühərrikinin tranzistor çeviricili reversiv idarə sisteminin prinsipial elektrik sxemi.*



Şəkil 2. *Çevirici-mühərrik sistemində cərəyan və gərginliklərin zaman diaqramları.*

$$I_{VD} = \frac{2U_d}{r_y} \cdot \frac{T_y}{T} \cdot \frac{\left(1 - b_1^{-1}\right)\left(1 - a_1 b_1\right)}{1 - a_1} - \frac{U_d}{r_y}\left(1 - \gamma\right) + \frac{E}{r_y}\left(1 - \gamma\right).$$

Lövbər cərəyanının orta qiymətini bilərək, intiqalın mexaniki xarakteristikasını təyin etmək olar. Kəsilməyən cərəyanlar rejimi üçün mexaniki xarakteristika tənliyi aşağıdakı kimi yazılır:

$$\frac{n}{n_o} = 2\gamma - 1 - \frac{I_y}{I_o};$$

burada n_o – mühərrikin yüksüz işləmədə sürəti, I_o – yüksüz işləmə cərəyanıdır.

Çeviricinin idarə sisteminə verici generator və ikitaktlı güc gücləndiricisi daxildir [2].

Verici generator əməliyyat gücləndiricisi (ƏG) əsasında qurulub və çıxış impulsları t_{i1}, t_{i2} müddətcə tənzimlənən qeyri-simmetrik relaksasiya multivibratoru təşkil edir (şəkil 2 i). C_1 kondensatoru və R_1, R_2, R_3 rezistorları RC dövrələri yaradır.

Kondensator dolarkən VD1 diodu açıqdır, cərəyan R_3' və R_1 dövrəsi vasitəsilə keçir, kondensator boşalarkən isə VD2 diodu açıqdır, cərəyan R_3'', R_2 dövrəsi üzrə qapanır. Müsbət əks əlaqəli ƏG komparator funksiyasını yerinə yetirir. Komparator vəziyyətini dəyişərkən, onun çıxışında C_1 kondensatorunun dolma və boşalma dövrələrinin kommutasiyası gedir. Qeyri-simmetrik iş rejimi multivibratorun müddət müəyyən edən dövrələrinin yarımperiodlara görə bərabər olmayan zaman sabitlərilə şərtləndirilir. VD1 diodu çıxış gərginliyinin müsbət, VD2 isə mənfi yarımperiodu ərzində açıq olur. Birinci halda $\tau_1 = C_1\left(R_1 + R_3'\right)$, ikinci halda isə $\tau_2 = C_1\left(R_2 + R_3''\right)$. R_3 tənzimlənən rezistor olduğu üçün, sabit çıxış tezliyində dövrələrin zaman sabitləri geniş hədlər daxilində dəyişdirilə bilir [2].

Qeyri-simmetrik multivibratorun impuls müddətləri aşağıdakı ifadələrlə yazılır [2]:

$$t_{i1} = C_1\left(R_1 + R_3'\right)ln\left(1 + \frac{2R_5}{R_4}\right);$$

$$t_{i2} = C_1\left(R_2 + R_3''\right)ln\left(1 + \frac{2R_5}{R_4}\right).$$

Çıxış impulslarının təkrarlanma periodu:

$$T_i = \frac{1}{f_i} = \left(R_1 + R_2 + R_3\right)C_1 ln\left(1 + \frac{2R_5}{R_4}\right).$$

Qeyd edək ki, t_{i1}, t_{i2} ƏG-nin parametrlərindən asılı deyil, ona görə də multivibratorda impulsların dərinliyi və çıxış tezliyinin yüksək stabilliyi təmin olunur.

Verici generatorun müddətə görə tənzimlənən çıxış impulsları T1 tranzistoru üzərində invers kaskadı və T2, T3 tranzistorları üzərində ikitaktlı güc gücləndiricisi vasitəsilə İET çeviricisinin T4-T7 tranzistorlarının idarəedici dövrələrinə tətbiq olunur.

Nəticə. Məqalədə sabit cərəyan mühərrikinin tənzimi üçün tranzistorlar üzərində İET çeviricili reversiv idarə sisteminin sxem həlli verilmiş və bəzi nəzəri məsələlərə baxılmışdır.

Ədəbiyyat

4. Жадобин М.Е., Крылов А.М. Микропроцессорная система управления судовой электроэнергетической установкой. Санкт-Петербург, Элмор, 1999, 415 с.
5. Воскобович В.Ю. и.др. Электроэнергетические установки и силовая электроника транспортных средств. Санкт-Петербург, Элмор, 2001, 384 с.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

УДК 628.11

СНИЖЕНИЕ ОТРИЦАТЕЛЬНОГО АНТРОПОГЕННОГО ВОЗДЕЙСТВИЯ СИСТЕМ ОХЛАЖДЕНИЯ ЭНЕРГОУСТАНОВОК МОРСКИХ ОБЪЕКТОВ

Федоровская Н.К.

Севастопольский Государственный Университет
г. Севастополь, 299053, ул. Университетская, 33
E-mail: n.fedorovskaya14@mail.ru

Аннотация. *Исследован механизм воздействия на биоресурсы морей водопотребляющих систем охлаждения энергоустановок судов и морских платформ различного назначения. Определено, что при этом наиболее сильно страдает планктон, являющийся основой пищевой цепочки в морях и океанах. Показано, что применение фильтрующего оборудования является малоэффективным. Решение проблемы может быть достигнуто за счет использования замкнутых систем охлаждения, исключающих потребление воды.*

Abstract. *The mechanism of the impact on biological resources of the seas and inland bodies of water-cooling systems of power plants, a wide range of objects have been studiet ships, offshore platforms and thermal power plants. It is shown that in this case plankton is geatly affected, which is the basis of the food chain in the pond. It is proposed to use a closed cooling system, eliminating the consumption of water.*

Ключевые слова: *биоресурсы морей, планктон, энергоустановки, система охлаждения, устройства теплоотвода*

Key words*: the biological resources of the seas, plankton, plants, cooling systems, heat exchangers*

Введение. Моря и океаны являются местом сосредоточения значительных биоресурсов, в частности рыбных. При этом основой формирующейся пищевой цепочки является фито- и зоопланктон. В мировом океане суммарная биомасса фитопланктона оценивается в 1,5 млрд т, а зоопланктона - 20 млрд. т. Однако, по данным [1], из-за быстрого размножения продукция фитопланктона за год может достигать 550 млрд. т, что почти в 10 раз больше суммарной продукции всего животного населения океана. Фитопланктон - пища мелких планктонных животных, которыми питаются более крупные.

Перемещения планктонных организмов происходят не только пассивно, с помощью течений воды, но и благодаря собственному активному движению. Планктонные организмы перемещаются то вверх (к поверхности), то вниз (на глубину) в течение суток. Это явление получило название суточных вертикальных миграций. В верхних слоях моря днем, особенно летом, планктона содержится сравнительно мало. Постепенно, с уменьшением яркости солнечного освещения, количество планктона в верхних слоях увеличивается, так как почти все планктонные организмы поднимаются к поверхности. Наблюдается и сезонная миграция планктона.

Обычно наибольшее количество планктона наблюдается преимущественно в верхних слоях моря на глубинах до 50м, например, исследования [2] показали, что глубина, на которой в Черном море происходит наиболее интенсивный фотосинтез массовых видов одноклеточных водорослей планктона, составляет 10…15м. Количество планктона возрастает в прибрежной зоне. В теплое время года масса зоопланктона в одном кубическом метре воды достигает сотен граммов.

Роль планктона чрезвычайно важна в плане сохранения и преумножения рыбных ресурсов. К сожалению, забор воды для обеспечения работы систем охлаждения энергоустано-

вок морских объектов осуществляется именно с глубин максимального сосредоточения планктона, икринок и рыбной молоди.

Постановка задачи. Количество планктона решающим образом определяет рыбную продуктивность морей. В этой связи весьма показательной является ситуация, сложившаяся на Черном море в конце 1980-х - начале 90-х гг. В этот период с балластными водами судов в Черное море попал гребневик мнемиопсис (Mnemiopsis leigyi), который обычно обитает у побережья Северной Америки. Этот организм характеризуется огромным репродуктивным потенциалом и производит ежесуточно до 10000 яиц. При благоприятных условиях общая масса мнемиопсиса может удваиваться за двое-трое суток. Данный организм питается планктоном, икринками и личинками рыб. В результате попадания мнемиопсиса в Черное и Азовское моря произошло резкое сокращение количества планктона (рис. 1) и численности рыб. Так, по данным [3] вылов ставриды сократился со 110…115 тыс. т до 3 тыс. т. В Азовском море запасы тюльки сократились в 400 раз. В конце 1990-х гг. в Черном море распространился гребневик берое (Beroe ovata), для которого мнемиопсис является хорошим кормом, вследствие чего численность последнего существенно снизилась. Как следствие, рыбная продуктивность Черного и Азовского морей стала восстанавливаться.




Рис. 1. *Изменение биомассы мнемиопсиса (a) и планктона (b) по годам [3]:*
1 – саггиты; 2 – веслоногий рачок; 3 – мелкие рачки и личинки донных животных

К сожалению, наблюдается выраженная общая тенденция снижения биоресурсов морей и океанов, что определяется негативным воздействием разнообразных промышленных объектов, в том числе многочисленных судов и морских платформ.

Наибольшее количество планктона (55...90%) сосредоточено в поверхностном слое до глубин порядка 50 м. Именно с этих глубин (обычно до 10…20 м) забирается вода, предназначенная для работы системы охлаждения энергетических установок указанных объектов.

К сожалению, вопрос отрицательного экологического воздействия систем охлаждения энергоустановок не нашел до настоящего времени должного внимания в судостроении. Проблема весьма актуальна и для разнообразны х технических средств освоения месторождений морского шельфа, у которых потребление морской воды часто достигает значительных величин. Так, например, на морской платформе ЛСП-1 номинальное потребление морской воды составляет 1600 м^3/час, а максимальное может достигать 2000…2400 м^3/час.

При этом следует обратить внимание на тот факт, что специалисты, занимающиеся системами охлаждения прибрежных тепловых электростанций, изучают и учитывают эту проблему. Неспособность планктона и рыбной молоди сопротивляться силе всасывания в систему приводит к их механическому повреждению и гибели. В [4] установлено, что вследствие

механического воздействия погибает 70…90% зоопланктона, а в некоторых случаях наблюдалась даже 100%-я смертность.

Рассмотрим механизм воздействия на биоресурсы морей широко используемых в настоящее время разомкнутых систем охлаждения судовых энергетических установок. Вода из окружающей акватории всасывается и прокачивается насосом через фильтр, теплообменники и арматуру, после чего сбрасывается обратно в акваторию. Используемые фильтры имеют размеры проходных отверстий от 1 до 4,5 мм. В [5] отмечается, что при размерах отверстий сетчатого фильтра менее 1 мм резко возрастает скорость его засорения, в том числе планктоном, что грозит нарушением работы системы охлаждения. Планктон имеет размеры, измеряемые микронами и более, а большинство икринок - размер 1…2 мм. Поэтому практически все они попадают в систему охлаждения и, пройдя перечисленные выше элементы системы, под воздействием теплового и механического факторов либо погибают, либо существенно повреждаются.

Сотрудниками ФГБУН «Институт морских биологических исследований им. А.О. Ковалевского» РАН выполнены соответствующие оценки для морской буровой платформы проекта 10170 с суммарной мощностью энергоустановки 5000 кВт, потребляющей 400…800 $м^3$/час охлаждающей морской воды. Определено, что в результате действия указанных выше факторов за год уничтожается примерно 200 т промысловых видов рыб. При этом учитывалась естественная гибель икринок и рыбной молоди.

Таким образом, системы охлаждения судов и разнообразных морских технических средств освоения морского шельфа наносят существенный экологический урон биологическим ресурсам морей и океанов. Аналогичная ситуация имеет место и для внутренних водоемов.

Для судов и морских платформ отсутствуют стандартные технические решения в направлении рыбозащитных устройств (РЗУ). Апробированные конструкции для береговых водозаборов во многих случаях неприемлемы. Существует много сложностей, связанных с техническим обслуживанием и ремонтом, надежностью и т.д. Тем не менее, практические шаги в этом направлении делаются. Так, например, для морской буровой установки «Исполин» (рис. 2) были изготовлены пять РЗУ типа конусная сетка с рыбоотводом, которые устанавливаются перед всасывающими коллекторами насосных агрегатов. Конструкции данного типа предусматривают использование вращающихся и мелкоячеистых сетчатых частей. Вращающиеся части в морской агрессивной среде требуют смазки и ухода, а сетки — чистки от планктона, обрастания и мелкого твердого мусора.



Рис. 2. *Морская буровая установка «Исполин» и рыбозащитное устройство типа конусная сетка*

Для морской платформы ЛСП-1 (рис. 3) используются РЗУ жалюзийного типа с потокообразователем.



Рис. 3. *Морская платформа ЛСП–1и рыбозащитное устройство жалюзийного типа с потокообразователем*

Тем не менее, проведенные исследования [6] показали, что сетчатые устройства оказываются эффективными (70% и более) лишь для рыб размером более 8...15 мм (рис. 4).

Как указывалось, выше, размер планктона измеряется микронами и более, а большинство икринок и рыбной молоди имеют размер около 1…2 мм. Из анализа рис. 4 следует, что данные рыбозащитные устройства не эффективны для указанных организмов.




Рис. 4. *Эффективность сетчатых рыбозащитных устройств [6]*

Анализ полученных результатов

Решение проблемы может быть найдено во внедрении замкнутых систем охлаждения энергоустановок [7], исключающих потребление морской воды. Для судов создание таких систем может быть выполнено с использованием обшивочных теплообменных аппаратов (ОТОА). Охлаждаемый теплоноситель отводит теплоту через обшивку корпуса судна в забортную воду (рис. 5). Более подробно такие конструкции описаны в [7, 8].

Для морских малоподвижных и стационарных объектов, например, для разнообразных морских платформ, могут быть применены погружные теплообменные аппараты (ПТОА) [7], которые размещаются в водоеме на некоторой глубине удаленно от энергетического объекта (рис. 6). Известно, что для морских условий на глубине около 50 метров температура воды независимо от сезона равна примерно 8°С. Размещение ПТОА на таких глубинах стабильно обеспечивает максимально возможные температурные напоры в аппарате, а, следовательно – его минимальные массогабаритные показатели.




Рис. 5. *Замкнутая система охлаждения судовой энергоустановки*
1 – судовая обшивка; 2 – элементы набора корпуса судна;
3 – дополнительные листы; 4 – лабиринтный канал;
5 – патрубки подвода и отвода теплоносителя




Рис. 6. *Погружной теплообменный аппарат пластинчатого типа, вынесенный за пределы морской платформы. 1- морская платформа; 2- энергоустановка; 3 – ПТОА*

При неподвижной воде водоема достигаемые значения коэффициента теплоотдачи решающим образом зависят от разности температур между наружной поверхностью стенки аппарата t_c и воды $t_в$ в водоеме. Именно данный случай теплоотдачи при свободной конвекции считают основным расчетным режимом таких аппаратов и в целом ЗСО.

На базе лаборатории Эффективных энергетических технологий и установок Морского института Севастопольского государственного университета была специально создана экспериментальная установка [7], моделирующая ЗСО энергоустановки и перечисленные выше устройства теплоотвода.

В результате определены зависимости, отписывающие теплоотдачу забортной воде устройств пластинчатого типа, и разработаны соответствующие методики их теплотехнического расчета. В частности получена зависимость коэффициента теплоотдачи α_k от температурного напора $(t_c–t_в)$ между наружной теплоотдающей поверхностью и забортной водой при различных скоростях воды v в лабиринтном канале аппарата. Определено, что снижение

температурного напора, например, за счет прогрева воды в водоеме в летний период, приводит существенному снижению эффективности теплоотдачи.

В принципе теплопередающие элементы ПТОА могут иметь различную форму, например, плоскую, трубчатую и др. Аппараты в виде набора плоских пластин просты в изготовлении, сравнительно легко очищаются от загрязнения и заменяются в случае необходимости. Пластины выполняются полыми и имеют внутренние перегородки, формирующие лабиринтный канал для прохода охлаждаемой пресной воды. Теплоотдача в данном канале осуществляется при вынужденной конвекции. Как отмечалось ранее, коэффициент теплопередачи, а, следовательно, и массогабаритные показатели ПТОА, решающим образом зависят от эффективности теплоотдачи наружной поверхности аппарата к забортной воде.

Исследования теплоотдачи ПТОА в условиях свободной конвекции показали, что коэффициент теплоотдачи α_k такого аппарата зависит не только от температурного напора (t_c–$t_в$) между наружной поверхностью и водой, но и от зазора δ между пластинами (рис. 7). Увеличение (t_c–$t_в$) и δ приводит к увеличению α_k.




Рис. 7. *Зависимость коэффициента теплоотдачи α_k от зазора δ при различных температурных напорах: 1 – при температурном напоре (t_c–$t_в$) = 40 °С; 2 – 25 °С; 3 – 5 °С.*

Поскольку теплоотдача в неподвижную забортную воду осуществляется при свободной конвекции, то достигаемые при этом значения α_k оказываются сравнительно небольшими, что приводит к значительным размерам ПТОА. Возможность внедрения рассматриваемых экологически безопасных систем охлаждения энергетических установок напрямую связана с поиском и разработкой эффективного метода снижения массогабаритных показателей ЗСО. При этом решающим является повышения эффективности теплоотдачи именно к забортной воде. Необходим достаточно простой, надежный и эффективный метод интенсификации теплоотдачи.

Были предприняты специальные визуальные исследования связанные, с поиском такого метода интенсификации теплоотвода. На рис. 8а показано течение воды в ПТОА пластинчатого типа при неподвижной забортной воде (теплоотдача при свободной конвекции). Как видно, интенсивность течения жидкости мала. Для интенсификации теплоотвода предложено в зазор между пластинами подавать воздух. Как видно из рис. 8б формируется двигающаяся в верх газожидкостная струя, течение жидкости становится более интенсивным и наблюдается существенная дополнительная турбулизация потока. В дополнению к этому всплывающие пузырьки воздуха за счет поперечных пульсаций разрушают пристенный пограничный слой, что способствует увеличению коэффициента теплоотдачи.




Рис. 8. *Визуализация течения воды в пластинчатых ПТОА при свободной конвекции (а) и в случае создания газожидкостной струи (б)*

Проведенные теплотехнические исследования показали, что при температурных напорах (t_c–$t_в$) порядка 10^0C и более теплоотдача увеличивается в 6…9 раз. При уменьшении температурного напора, что связано, например, с прогревом морской воды в летний период, эффективность метода существенно увеличивается. Так при температурных напорах всего 2…4^0C теплоотдача увеличивается в 20…30 раз. При этом подаваемое количество воздуха на один метр длины устройства теплоотвода в горизонтальном направление составляло всего (0,14…1,15) $\cdot 10^{-3}$ м^3/с.

Выводы: Решение проблемы снижения отрицательного антропогенного воздействия систем охлаждения морских энергоустановок связано с широким внедрением в практику замкнутых систем охлаждения. Имеются положительные примеры создания таких систем и их эксплуатации. Без использования специальных методов интенсификации теплоотвода эффективность систем относительно мала, что сдерживает их широкое внедрение в практику. Предложен простой и одновременно эффективный метод решения данного вопроса, связанный с применением газожидкостных струй. В результате удается в несколько раз снизить массогабаритные характеристики устройств теплоотвода и в целом замкнутых систем охлаждения.

Литература

1. Биологический энциклопедический словарь [Электронный ресурс] // URL: http://dic.-academic.ru/dic.nsf/dic_biology/4312/ПЛАНКТОН (дата обращения: 19.05.2016).
2. Зайцев Ю.П. Жизнь морской поверхности [Электронный ресурс] // URL: http://-collectedpapers.com.ua/ru/hfs/ecology/life_of_the_sea_surface/ekologichni-piramidi-pripoverxnevogo-biotopu (дата обращения: 22.05.2016).
3. Краткая историческая экология: Регуляция численности популяций в биоценозах [Электронный ресурс] // URL: http://helpiks.org/6-1866.html
4. Звягинцев А.Ю. Морские техноэкосистемы энергетических станций [Текст] / А.Ю. Звягинцев, А.В. Мощенко. Владивосток: Дальнаука, 2010. 343 с.

5. Гарбаненко О.К. Оснащение водозаборов морских нефгазодобывающих платформ рыбозащитными устройствами [Электронный ресурс] // Материалы конференции Нефть и газ арктического шельфа-2008. URL: http://helion-ltd.ru/s-m-part-2/3713-2009-10-14-18-33-05/ (дата обращения: 23.07.2016)
6. Ващинников А.Е. Новые направления в разработке сетчатых рыбозащитных устройств [Текст] / А.Е. Ващинников, А.А. Васильев, К.В. Илюшин, В.Д. Шульгин // Материалы докладов 4-й Всерос. конф. с международным участием. Борок: Акварос, 2010. с. 9–13.
7. Федоровский К.Ю., Федоровская Н.К. Замкнутые системы охлаждения судовых энергетических установок. Москва.: ИНФРА-М, 2017. 163 с.
8. Федоровский К.Ю. Исследование теплопередачи в экологически безопасных системах охлаждения энергоустановок морских объектов / К.Ю.Федоровский, Н.К.Федоровская, В.А.Тимофеев // Фундаментальные и прикладные проблемы техники и технологии. 2016. № 3-4. с.82-88.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UOT 62.83.52

AVAR ELEKTRİK QURĞULARINDA TƏTBİQ OLUNAN YARIMKEÇİRİCİ ÇEVİRİCİLƏRİN MÜHAFİZƏSİNİN ARAŞDIRILMASI

İsmayılov S.S., Sultanov E.F., Cəlilov T.A.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000 Bakı ş. Z.Əliyeva küç., 18
E-mail: Sahib_İsmayıl @bk.ru, elshen_sultanov@mail.ru, turyan777@mail.ru

Xülasə. *Məqalədə gəmi avar elektrik qurğularının yarımkeçirici çeviricilərinin mühafizələrinin xüsusiyyətlərinə baxılmışdır və onların avar elektrik qurğularında tətbiq olunmasının vacibliyi qeyd edilmişdir.*

Abstract. *The characteristic features of protections of semiconductor converters of the ship propulsion electric devices have been considered and the importance of their application in the propulsion electric devices has been mentioned.*

Аннотация. *В статье рассмотрены особенности зашиты полупроводниковых преобразователей судовой гребной электроустановки и отмечена необходимость применения их в судовых гребных электроустановках.*

Açar sözlər: *gəmi, avar elektrik qurğuları, yarımkeçirici çevirici, mühafizə, qəza*


Key words: *ship, propulsion electric devices, semicunducter converter, security, emergency*

Ключевые слова: *судно, гребная электроустановка, полупроводниковые преобразователи, защита, авария*

Giriş. Avar elektrik qurğuları gəminin yol rejimində işləyirlər, buna görə də tezlik çeviricilərinin yarımkeçirici elementləri sıradan çıxdıqda elektrik enerjisini AEQ–na ötürülməsi mümkün olmur və gəmi qəzaya uğraya bilər. Bu səbəbdən də yarımkeçiricilərdən hazırlanmış tezlik çeviriciləri üçün cərəyanı işlədicilərdən kəsməyən xüsusi mühafizələr hazırlanır, onların bir neçəsinə bu məqsədlə məqalədə baxılmışdır.

Əsas hissə. Avar elektrik qurğularında və başqa gəmi elektrik intiqallarında avtonom invertorlu sabit cərəyan bəndinə malik olan tezlik çeviriciləri tətbiq edilir [1].

Şəkil 1–də yarımkeçiricilərdən hazırlanmış çeviricilərin siniflərə bölünməsi göstərilmişdir. Düzləndiricilər idarə olunmayan və idarə olunan olurlar. İdarə olunmayan düzləndiricisinin çıxışındakı gərginlik tənzim olunmur və onun qiyməti giriş gərginliyinin qiymətindən asılıdır. İdarə olunmayan düzləndiricinin idarə sistemi olmur və onun güc dövrəsi idarə olunmayan ventillərdən (diodlardan) yığılır. Belə düzləndiricilər başqa güc çeviricilərinə nisbətən sadə, ucuzdur və qoşulduqları şəbəkənin elektrik enerjisinin keyfiyyətini az pisləşdirirlər.



Şəkil 1. *Yarımkeçiricilərdən hazırlanmış çeviricilərin siniflərə bölünməsi*

İdarə olunan düzləndiricilərdə giriş gərginliyinin sabit olmasına baxmayaraq, çıxış gərginliyinin qiymətini dəyişmək olur. Belə düzləndiricinin güc dövrəsi tiristorlardan və ya tranzistorlardan yığılır.

İnvertorlar iki növ olurlar, avtonom invertorlar və şəbəkədən idarə olunan invertorlar.


Şəbəkədən idarə olunan invertorlar ancaq EHQ mənbəyi olan şəbəkələrə işləyə bilirlər. Yəni şəbəkənin EHQ mənbəyi bunların sabit cərəyan bəndinin əksinə yönəlir və o həm tiristordan keçən cərəyanı məhdudlaşdırır, həmdə onu bağlayır (cərəyanı sıfıra endirir). Müasir avtonom invertorlar tam idarə olunan ventillərdən qurulurlar, yəni ya iki əməliyyatlı tiristorlardan ya da tranzistorlardan. Bu invertorlar bütün elektrik işlədicilərinə cərəyan verə bilirlər [2, 3].

Yarımkeçirici tezlik çeviriciləri də iki növ olurlar. Bunların biri sabit cərəyan bəndi olan tezlik çeviricisi, ikincisi isə bir birbəndli və yaxud biləvasitə tezlik çeviricisi adlanır. Sabit cərəyan bəndi olan tezlik çeviricisi düzləndiricidən və invertordan ibarət olur, bir bəndli tezlik çeviricisinin isə aydın görünən sabit cərəyan bəndi olmur. Hər iki tip tezlik çeviricisinin öz müsbət və mənfi cəhətləri vardır, bunların tətbiq edilməsi isə işlədicilərin tipindən və istismar rejimindən asılıdır. Məsələn, az fırlanma tezliyinə malik olan avar elektrik mühərriklərini qidalandırmaq üçün birbəndli tezlik çeviricisinin tətbiq edilməsi əlverişli sayılır. Yarımkeçirici çeviricilərin istismarı zamanı onlarda qəza rejiminin yaranması mümkün sayılır. Yarımkeçirici çeviricilərin qəza rejimi nasazlığın baş verdiyi yerdən asılı olaraq xarici və daxili qəza qruplarına bölünür. Daxili qəza rejimi əsas olaraq güc sxeminin bir və bir neçə ventil qrupunda ventillərin elektrik və istilikdən deşilməsi zamanı baş verir. Bundan əlavə çevricinin enerji verdiyi işlədicinin artıq yüklənməsi və yaxud onda qısa qapanma yaranmasıda yarımkeçirici çevirici üçün qəza rejimi sayılır [2, 3].

Yarımkeçirici çeviricinin əsas qəza rejimlərinə aşağıdakılar aiddir:

1. İşlədicidə və ya yarımkeçiricini işlədici ilə birləşdirən elektrik şəbəkəsində qısa–qapanmanı yaradan xarici qəza;
2. Yarımkeçirici ventillərin yararsız hala düşməsindən yaranan daxili qəza;
3. İnvertorun çevrilməsi yəni invertorun ventillərinin düzgün işləməməsindən sabit cərəyan dövrəsində yaranan qısa qapanma;
4. Reversiv çeviricilərdə və yaxud bir bəndli tezlik çeviricisində bərabərləşdirici cərəyanların yaranması.

Şəkil 2-də istismar zamanı körpü sxem düzləndiricisində tez-tez baş verən qəzalar göstərilmişdir. Düzləndiriciyə gələn şinlərdə qısa-qapanma baş verdikdə düzləndiricinin verdiyi sabit gərginlik azalır və yaxud da yox (üç fazalı qısa-qapanma) olur (1-ci vəziyyət), amma tiristorların birinin deşilməsi düzləndiricidə daxili qısa-qapanma yaradır, hansı ki düzləndiricini yararsız hala salır (2-ci vəziyyət).




Şəkil 2. *Üçfazalı körpü sxemli düzləndiricinin qəza rejimləri*
1- dəyişən cərəyan şinlərində qısa qapanma
2- tiristorun deşilməsi
3- sabit cərəyan şinlərində qısa qapanma
4- işlədiciyə yaxın yerdə qısa qapanma

Düzləndiricinin çıxışında yaranan qısa-qapanma (3-cü vəziyyət) tez bir zamanda düzləndiricini yararsız hala sala bilər. İşlədicidə və yaxud onun yaxınlığında qısa-qapanma yarandıqda (4-cü vəziyyət) qısa-qapanma dövrəsində böyük induktivlik olduğu üçün qısa-qapanma cərəyanı nisbətən ağır-ağır artır və öz qərarlaşmış qiymətinə çatır.

İnvertorda yaranan qəza hadisəsi əsas olaraq idarə sisteminin düzgün işləməməsindən və yaxud tristorlardan birinin və ya bir neçəsinin deşilməsindən yaranır. Göstərilən səbəblərdən invertorun bir qolunda iki ventil eyni zamanda cərəyan keçirir bu hadisə invertor ücün ən ağır qəza sayılır.

Şəkil 3-də qırıq xətlərlə iki ventildən keçən qısa-qapanma cərəyanı göstərilmişdir. Belə qısa-qapanma nəticəsində invertorun ventillərindəndən keçən cərəyanın qiyməti nominala nisbətən 30÷40 dəfə arta bilər. Əlbəttə, cərəyanın bu qədər artması dövrədə olan aparatları ciddi zədələyər.



Şəkil 3. *İnvertorun qısaqapanması nəticəsində yaranan qəza rejimi*

Qısa-qapanma cərəyanın artma sürətini və qiymətini azaltmaq üçün invertorun sabit cərəyan dövrəsinə böyük induktivli reaktor qoşulur.

Qeyd etmək lazımdır ki, avtonom invertorda da şəbəkədən idarə edilən invertorda olduğu kimi eyni xarakterli qəza rejimləri baş verir.

Yarımkeçirici çeviricilərin gərginliyin sıçrayışla artmasına, artıq yüklənməyə və ya qısa-qapanma cərəyanının qiymətinə eləcə də onun artma sürətinə çox həssas olduqları üçün onların mühafizəsinə sərt tələblər verilir hansı ki, bəzən mövcud komutasiya mühafizə aparatları tərəfindən yerinə yetirilməsi mümkün olmur [2, 3].


Şəkil 4-də üç fazalı körpü sxemli yarımkeçirici düzləndiricinin tez işləyən əriyən qoruyucular vasitəsilə mühafizəsi göstərilmişdir.

Qoruyucular aşağıdakı kimi qoyulurlar:

- xarici qısa-qapanmadan mühafizə üçün dəyişən cərəyan xətlərində;
- daxili qısa-qapanmadan mühafizə üçün yarımkeçirici ventillərdə ardıcıl;
- işlədicilərdə və onlara gedən naqillərdə yaranan qısa-qapanmadan mühafizə üçün sabit cərəyan dövrəsinin çıxışında qurulur.

Qeyd etmək lazımdır ki, val generatoru qurğusunun (VGQ) və avar elektrik qurğularının tərkibinə daxil olan yarımkeçirici çeviricilərin əriyən qoruyucular vasitəsilə mühafizə olunmasına icazə verilmir, çünki belə mühafizə gəminin cərəyansız qalmasına səbəb ola bilər. Belə qurğularda çeviricini mühafizə etmək üçün yarımkeçirici mühafizə qurğularından (tiristor açıcısı və ya qısa qapayıcı) istifadə edilir.

Tiristor açıcısı bir və yaxud iki əməliyyatlı tiristorun üzərində qurulur və normal iş rejimində o avtomat açar kimi cərəyan keçirir. Qəza hadisəsi baş verdikdə idarə sistemindən verilən siqnala görə tiristor bağlanır (cərəyan keçirmir) və bu vaxt cərəyan tristora paralel qoşulmuş müqavimətdən keçir, bunula da cərəyan azalır [2, 3].




Şəkil 4. *Tezişləyən əriyən qoruyucular vasitəsilə üçfazalı düzləndiricinin mühafizəsinin sxemi*

Tiristor qısaqapayıcı tiristor açıcısından fərqli olaraq normal iş rejimində cərəyan keçirmir və qəza hadisəsi baş verdikdə açılıb körpü düzləndiricisinin bir hissəsini dövrəyə müqavimət qoşmaqla qısa qapayır.

Şəkil 5a -da qısa qapayıcı mühafizənin sxemi göstərilmişdir. Bu mühafizə VD7÷9 tiristorundan ibarət olub körpü düzləndiricisinin VD1÷3 tiristorlarına paralel bağlanmışdır.

Qəza baş verdikdə VD1÷3 tiristorları qapanır, VD7÷9 tiristorları isə açılır. Nəticədə dövrəyə cərəyan azaldan R-müqaviməti qoşulur.

Şəkil 5 b–də iki əməliyyatlı tiristordan VD7 və R müqavimətindən ibarət olan açıcı tiristor mühafizəsi göstərilmişdir. Qəza hadisəsi baş verdikdə (əsasən dövrədə qısa-qapanma yarandıqda) VD7 tiristoru qapanır (bağlanır) və cərəyan R müqavimətindən keçir. Qeyd etmək lazımdır ki, kontaktsız və tez işləyən yarımkeçirici qurğular mühafizə məqsədindən başqa yarımkeçirici çeviricilərin dövrəyə qoşulması və açılması üçün də istifadə edilir. Bu halda onların komutasiya aparatı ehtiyyatda qalır.



Şəkil 5. *Yarımkeçirici çeviricinin qısa qapayıcı (a) və açıcı (b) tiristorlarla mühafizəsi*

Nəticə. Məqalədə gəmi avar elektrik qurğularının yarımkeçirici çeviricilərinin mühafizələrinin xüsusiyyətləri araşdırılmış və onların avar elektrik qurğularında tətbiq olunmasına baxılmışdır.

Ədəbiyyat

1. H.A Mehdiyev. Gəmilərin elektrik avadanlığı. Bakı, «Ti- Media», 2008, 398 səh.
2. E.F. Sultanov. Elektron güc çeviricilərinin gəmilərdə tətbiqi. ADDA-nın mətbəəsi, Bakı, 2015, 100 səh.
3. Лихошерст В.И. Полупроводниковые преобразователи электрической энергии с импульсным регулированием. Екатеринбург, УГТУ, 2000 г., 116 ст.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UDK 621.437

6L20 MARKALI BAŞ GƏMİ DİZELİNİN İŞÇİ TSİKLİNİN HESABLAMA METODİKASI

İsmayılov A.Ş., Axundov İ.S.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000, Bakı ş., Z.Əliyeva küç.,18
E-mail: a.ismayilov27@gmail.com

Xülasə. *Məqalədə 6L20 markalı baş gəmi dizel mühərrikinin işçi tsiklini hesablamaq üçün tərtib olunmuş hesablama metodikasının və riyazi modelin əsas müddəaları, eləcə də bu hesablama metodikasının adekvatlığının yoxlanılmasının nəticələri şərh edilmişdir.*

Аннотация. *В статье излагаются основные положения расчетной методики и математической модели рабочего цикла главного судового дизельного двигателя марки 6L20, а также результаты проверки адекватности этой расчетной методики.*

Abstract. *The basic principles on the calculation methodics and the mathematical model have been outlined in this article as compiled on operating cycle of 6L20 marine main diesel engine in line with comments on the checking results upon adequacy of this calculation technique.*

Açar sözlər: *hesablama metodikası, riyazi model, işçi tsikl, dizel mühərriki, yanma müddəti, təzyiq, temperatur, yanma prosesi, püskürmə təzyiqi, indikator göstəriciləri, effektiv göstəricilər*

Ключевые слова: *расчетная методика, математическая модель, рабочий цикл, дизельный двигатель, продолжительность сгорания, давление, температура, процесс сгорания, давление впрыска, индикаторные показатели, эффективные показатели*

Key words: *calculation methodics, mathematical model, operating cycle, diesel engine, combustion period, pressure, temperature, combustion process, injection pressure, indicator parameters, effective indicators*

Giriş. Məlumdur ki, riyazi modelləşdirmədən istifadə olunması yeni konstruksiyaların yaradılmasında və istfadədə olan digər konstuksiyaların təkmilləşdirilməsində, riyazi eksperimentlərin və nəzəri tədqiqatların yerinə yetirilməsində konstruktor və tədqiqatçıların imkanlarını xeyli genişləndirir, vaxtın və motor sınaqlarına çəkilən xərclərin azaldılmasına imkan verir. Odur ki, mühərrikin işçi tsiklinin hesablama metodikasının riyazi modelinin tərtib olunması, onun alqoritminin və hər hansı bir alqoritmik dildə proqramının hazırlanaraq kompyuterdə rellaşdırılması mühərrikin konstruksiyasının və işçi tsiklinin ttəkmilləşdirilməsi, eləcə də

mühərrikin istismar parametrlərinin rasional qiymətlərinin təyin olunması məqsədi ilə çox vaxt itirmədən riyazi eksperimentlərin yerinə yetirilməsində çox mühüm yer tutur.

Aşağıda, 6L20 markalı baş gəmi dizel mühərrikinin işçi tsiklini hesablamaq üçün tərtib olunmuş hesablama metodikasının və onun kompyuterdə reallaşdırılması üçün hazırlanmış riyazi modelin əsas müddəaları, eləcə də, bu hesablama metodikasının adekvatlığının yoxlanılmasının nəticələri şərh edilmişdir.

Əsas hissə. 6L20 markalı dizel mühərriki "Gəncə" gəmisində baş mühərrik kimi istifadə olunur. Bu mühərrik 4-taktlı, üstəlik üfürməli və yüksək dövrlüdür. Onun əsas texniki-iqtisadi göstəriciləri cədvəl 1-də göstərilmişdir.

6L20 markalı dizel mühərrikinin işçi tsiklinin hesablama metodikası və riyazi model 2Ч10,5/13 markalı dizelin işçi tsiklinin riyazi modelinin əsasında tərtib edilmişdir [1]. Lakin həmin riyazi modeldən fərqli olaraq bu metodikada yanma zamanı istilik ayrılmasını xarakterizə edən üstün göstəricisi (m), yanma periodunun müddəti (φ_z), eləcə də yanma nəticəsində ayrılan istilikdən istifadə olunma əmsalının (ξ_z) mühərrikin nominal iş rejimində təyin edilməsi üçün aşağıdakı empirik ifadələrdən istifadə olunmuşdur:

Cədvəl 1

6L20 markalı baş gəmi dizelinin əsas texniki-iqtisadi göstəriciləri

Göstəricilər	Qiyməti
1. Mühərrikin nominal dövrlər sayı (*n*), *dəq.*$^{-1}$	1000
2. Mühərrikin nominal gücü (*Ne*), *kVt*	1080
3. Silindrin diametri (*D*), *mm*	200
4. Porşenin gedişi (*S*), *mm*	280
5. Silindrlərin sayı (*i*)	6
6. Mühərrikin sıxma dərəcəsi (ε)	15
7. Porşenin orta sürəti (v_{por}) *m/san.*	9,33
8. Üstəlik üfürmə təzyiqi (P_s), *MPa*	0,3
9. Mühərrikin orta effektiv təzyiqi (P_e), *MPa*	2,46
10. Mühərrikin xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	190
11. Qazpaylama fazaları *sorma klapanı:* açılır, *dərəcə* - y.ö.n-ə qalmış bağlanır, *dərəcə* - a.ö.n-dən keçmiş *xaricetmə klapanı:* açılır, *dərəcə* - a.ö.n-ə qalmış bağlanır, *dərəcə* - y.ö.n-dən keçmiş	 29,2 33 40,2 27,2
12. Yanacaq verilməsinin qabaqlama bucağı (θ_{men}), *dərəcə* - y.ö.n-ə qalmış	9,8
13. Forsunkadan yanacağın başlanğıc püskürmə təzyiqi (P_{fo}), MPa	45

$$m = 0{,}2103 + 0{,}1401 \cdot 10^{-2} \cdot n - 0{,}1042 \cdot 10^{-5} \cdot n^2 + 0{,}2315 \cdot 10^{-9} \cdot n^3 \qquad (1)$$

$$\varphi_{zop} = -104{,}393 + 0{,}6198 \cdot P_{fo} - 0{,}1719 \cdot P_{fo}^2 + 0{,}5208 \cdot 10^{-2} \cdot P_{fo}^3 \qquad (2)$$

$$\xi_{zop} = \left(0{,}891049 + 0{,}9062525 \cdot 10^{-2} \cdot P_{fo} - 0{,}2187509 \cdot 10^{-3} \cdot P_{fo}^2\right) \cdot \ \cdot \rho_{dy}/\rho_{dt} \qquad (3)$$

burada φ_{zop} və ξ_{zop} - mühərrikin nominal iş rejimi üçün yanma müddətinin və yanmada ayrılan istilikdən istifadə olunma əmsalının optimal qiymətləri; ρ_{dy} – mühərrikdə istifadə olunan standart dizel yanacağının sıxlığı, *kq/m*^{3}; ρ_{dt} –mühərrikdə istifadə oluna biləcək digər yüngül və ağır dizel yanacaqlarının sıxlığı, *kq/m*^{3}, P_{fo} - mühərrikin nominal iş rejimində forsunkanın başlanğıc püskürmə təzyiqidir, *MPa*.

Forsunkanın başlanğıc püskürmə təzyiqi dəyişdirildikdə yanma müddəti və yanmada ayrılan istilikdən istifadə olunma əmsalı da dəyişəcəkdir. Belə ki, başlanğıc püskürmə təzyiqinin cari qiyməti (P_{fx}) mühərrikin nominal iş rejimindəki qiymətdən (P_{fo}) böyük və yaxud kiçik olduqda yanma müddətinin cari qiyməti (φ_z) artır, istilikdən istifadə olunma əmsalının cari qiyməti (ξ_z) isə azalır:

$P_{fx} \geq P_{fo}$ olduqda

$$\varphi_z = \varphi_{zop} \cdot P_{fx} / P_{fo} \quad (4)$$

$$\xi_z = \xi_{zop} \cdot P_{fo} / P_{fx} \quad (5)$$

$P_{fx} < P_{fo}$ olduqda isə

$$\varphi_z = \varphi_{zop} \cdot P_{fo} / P_{fx} \quad (6)$$

$$\xi_z = \xi_{zop} \cdot P_{fx} / P_{fo} \quad (7)$$

(3) ifadəsində ρ_{dy}/ρ_{dt} nisbəti onu göstərir ki, istifadə olunan yanacağın sıxlığı artarsa, yəni yanacaq ağırlaşarsa silindrə püskürülən yanacağın buxarlanma qabiliyyəti pisləşdiyinə görə yanıcı qarışığın hazırlanma keyfiyyəti də pisləşir ki, bu da öz növbəsində istilikdən istifadə olunma əmsalının azalmasına səbəb olur.

Başlanğıc püskürmə təzyiqinin dəyişməsi induksiya periodunu (τ_i) da təsir göstərir. Belə ki, başlanğıc püskürmə təzyiqinin böyüməsi nəticəsində püskürmə momentinin dəyişmədiyi halda induksiya periodunun da artması və yanmanın başlanma momentinin kiçilməsi baş verir [2]. Bu mülahizələrə əsasən induksiya periodunun təyin etmək üçün aşağıdakı ifadədən istifadə olunur:

$$\tau_i = (\theta - \theta_{c'-c''}) \cdot \rho_{dt}/\rho_{dy} \quad (8)$$

burada θ – yanacağın silindrrə verilməsinin qabaqlama bucağının həqiqi qiyməti, daha doğrusu, yanacaq silindrə püskürüldüyü andan (f) yanma başlayan ana qədər (c') olan bucaq (*saniyə* və ya *dərəcə* ilə); $\theta_{c'-c''}$- yanma başlandığı andan (c') y.ö.n.-ə qədər (c'') olan bucaqdır (*saniyə* və ya *dərəcə* ilə).

$\theta_{c'-c''}$ püskürmənin başlanğıc təzyiqindən (P_{fo}) asılı olaraq aşağıdakı empirik düsturla təyin olunur:

$$\theta_{c'-c''} = 19{,}66865 - 0{,}5904 \cdot P_{fo} + 0{,}1641 \cdot 10^{-2} \cdot P_{fo}^2 - 0{,}2604 \cdot 10^{-3} \cdot \cdot P_{fo}^3 \quad (9)$$

Yanacağın silindrə verilməsinin həqiqi qiymətinin isə aşağıdakı kimi təyin olunması təklif edilir:

$$\theta = \theta_{men} - \Delta\theta \quad (10)$$

burada θ_{men}– yanacağın silindrə verilməsinin qab aqlama bucağının meniskə görə qiyməti, *saniyə* və ya *dərəcə* ilə; $\Delta\theta$ - yüksək təzyiqli yanacaq nasosunun (YTYN) çıxışından forsunkanın soplo deşiklərinin çıxışına qədər olan hissədə yanacağın sıxılması nəticəsində yanacaq verilməsinin gecikməsini nəzərə alan bucaqdır, *saniyə* və ya *dərəcə* ilə.

$\Delta\theta$ aşağıdakı empirik düsturla hesablanır [3]:

$$\Delta\theta = 5{,}85 \cdot 10^{-3} \cdot n - 2{,}7 \quad (11)$$

burada *n* – mühərrikin dövrlər sayıdır, *dəq*$^{-1}$.


6L20 markalı baş gəmi dizelində yanacaq verilməsinin qabaqlama bucağının (θ) mühərrikin göstəricilərinə təsiri tədqiq edilərkən induksiya periodu A.İ.Tolstovun təklif etdiyi aşağıdakı empirik düsturla təyin edilmişdir [4]:

$$\tau_i = \sqrt{\left(\frac{V_\theta - V_c}{V_{zsk}} + \frac{1}{\varepsilon}\right)\frac{T_o}{P_o}} \cdot 10 \cdot B \cdot exp\left[\left(\frac{V_\theta - V_c}{V_{zsk}} + \frac{1}{\varepsilon}\right)^{0{,}34} \cdot E/\left(R_\mu \cdot T_o\right)\right] \cdot \rho_{dt}/\rho_{dy} \quad (12)$$

burada V_θ və V_{zsk} – uyğun olaraq yanacağın silindrə verilməsinin başlanğıcında və sorma klapanı bağlandıqda silindrin həcmləri; E – şərti aktivləşmə enerjisi, *MCl/kmol*; $B = (1\text{-}1{,}6\cdot10^{-4}n)\cdot12\cdot10^{-5}$ - əmsal; ε – mühərrikin sıxma dərəcəsi; P_o *və* T_o - ətraf mühitin təzyiq və temperaturu, *MPa* və *K;* R_μ- universal qaz sabitidir, *MCl/(kmol·K)*.

Yuxarıda qeyd edildiyi kimi riyazi eksperimentlər tərtib olunmuş riyazi modelin köməyi ilə mühərrikin nominal iş rejimində, Fotran alqoritmik dilində hazırlanmış proqram əsasında kompyuterdə yerinə yetirilmişdir. Bu zaman forsunkanın başlanğıc püskürmə təzyiqinin (P_{fx}), yanacaq verilməsinin qabaqlama bucağının (θ) və yanacağın sıxlığının (ρ_{dt}) müxtəlif qiymətlərində mühərrikin işçi tsiklinin hesabı aparılmış, yanma prosesinin gedişini xarakterizə edən əsas parametrlər, mühərrikin indikator və effektiv göstəriciləri təyin edilmişdir.

Şəkildə 6L20 markalı baş gəmi dizelində nominal iş rejimi üçün y.ö.n-ə 40^0 qalmış və y.ö.n.-dən 50^0 keçmiş silindrdəki təzyiqin, eləcə də temperaturun dəyişməsinin hesabi qrafikləri, daha doğrusu, indikator diaqramı göstərilmişdir. Bu zaman başlanğıc püskürmə təzyiqi $P_{fo}=45$ *MPa*, yanacaq verilməsinin qabaqlama bucağı $\theta_{men}=9{,}8^0$ və yanacağın sıxlığı $\rho_{dy}=848$ *kq/m*^{3} qəbul olunmuşdur. Şəkildən göründüyü kimi təzyiqin maksimum qiyməti ($P_z=18{,}56$ *MPa*) y.ö.n.-dən $13{,}5^0$ keçmiş, temperaturun maksimum qiyməti ($T_{zmax}=1992K$) y.ö.n.-dən $25{,}5^0$ keçmiş alınır.



Şəkil. *6L20 markalı baş gəmi dizelində nominal iş rejimində yanma prosesində silindrdəki təzyiq və temperaturun dəyişməsinin hesabi qrafikləri ($P_{fo}=45$ MPa; $\theta_{men}=9{,}8^0$; n=10)*

Bu diaqrama əsasən yanma zamanı təzyiqin orta yüksəlmə sürəti, və yaxud, mühərrikin orta sərtlik dərəcəsi ($\Delta P/\Delta\varphi$) və yanmada təzyiqin maksimum yüksəlmə sürəti, və yaxud, mühərrikin maksimum sərtlik dərəcəsi $(dP/d\varphi)_{max}$ aşağıdakı ifadələrlə təyin edilir:

$$\frac{\Delta P}{\Delta\varphi} = \frac{P_z - P_{c'}}{\Delta\varphi_{c'z}} = \frac{18{,}56-9{,}8}{18{,}5} = 0{,}474\ MPa/dər \quad (12)$$

$$\left(\frac{dP}{d\varphi}\right)_{max} = tg\ \varphi = tg\ 75^0 = 3{,}73\ MPa/dər \quad (13)$$

burada $P_{c'}$ - yanma başladıqda silindrdəki təzyiq, *MPa*; $\Delta\varphi_{c'z}$ - yanma başlandığı andan (c') silindrdəki təzyiq maksimum qiymət aldığı ana (z) qədər olan bucaq intervalı, *dərəcə*; γ – görünən yanma xəttinə çəkilən toxunanın absis oxu ilə əmələ gətirdiyi bucaqdır, *dərəcə*.

Riyazi eksperimentlərin adekvatlığını, yəni hesablamaların nəticələrinin doğruluğunu yoxlamaq üçün bu nəticələri 6L20 markalı mühərrikin pasport göstəriciləri ilə müqayisə etmək lazımdır. Bu müqayisə cədvəl 2-də göstərilmişdir. Cədvəldən göründüyü kimi ən böyük xəta *2,63%* (xüsusi effektiv yanacaq sərtinin hesabında), ən kiçik xəta isə 0,32% (yanmanın maksimum təzyiqinin hesabında) alınmışdır. Deməli, xətalar 0,32÷2,63% hədlərindədir ki, bu da mühərrikin işçi tsiklinin hesabı üçün buraxılabilən hədlərdədir. Ona görə də riyazi eksperimentlərin nəticələri qənaətbəxş hesab oluna bilər.

Nəticə. Beləliklə, hesablamaların nəticələrinin 6L20 markalı mühərrikin pasport göstəriciləri ilə müqayisəsi işçi tsiklin riyazı modelinin adekvat olduğunu göstərdi ki, bu da həmin riyazi modelin əsasında yerinə yetirilən riyazi eksperimentlərin nəticələrinin doğruluğuna dəlalət edir.

Cədvəl 2.

6L20 markalı mühərrikin pasport və hesabi göstəricilərinin müqayisəsi

($n=1000\ dəq^{-1}$; $\eta_m = 0{,}85$; $P_s=0{,}3\ MPa$; $P_{fo}=45\ MPa$; $\theta_{men}=9{,}8^0$)

Göstəricilər	Hesabi qiymət	Pasport qiyməti	Xəta, %
1.Mühərrikin indikator gücü (N_i), *kVt*	1247	-	-
2. Mühərrikin orta indikator təzyiqi (P_i), *MPa*	2,834	-	-
3. Mühərrikin xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt\cdot saat}$	157,2	-	-
4. Mühərrikin effektiv gücü (N_e), *kVt*	1060	1080	1,85
5. Mühərrikin orta effektiv təzyiqi (P_e), *MPa*	2,41	2,46	2,03
6. Mühərrikin xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt\cdot saat}$	185	190	2,63
7. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	18,56	18,5	0,32

Ədəbiyyat

1. A.Ş. İsmayılov, İ.S. Axundov. Dördtaktlı gəmi dizelinin işçi tsiklini hesablama metodikası və onun riyazi modeli. Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, № 1, 2015, s.92-96.
2. В.Е.Лазарев, Г.В.Ломакин, Е.А. Лазарев. Параметры процесса сгорания топлива и показатели рабочего цикла дизеля при изменении давлении начала впрыскивания топлива. Вестник ЮУрГУ, №11, 2011, с.83-86.
3. И.В.Парсаданов, С.И.Третьяков. Оценка влияния угла начала подачи топлива на показатели динамической напряженности и топливной экономичности быстроходного дизеля. Двигатели внутреннего сгорания №1, 2004, с. 30-33
4. Двигатели внутреннего сгорания: Теория поршневых и комбинированных двигателей. Учебник для вузов по специальности "Двигатели внутреннего сгорания" / Д.Н.Вырубов, Н.А.Ивашенко, В.И.Ивин и др.: Под ред. А.С.Орлина, М.Г.Круглова - 4-е изд., перераб. и доп. М.: Машиностроение, 1983, 372 с. ил.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UOT 621-192; 621.81-192

GƏMİ LÖVBƏR MAŞIN VƏ MEXANİZMLƏRİNİN İSTİSMAR XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN ETİBARLILIĞININ TƏDQİQİ

Quliyev Ə.M.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000, Bakı ş., Z.Əliyeva küç., 18
E-mail: alimardan.quliyev@acsc.az

Xülasə. *Məqalədə gəmi lövbər maşın və mexanizmlərinin istismar xüsusiyyətləri araşdırılmış, onların etibarlılığı tədqiq edilmişdir. Məlum olmuşdur ki, gəmilərdə yanalma bucurqadının göstəricilərinə əsasən seçilməsi həm mexanizmin qabarit ölçülərini kiçiltməyə, həm də bütövlükdə bucurqadın etibarlılığını artırmağa imkan verir.*

Abstract. *In this article the features of the ship, engine and mechanisms have been investigated and previewed their reability. It was known that the choice of the moorning winch according to its indicators gives chance to decrease of the mechanisms also to increase the reliability of winch as a whole .*

Аннотация. *В статье рассмотрены особенности эксплуатации машин и механизмов якорных устройств, и исследована их надёжность. Установлено, что выбор судовых швартовных лебёдок на основании их показателей дает возможность уменьшить габариты механизма и повысить надежность лебёдки в целом.*

Açar sözlər: *gəmi, yanalma, bucurqad, kanat, braşpil, lövbər, zəncir*
Key words*: vessel (ship), moorning, winch, howser, windloss, anchor, chain*
Ключевые слова: *судно, швартовная лебёдка, канат, брашпиль, якорь, цепь*

Giriş. Ümumgəmi qurğularının konstruktiv xüsusiyyətləri və komplektləşdirilməsi çox müxtəlifdir. Ənənəvi sükan qurğuları köməkçi sükan qurğuları və aktiv sükanlarla tamamlanırlar. Lövbər və yanalma mexanizmlərinin tərkibində məsafədən idarə edilən zəncir stoporları, fırlanan tumbalı knextlər, yarımdalan üzən qazma qurğuları və kran gəmilərinin yerləşdirilməsi üçün xüsusi bucurqadlar meydana çıxdı. Yükləmə-boşaltma qurğuları körpü tipli hərəkətli kranlarla, ikili və qatlanan oxlu kranlarla təmin edilmişlər. Bundan başqa gəmilərdə lixterlərin-üzən konteynerlərin yüklənib boşaldılması üçün müxtəlif tipli yükləmə-boşaltma qurğuları da istifadə edilir. Gəmilərdə əl əməyinin həcmini əhəmiyyətli dərəcədə azaldan müxtəlif qaldırıcı vasitələrdən, elevatorlardan və liftlərdən; yüklərin bərkidilməsi üçün yeni vasitələrdən və konteynerlərin bərkidilməsi üçün avtomatik qıfıllardan; yüklərin qablaşdırılması və palletlərdən (poddon), fletlərdən, roll-treylerlərdən istifadə etməklə yüklərin bərkidilməsi; rezin qoruyuculardan, sintetik kəndirlərdən, hava ilə doldurulan sallardan və s. istifadə edilir [1].

Əsas hissə. Gəmilərin istismarı zamanı lövbər qurğusunu saz vəziyyətdə saxlamaq lazımdır ki, o istismara daim hazır vəziyyətdə olsun. İstismar zamanı lazımdır:

-lövbər zəncirinin rənglənməsi və markalanması müntəzəm aparılsın;

-lövbər zəncirinin və onun detallarının gəminin gövdəsinə bərkidilmə vəziyyətləri müntəzəm yoxlanılsın;

-ucluğun təsili verilməsi üçün qurğu saz vəziyyətdə saxlanılmalı, yağlanaraq işə hazır vəziyyətdə olmalıdır;

-braşpili (şpili) istifadə etməzdən əvvəl yüksüz iş rejimində yoxlamaq tövsiyyə edilir;

-lövbər zəncirlərinin təmiz olması üçün onları qaldırarkən həmişə yumaq lazımdır;

-gəmi hərəkətdə olarkən lövbər zənsirləri stoporlarda olmalıdırlar.

Lövbərlər lövbər yerlərinə axıra qədər çəkilməyiblərsə, gəmilərin hərəkəti qadağandır:

-zəncir qutuları ildə bir dəfə çirkdən və pasdan təmizlənməlidir;

-qışda buz bağlamış lövbər və lövbər zəncirləri işə buraxılmazdan əvvəl buzdan təmizlənməlidir;

-lövbər zəncirinin birləşdirici skobunu braşpilin (şpilin) ulduzunda saxlamaq olmaz, bunun üçün braşpil dayandıqdan sonra zənsiri boşaltmaq lazımdır;

-lövbərdə uzunmüddətli dayanmalar zamanı nəzarət etmək lazımdır ki, zənsirlər burulmasın.

Braşpillərə (şpillərə) qulluq və onlara texniki xidmət gəmi köməkçi mexanizmlərinə və avadanlıqlarına texniki xidmət qaydalarına uyğun olaraq aparılmalıdır.

Lövbər qurğusu təmir edilərkən texniki vəziyyətinin təyin edilməsi zamanı aşağıdakılar əsas götürülməlidir:

-lövbər zəncirlərinin halqaları orta diametri 1/10 qədər aşındıqda və ya çat olduqda həmin halqa dəyişdirilir;

-zəncirlərin halqalarının barmaqları zəifləyibsə və ya düşübsə həmin halqalar dəyişdirilir.

Lövbər zəncirləri iki ildə bir dəfə təftiş üçün Registrə təqdim edilməlidir.

Braşpilin yük valının üzərindəki zəncirin ağırlığı nəticəsində həm zəncirdə, həm də barabanda sürtünmə və yeyilmə baş verir, mexanizmin istismar müddəti qısalır. Aşağıdakı şəkillərdə bunu əyani olaraq görmək mümkündür [2].



Şəkil 1. *Zəncirin lövbər borusunda yuyulması.*

Bu, mülki gəmilərdə iqtisadi nöqteyi-nəzərdən sərfəli deyil, hərbi gəmilərdə isə döyüş hazırlığının aşağı düşməsinə səbəb olur. Ümumiyyətlə, braşpil qurğusunun demontaj olunması, bərkidici mexanizmlərdəki bolt və qaykaların sayı çox olduğundan onların açılması 2-3 gün vaxt aparır.

Mexanizmin dişlərinin təmir edilməsi və həmin braşpilə uyğun düzəldilməsi üçün 5-7 gün vaxt tələb olunur. Təmir işlərindən sonra bütün bu mexanizmlərin yerlərinə bərkidilməsi ən azı 2-3 gün də əlavə vaxt aparır. Şpil və braşpildə yük valına birləşən hissə möhkəm və dayanıqlı metaldan seçilməlidir.

Braşpilin oymağı daha möhkəm metal komponentlərdən hazırlanarsa, onun istismar müddəti, dayanıqlılığı, etibarlılığı artar, həm də iqtisadi cəhətdən sərfəli olar.

Aşağıdakı metallar təbiətdə ən möhkəm metallar hesab edilir. Braşpillərin vtulkalarının bu metalların qarışıqlarından hazırlanması effektifliyin və etibarlılığın artırılmasında mühüm rol oynayardı.

İridiumun termiki və kimyəvi üsulla emalı olduqca çətindir. İridium turşularla reaksiyaya girmir.

Xrom da bərk metaldır. O mexaniki emal edilə bilir. Xrom ilk dəfə 1766-sı ildə Yekaterinburq ətrafında tapılıb.

Volfram başqa metallara nisbətən ən bərk metal hesab edilir. Onun ərimə temperaturu çox yüksəkdir. Ondan yüksək yalnız karbonun ərimə temperaturudur.

Bu qeyd olunanları nəzərə alaraq müəyyən etmək olar ki, gəmilərin göyərtəsində istifadə olunan lövbər mexanizmlərinin istismar xüsusiyyətləri onların mexaniki xassələrindən və materialının seçilməsindən asılıdır.




Şəkil 2. *Braşpilin yük valının üzərindəki zəncirin ağırlığı nəticəsində həm zəncirdə, həm də barabanda sürtünmə və yeyilməni əks etdirən görüntülər.*

Gəmilərin göyərtələrində yerləşən və aid olduqları gəmi qurğularının işlərini təmin edən maşın və mexanizmlər göyərtə mexanizmləri adlanırlar. Yükləmə-boşaltma qurğularının tərkibinə yük bucurqadları, qülləli, körpülü və portal kranlar daxildirlər. Lövbər və yanalma qurğularının tərkibinə braşpillər, lövbər-yanalma şpilləri, fırlanan tumbalı knextlər, avtomatik və adi yanalma

bucurqadları daxildirlər. Bu mexanizmlərdən biri də gəmilərin yanalma bucurqadıdır. Şəkil 3-də gəmini sahilə çəkmək və sahildə saxlamaq üçün nəzərdə tutulmuş «Norvinç» firmasının hidravlik intiqallı lövbər-yanalma bucurqadı göstərilmişdir. Bucurqad 15 çərçivəyə bərkidilir. Onun işçi valı sütunlardakı 5 üç sürüşmə yastığı üzərinə qoyulub və birpilləli silindrik reduktorlu 4 təbəqəli hidromühərriklə 3 hərəkətə gətirilir. Zəncir ulduzcuğu 7 və yanalma barabanı 11 əyləc şkifləri ilə birlikdə hazırlanaraq vala sərbəst oturdulur. Val da öz növbəsində 8 və 9 muftaları ilə birləşdirilə bilir. Zəncir ulduzcuğu 7 və yanalma barabanı 11 sərbəst vəziyyətdə 13 və 14 idarəetmə maxovikli 6 və 10 lentşəkilli əyləcləri ilə tormozlanırlar. Turaçka 12 vala işgil vasitəsilə oturdulur[3].

Bucurqadın idarə edilməsi dəstəklə 2 sürətin və dartı qüvvəsinin pilləli dəyişdirilməsi və revers dəstəyi 1 ilə hyata keçirilir. Lövbərin buraxılması zəncirin sərbəst buraxılması üçün nəzərdə tutulmuş mufta 8 vasitəsilə yerinə yetirilir. Lövbərin sərbəst buraxılma sürəti əllə və ya hidrointiqal vasitəsilə lentşəkilli əyləclə 6 həyata keçirilir. Lövbərin qaldırılması qoşulmuş mufta 8 vasitəsilə hidromühərriklə yerinə yetirilir. Suya buraxılmış zəncirin uzunluğunun dəyişdirilməsi ulduzcuqda quraşdırılmış maqnitlərdən ibarət olan qurğu və çərçivədə quraşdırılmış verici açar ilə tənzimlənir. Verici açar hərəkətli maqnitlərlə təsirlənir. Onun impulsları əqrəbləri zəncirin hərəkəti istiqamətində meyl edən göstəriciyə ötürülür. Böyük əqrəb suya buraxılmış zəncirin uzunluğunu metrlərlə, kiçik əqrəb isə zəncir çatısı ilə fiksasiya edir. İşə başlamazdan əvvəl əqrblərin vəziyyətlərini yoxlamaq və lazım gəldikdə onları sıfırlamaq tələb olunur.




Şəkil 3. *«Norvinç» firmasının lövbər-yanalma bucurqadının sxemi*

Zəncir ulduzlarının əyləclərinin məsafədən idarə edilməsi kapitan körpüsündən elektrohidravlik sistemin köməyi ilə həyata keçirilir (şəkil 4). Elektrohidravlik sistem süzgəcli 2 və vurucu boru xəttindəki qoruyucu klapanlı 1 ötürücü nasosdan, zolotnikli paylayıcıdan 16 və hidromühərrikdən 7, reduktordan 13, hidravliki muftadan 12 ibarətdir. Hərəkətli qaykalı 11 əyləc vinti 10 dəstəyə 9 təsir edərək muftanı 12 fırladır. Paylayıcının 16 yuxarı vəziyyəti əyləcin 8 sıxılma vəziyyətinə uyğun gəlir. Vurucu boru xəttindəki yağ təzyiqi 3,0 MPa-dan 1,9 MPa-a qədər azaldan reduksion klapandan 5 keçməklə H-A istiqamətində hərəkət edərək hidromühərrikə 7 ötürülür.

Hidromühərrikin təzyiqinin və burucu momentinin azaldılması yolu ilə kəskin tormozlanmanın və vintin 10 əlavə yüklənməsinin qarşısı alınır. Yağ qaytarmaz klapan 15 və təzyiqi 1,5 MPa-a qədər salan reduksion klapandan14 keçərək muftanı 12 işə salır. Hidromühərrikin 7 süzücü boşluğu nasosun 3 sovurucu boru xətti ilə paylayıcı 16 vasitəsilə B-C istiqamətində birləşir. Tormozlanma zamanı təzyiq altındakı boru xəttindəki təzyiq kəskin artır. Əyləc lentinin tam dartılması zamanı təzyiq 4,5 MPa-a çatır ki, bu zaman təzyiq relesi 4 paylayıcının 16 idarəetmə dövrəsinin kontaktlarını açır.

Təzyiq relesi yay vasitəsilə orta vəziyyətə gətirilərək A və B kranlarını nasosun 3 sovurucu boru xətti ilə birləşdirir. Təzyiq altındakı boru xəttindəki təzyiq düşdükdə mufta 12 işə düşür. Onun işdən ayrılma sürəti drossel klapanları 15 tənzimlənir.



Şəkil 4. *«Norvinç» firmasının lövbər-yanalma bucurqadının əyləc qurğusunun hidravlik qurğusunun sxemi*

Paylayıcının 16 aşağı vəziyyəti əyləcin buraxılması vəziyyətinə uyğundur. Yağ C-B istiqamətində hidromühərrikə daxil olur və qaytarmaz klapandan 6 və paylayıcıdan 16 keçərək A-C istiqamətində nasosa 3 istiqamətlənir. Drossel-qaytarmaz klapanları 17 hidromühərrikin və əyləc vintinin 10 fırlanma sürətlərini tənzimləmək üçün nəzərdə tutulmuşdur. Əyləc sıxıldıqda bu 10 saniyəyə 20 dövr, əyləc buraxıldıqda isə 10 saniyəyə 15 dövr olmalıdır. Vurucu boru xətdindəki drossel klapanlarının 17 mövcudluğu muftanın 12 işə qoşulması ilə hidrommühərrikin 7 təcil almasına səbə olur. Vintin 10 fırlanma istiqaməti dəyişdikdə və hidromühərrik reversləşdirildikdə təzyiq altında olan boru xəttindəki təzyiq ani olaraq kəskin artır. Bu periodda idarəetmə relesinin 4 təsiri altında paylayıcının 16 işdən ayrılmasının qarşısını almaq üçün idarəetmə dövrəsində zaman relesi quraşdırılmışdır. Lövbərin buraxılmasının məsafədən idarə edilməsi yuxarıda göstərilənlərə analoji olaraq yerinə yetirilir.

Lövbər-yanalma bucurğadının konstruksiyasından göründüyü kimi (şəkil 3), bu mexanizmin əsas məsuliyyətli düyümlərindən biri də dartıcı kanatdır. Bu kanatlar həm kəndir, həm də polad məftil kanatlar ola bilərlər. Bu kanatın düzgün seçilməsi həm qüvvədə qazanc əldə etməyə, həm mexanizmin qabarit ölçülərini kiçiltməyə, həm də bütövlükdə bucurqadın etibarlığını artırmağa imkan verir.

Məlumdur ki, iş zamanı kanatın məftillərində dartılma, sıxılma, əyilmə, burulma, əzilmə və s. deformasiyalar baş verir. Kanat blokdan keçərkən və barabana dolanarkən gərginliklərin paylanması xeyli mürəkkəbləşir. Hər dəfə kanatın əyilməsi zamanı xarici məftillərin novun səthi ilə görüşmə yerində əlavə kontakt gərginlikləri yaranır. Bu əlavə gərginliklərin döyüntülü xarakterinə

görə, nəticədə əyilmələrin müəyyən sayında əvvəlcə kanatın xarici üzündəki məftillərin, sonra isə daxilindəki məftillərin yorularaq dağılması baş verir. Bundan əlavə, kanatın bloklarda və barabanda əyilməsi və düzəlməsi zamanı kanatın hörmələri biri digərinə nəzərən yerini dəyişir. Bu da hörmələrin kontakt yerində məftillərin sürtünüb yeyilməsinə səbəb olur. Bu qədər deformasiyaların eyni vaxtda təsirini nəzərə almaq çox çətin olduğundan kanatı seçmək üçün aşağıdakı düsturdan istifadə etmək məsləhət görülür[4].

$$S_q \geq S_{max} \cdot n \tag{1}$$

burada S_q - kanatın bütövlükdə qırıcı qüvvəsi; S_{max} - polispastın f.i.ə.-nı nəzərə almaqla kanatdakı maksimum qüvvədir (dinamiki qüvvələrin təsiri nəzərə alınmamaqla); n - möhkəmlik ehtiyatı əmsalıdır.

Bu ifadə ilə kanatı seçərkən çox vaxt onun ölçüləri və buna uyğun olaraq da barabanın ölçüləri böyük alınır. Bu çatışmamazlığı aradan qaldırmaq üçün kanatın seçimini daha optimal şəkildə yerinə yetirmək lazımdır.

Tövsiyələri nəzərə alaraq, bucurqadın dartı qabiliyyətinə uyğun olaraq həm polspastın tipi (təkqat və yaxud cütləşmiş), həm də onun ötürmə ədədi daha müəyyən bir intervalda qəbul edilməlidir ($a = 1; 2; 3 \ldots n$)

Onda polsipastın sxemlərinə görə onların FİƏ:

$$\eta_p = \frac{\left(1-\eta_b^a\right)\eta_b^t}{(1-\eta_b)a} \tag{2}$$

burada t – tarazlaşdırıcı (dövrələyici) blokların sayı, $a = i_p \cdot z_y$ – polispastın növü; i_p-polispastın ötürmə ədəədi; z_y-yük kanatlarının sayıdır .

Hesablamalardan görünür ki, polispastın ötürmə ədədi, buna uyğun olaraq kanatın qollarının və blokların sayı artdıqca, onun FİƏ=ı azalır.

Posispastın müvafiq sxemlərinə əsasən kanatın barabana dolanan qolundakı ən böyük gərilmə qüvvələri təyin edilir

$$S_a = \frac{Q}{a \cdot \eta_p}$$

$$S_1 = \frac{Q}{1 \cdot \eta_1};\ S_2 = \frac{Q}{2 \cdot \eta_2};\ S_3 = \frac{Q}{3 \cdot \eta_3} \ldots\ S_i = \frac{Q}{n \cdot \eta_i}$$

Hesablamaların nəticəsi göstərir ki, polispastın ötürmə ədədi artdıqca, kanatın baraban dolanan qolundakı gərilmə qüvvəsi azalır.

Kanatın bütövlükdə qırıcı qüvvəsi daha mütərəqqi üsulla, yəni onun qolunda yaranan ən böyük gərilmə qüvvəsinə və istifadə əmsalına görə təyin edilir:

$$S_{qi} > S_i \cdot k_{i\,min}$$

burada $k_{i\,min}$ - kanatın minimal istifadə əmsalıdır.

Bucurqadın verilmiş iş rejiminə uyğun olaraq $k_{i\,min}$ əmsalı böyük və ya kiçik tərəfə iki addıma qədər dəyişməklə qəbul edilir və qiymətlər sırası təyin edilir.

$$k_{i\,min-2};\ k_{i\,min-1};\ k_{i\,min0};\ k_{i\,min+2};\ k_{i\,min+1}$$

Minimal istifadə əmsalının bu qiymətlərinə uyğun olaraq kanatın qırıcı qüvvəsi hesablanır

$$S_{qa-2} > S_i \cdot k_{i\,min-2};\ S_{qa+2} > S_i \cdot k_{i\,min+2};\ S_{qa0} > S_i \cdot k_{i\,min0};\ S_{qa-1} > S_i \cdot k_{i\,min-1};\ S_{qa+1} > S_i \cdot k_{i\,min+1}$$

Bu qırıcı qüvvələrə görə standartdan müxtəlif diametrli kanatlar seçilir

$$d_{ka-2};\ d_{ka-1};\ d_{ka0};\ d_{ka+2};\ d_{ka+1}$$

Sonra bu diametrlərdən ən optimal variant seçilir.

Nəticə. Gəmilərin yanalma bucurqadlarının kanatının seçiminin tədqiqi aparılaraq yanalma bucurqadının dartı qabiliyyətindən, kanatdakı maksimal gərilmə qüvvəsindən, polispastın növündən, faydalı iş əmsalından, kanatın minimal asılı olaraq rasional seçilməsi həm qüvvədə qazanc əldə etməyə, həm mexanizmin qabarit ölçülərini kiçiltməyə, həm də bütövlükdə bucurqadın etibarlılığını artırmağa imkan verir.

Ədəbiyyat

1. Леонтьев В. М. и Фролов Н. Ф. Судостроительные материалы. Л., «Судостроение», 1965 г.
2. http://www.stroitelstvo-new.ru.
3. Александров М.П., Гохберг М.М. и др. Справочник по кранам Т.2. Москва, 1988, 559с.
4. Sitçenko N.K., Sitçenko L.S. Obhee ustroystvo sudov. Ленинград: Судостроение, 1987 г. 328 с.

Təvsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

УДК 629.5

ЕЩЕ РАЗ О ПРИЧИНАХ АВАРИЙНОСТИ ТОРГОВОГО ФЛОТА

Михеев А.И.

Государственный Университет инфраструктуры и технологий
Киевский институт водного транспорта
г. Киев, ул. Фрунзе, 9
E-mail:gatsenko.larisa @ gmail.am

Аннотация. *В статье приведена классификация возможных причин аварийности морских судов. Дан количественный сравнительный анализ этих причин, разработаны рекомендации по применению наиболее эффективных превентивных мер с целью устранения аварий на флоте.*

Abstract. *The article gives the classification of possible causes of marine accidents. A quantitative and comparative analysis of the causes is given. The recommendations on applying proper preventive measures aimed at avoiding casualties at sea are elaborated.*

Key words: *accident, circumstances, ship`s crew, merchant fleet, seamanship*
Ключевые слова: *авария, обстоятельства, экипаж, флот, слаженность*

Введение. В последние десятилетия, конец прошлого и начало нынешнего веков, акцент способа перевозок как элемента логистики в мировых торговых отношениях еще более сместился в сторону морского флота. Водный путь зарекомендовал себя наиболее рентабельным и эффективным средством доставки торговой продукции практически в любой район земного шара.

Вместе с тем анализ многих исследователей рассматриваемого промежутка времени [1-4]свидетельствует о старении мирового флота. Так, за период с 80-ых годов прошлого века по начало XXI века средний возраст судов в мире вырос в 1,5 раза (примерно с 14 лет до 21 года). При этом на 2009 год общее количество судов мирового флота составляло более 53000 [2].

В погоне за увеличением прибыли, что является естественным желанием в условиях ужесточения конкуренции и ощущения постоянной угрозы кризисных экономических ситуа-

ций, судоходные компании все меньше финансовых средств вкладывают в строительство новых судов. Они (компании) пытаются пережить тяжелые времена, интенсифицируя различными методами эксплуатацию существующего торгового флота (уменьшение количества членов экипажа, привлечение более дешевой рабочей силы, экономия на ремонтах и модернизации судов и т.д.). Такое состояние дел в морском торговом флоте очевидным образом способствует усилению негативных последствий в виде безвозвратных потерь (люди, материальные ценности, экологический ущерб) и убытков судоходных компаний.

Основная часть. С целью повышения эффективности и безопасности морских перевозок сама сложившаяся обстановка уже диктует необходимость проведения тщательного анализа причин аварийности судов и принятия действенных профилактических мер по их устранению. В качестве главных направлений, противодействующих росту аварийности судов, предлагаются: а) разработка понятной классификации, охватывающей все возможные причины аварий на флоте; б) в рамках выделяемого финансирования максимальная реализация, в первую очередь, качественных показателей, характеризующих судно в целом как безопасного транспортного средства и позволяющих ощутимо снизить риски дальнейшей эксплуатации этого вида транспорта.

Итак, последовательно рассмотрим эти два важных направления. На рис. 1 приведена схема основных возможных причин аварий на судах и обобщенные подходы к методам их профилактического предупреждения. Согласно этой схеме практически все известные морские аварии происходили в результате большого количества различных причин, обусловленных соответствующими внешними и внутренними обстоятельствами. В свою очередь те и другие могут носить объективный и субъективный характер.




Рис. 1. *Схема основных возможных причин аварий на судах и обобщенные подходы к методам их профилактического предупреждения*

К внешним обстоятельствам объективного характера, способствующим возникновению аварийных ситуаций, относятся: водная и воздушная среда обитания судна (скорость ветра,

волновая нагрузка, температура воды и воздуха, соленость, плотность и электропроводность воды, насыщенность воды кислородом, pH водной среды, биообрастание, особые условия судовождения – мелководье, обледенение, ледовая обстановка и др.).

Внешними обстоятельствами субъективного характера являются принимаемые капитаном и другими любыми членами экипажа верные или неверные решения, последовательная цепь которых может привести к аварии, а может предупредить или не допустить ее возникновение. Другими словами, проявляющие себя внешние обстоятельства (факторы) объективного характера всегда только формируют или фоновую обстановку, или проблемную ситуацию, от субъективного решения которой в итоге зависит дальнейшая судьба судна (авария происходит или нет).

Кроме того, всегда следует помнить, что существуют и внутренние объективные и субъективные обстоятельства, которые под воздействием внешних объективных факторов могут привести к возникновению аварийных ситуаций на судах.

В перечень внутренних объективных обстоятельств входят: химический состав элементов судовых конструкций, структура используемых материалов, количество и состояние сварных швов, состояние грунтовки и покраски, в первую очередь, корпуса, возраст судна, остаточный лимит усталостной прочности корпусных судовых деталей и других конструкций, технические характеристики силовой установки и судна в целом. Помимо перечисленных параметров к этому перечню факторов относятся периодичность докования, сроки установленных видов ремонта и пр. То есть, все, что воплощено в материальные ценности флота посредством знаний, умений и профессиональных навыков людей согласно утвержденной чертежно-технической документации (конкретные конструкции судов, портового оборудования и т.д.), представляет собой объективный внутренний фактор.

А вот то, что связано с качеством проектирования, конструирования, производства, ремонта, докования судна – все это является субъективной составляющей внутренних обстоятельств (факторов), которая серьезным образом влияет на будущую судьбу судна. Наличие различных нарушений ЧТД и отклонений от ее требований в процессе создания или ремонта судна в дальнейшем при его эксплуатации может привести к непредсказуемым и даже трагическим последствиям.

Как показывает анализ происшествий на море, в настоящее время в среднем за один год в мировом флоте гибнет около 100 судов [3]. Из этого количества 10% - в результате действия внешних объективных и частично субъективных факторов, так называемых, форс-мажорных обстоятельств (морская стихия).

15% судов погибают вследствие возникновения технических дефектов элементов конструкций или судового оборудования (действие внутренних субъективных и объективных факторов).

А 75% судов гибнут исключительно по причине действия внешнего субъективного фактора (посадка на мель, пожары, взрывы и столкновения судов).

Приведенная на рис.1 схема-классификация факторов (обстоятельств), могущих способствовать возникновению аварийных ситуаций, дает возможность предметно рассмотреть и предложить конкретные меры практического характера по предотвращению аварий на судах. Прежде всего, это относится к профилактическим мерам, предотвращающим любую реализацию негативного проявления внешних субъективных обстоятельств, как наиболее опасного фактора (75% всех безвозвратных потерь флота).

Таким основным профилактическим средством является повышение качества подготовки экипажей. В настоящее время в большинстве малых и средних судоходных компаниях, как правило, практикуется хаотичная, не планируемая ротация членов экипажа судов, что крайне пагубно отражается на безопасности плавания. Замена офицерского и рядового состава происходит не адресно, а случайным образом на людей, до этого не работавших в данной компании. Часто собравшиеся на судне таким образом члены будущего экипажа впервые

видят друг друга, а через несколько дней им нужно выходить в рейс. Иногда сформированные экипажи представляют собой некий человеческий конгломерат, состоящий из людей разных национальностей, принадлежащих различным религиозным конфессиям, отличающихся своим менталитетом, культурными традициями, профессиональным опытом и т.д. Социально-психологическая несовместимость и неустойчивость такого, с позволения сказать, экипажа очевидна со всеми вытекающими отрицательными последствиями.

Поэтому в целях существенного повышения надежности и снижения риска морских перевозок судоходным компаниям следует переходить на формирование собственных постоянных, слаженных экипажей, которые своим трудом с лучшей стороны зарекомендовали себя перед лицом руководства компании. Социально-ментально-психологическая совместимость экипажа, полнота знаний своего судна, совместно наработанный опыт – все это является одной из главных превентивных мер уменьшения аварийности на флоте.

Есть такой проверенный жизнью афоризм: «Скупой платит дважды». Не следует надеяться на авось – а может пронесет!? Вероятность чрезвычайного происшествия (ЧП), потери перевозимого груза, несчастного случая, гибели людей несравнимо выше на судне с «дешевой», случайно собранной командой по сравнению с постоянным, слаженным экипажем. Достойная оплата труда профессионалов всегда стимулирует и высокую ответственность, и должную дисциплину в отличие от низкой зарплаты случайных спецов.

К сожалению, практика погони за разовой быстрой прибылью в морском флоте получила достаточно широкое распространение, что в существенной мере и приводит к тем печальным последствиям, которые мы имеем. Как свидетельствует статистика гибели судов за 2001…2007 гг. английского Регистра Ллойда [4], наибольшее число погибших судов зарегистрировано в странах «удобных флагов». «Лидером» среди погибших являются суда под флагом Панамы, затем - Мальты и далее – Кипра. Гибнут, главным образом, большие суда свыше 10000 брутто регистровых тонн и суда старше 25 лет. По проведенным исследованиям от 60 до 80% аварий связано с человеческим фактором (внешним субъективным фактором) и, в частности, с: недисциплинированностью, халатностью, беспечностью, некомпетентностью, эмоциональной неустойчивостью и пр. Кстати, это как раз все те человеческие качества, которые характеризуют быстро и случайно набранную «дешевую команду».

Пытаясь раскрыть глубинную причину, ответственную за гибель судна, датские ученые провели тщательный анализ [5], результаты которого показали, что обычно аварии происходят не вследствие одной ошибки (причины), а целой серии (цепочки) такого рода событий. Причем, количество звеньев в таких цепочках колеблется от 7 до 58 и в среднем составляет 23. Различные мелкие ошибки в своем единичном проявлении могут казаться несущественными и неопасными, но когда эти ошибки членов экипажа соединяются в единую неразрывную цепь - происходит авария. В упомянутом исследовании ошибки людей были установлены в 96 авариях из 100, то есть, каждая из допущенных ошибок стала необходимым условием для возникновения аварии. И если бы кто-то из членов экипажа не ошибся, то цепь минусовых событий оказалась бы разорванной и авария не произошла.

Приведенный пример лишний раз свидетельствует о низком профессионализме членов экипажа, когда ответственность за принятие решения в силу неподготовленности, недостаточных знаний и малого опыта пытаются переложить с одних плеч на другие. Именно это, в первую очередь, порождает такое большое количество ошибочных событий, приводящих в итоге к гибели судна.

Следовательно, минимизация влияния внешних субъективных факторов на аварийность флота может быть достигнута исключительно на плановой контролируемой основе управления безопасностью судоходства. В этой связи предлагается нетривиальное, кардинальное решение – свои экипажи судоходные компании должны регистрировать в контролирующем органе Международной морской организации (IMO). Слаженные экипажи должны быть закреплены за каждой судоходной компанией (как футбольные команды за своими клубами), а

для перехода члена экипажа из одной компании в другую необходимо получить санкцию этого органа IMO. Кроме того, следует рассмотреть вопрос о критериях оценки слаженности и социально-психологической устойчивости экипажа с установлением его международного рейтинга. По-видимому, за критерии оценки рейтинга могут быть приняты такие параметры: длительность безаварийной работы экипажа, поддержание экологической чистоты на маршрутах плавания, отсутствие несчастных случаев на судне, отзывы контролирующих органов портов иностранных государств и т.д. Естественно, что высокому международному рейтингу должна соответствовать и высокая заработная плата. Дополнительным премиальным фондом (своеобразным поощрением высоких рейтингов) вполне может служить и финансовое участие различных международных морских организаций.

Помимо предлагаемых мер следует на международном уровне рассмотреть вопрос о повсеместном и всепогодном внедрении, сверх существующей лоцманской службы, систему дополнительного диспетчерского контроля проводки судов в прибрежных (приграничных) сложных морских зонах портов назначения. Это поможет значительно снизить вероятность возникновения экологических катастроф, возможных аварий в непосредственной близости от берегов принимаемых государств, уменьшить длительность экономически убыточных простоев судов на рейде и ускорить собственно процесс их проводки.

Иными словами, складывается уже очевидная ситуация, когда сегодняшняя цивилизация все активнее подвергает урбанизации не только свои сухопутные территории, но и морские и океанские просторы. Поэтому, если это возникающее крайне опасное для настоящего и будущего человечества по своим возможным негативным последствиям положение не взять под жесткий международный контроль, то мы все здесь живущие можем стать преступными свидетелями экологических катастроф планетарного масштаба.

Конечно же, внедрение в морскую практику торгового флота формализованной оценки безопасности (FSA – Formal Safety Assessments) [6], касающейся усиления технического наблюдения и надзора за состоянием судов на этапах постройки, модернизации и ремонта с целью безопасной их эксплуатации, внедрение единой для всех морских государств и судоходных компаний электронной картографии, спутниковой навигации и дальнейшее совершенствование систем управления судами – все это бесспорно повысит безопасность мирового судоходства. Однако, это только, в лучшем случае, сможет привести к уменьшению аварийности флота на 25% (полное устранение негативно совместно действующих внешних объективных и внутренних объективных и субъективных факторов). Все же основная причина аварийности мирового флота зависит от влияния внешнего субъективного (человеческого) фактора, поэтому активное противодействие именно этому фактору является главным залогом обеспечения безопасности и безаварийности перевозок водным транспортом.

Выводы. Таким образом, проверенная опытом истории, как будто бы уже «избитая» фраза - «кадры решают все!» является тем краеугольным камнем - принципом, который оказавшись базовым при закладке основ, рождении и становлении уважающей себя судоходной компании, позволит ей занять достойное, прочное место в мировом рейтинге морских перевозчиков. Итак, еще раз повторимся. Главное, что даст возможность существенно снизить аварийность на флоте – это социально-ментально-психологическая устойчивость экипажа, его слаженность и сработанность опытом работы, службы, отдыха и общения, что подтверждается высокой ответственностью за порученное дело, исполнительностью и дисциплиной всех членов экипажа, неравнодушным отношением друг к другу, взаимопомощью и т.п. Вот к чему должны, в первую очередь, стремиться и международные морские организации, и профсоюзы моряков, и собственно сами компании.

Литература

1. Авраменко Д.В., Касаткин И.П. и др. Причины аварийности морских судов и повышение безопасности плавания. //Морской флот, №3. 2009, с.59-63.
2. Скороходов Д.А., Борисова Л.Ф., Борисов З.Д Принципы и категории обеспечения безопасности мореплавания. Вестник МГТУ, т.13, №4/1, 2010. с.719 – 729.
3. Фунтусов А.А. Возраст судов как фактор аварийности морского флота. //Транспортное дело России. Актуальные вопросы безопасности и эффективности транспортного комплекса. М.: Спец. Выпуск №7, 2006. с.176 – 178.
4. Фунтусов А.А. Оценка влияния возраста морского транспортного судна на безопасность и эффективность его эксплуатации. Дис. на соискание степени к.т.н.. Владивосток, 2008.
5. Кацман Ф.М., Ершов А.А. Аварийность морского флота и проблемы безопасности судоходства. Санкт-Петербург. //Транспорт РФ, №5, 2006.
6. IMO Maritime Safety Committee: `Interim Guidelines for the Application of Formal Safety Assessment («Временное Руководство по применению Формальной Оценки Безопасности»), MSC Circular 829, London, 1997.

Tövsiyə edib: t.e.d., prof. ***Q.A.Əbdülrəhmanov***

UDK.629.5:656.6

NƏQLİYYAT GƏMİLƏRİNİN HƏRƏKƏT REJİMİNDƏ VAL QURĞULARINI SÖKMƏDƏN TEXNİKİ VƏZİYYƏTİNİN TƏYİNİ

Osmanov V.O., Məmmədov E.D., Əsədov İ.E., Orucov S.Ş.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az 1000, Bakı ş., Z. Əliyeva küş., 18
E–mail: elxantec@mail.ru, esedovimdadeli@gmail.com, said.orucov.1990@mail.ru

Xülasə. *Məqalədə 19619 layihəli nəqliyyat gəmilərinin val qurğularını sökmədən istismar rejimində diaqnostika üsulunun tətbiqi ilə onun texniki vəziyyətinin təyin edilməsində mühüm rol oynayan diaqnostika parametrlərinin ölçülməsi qaydası göstərilib.*

Аннотация. *В статые внедрением метода безразборной диагностики на транспортных судах проекта 19619 в период эксплуатации определяется техническое состояния валопровода с помощью диагностических параметров.*

Abstarct. *The procedure for measuring diagnostic parameters, which play an important role in the determination of its technical condition by applying diagnostic method of operation without dismantling the 19619 project ships' vessels have been shown*

Açar sözlər: *Deydvud quruluşu, avar valı, avar vinti, aralıq val, revers–reduktor, təkan yastığı, vibrosürət, zərbə impulsları*

Ключевые слова: *Дейдвудное устройство, гребной вал, гребной винт, промежуточный вал, реверс–редуктор, упорный подшипник, виброскорость, ударные импульсы*

Key words: *Propeller shaft, propeller screw, intermediate shaft, reverse – reduction, thrust bearing, vibration speed, shock impulses, deadwood arrangement*

Giriş. Gəmi mexanizmləri istismar zamanı hər hansı yüklənmə rejimində həm daxili və həm də xarici təsirlərə məruz qalır. İstismar şəraiti mexanizmlərin texniki vəziyyətinə və etibarlılığına təsir edən bütün faktorları əhatə edən yüklənmə rejiminə aiddir.

Gəminin istismarı zamanı val xəttinin vəzifəsi baş mühərrikdən alınan mexaniki enerjini avar vintinə və eyni zamanda avar vinti tərəfindən yaranan dayaq – təkan qüvvələrini gəminin təkan

yastığına, oradan da gəminin gövdəsinə ötürməkdən ibarətdir. Ona görədə val qurğusu gəmi energetik qurğularının əsas elementlərindən sayılır. [3]

Gəmi energetik qurğularının istismar etibarlılığı val xəttinin etibarlılığından çox asılıdır. Val xəttinin iş qabiliyyətinin pozulması - yəni onun zədələnməsi gəminin hərəkət sürətinin azalmasına, hətta onun hərəkətinin tam itirilməsinə gətirib çıxara bilər.

Val xəttinin iş qabiliyyətinin bərpası müxtəlif mürəkkəb xarakterli təmir işlərinin yerinə yetirilməsi ilə bağlıdır, xüsusən də güclü energetik qurğuları olan iritonnajlı gəmilərdə. Ona görə də val xəttinin istismarı rejimində ona mütəmadi nəzarət olunmalıdır.

Nəqliyyat gəmilərinin etibarlı üzməsinin təmin edilməsi üçün gəmi val xəttinin istismar rejimində texniki vəziyyətini təyin edən diaqnostika sisteminin tətbiqi imkan verir ki, val xəttinin əsaslandırılmamış sökülməsinin və təmirinin qarşısı alınsın. Gəmi energetik qurğularının ən məsuliyyətli elementlərindən biri olan val xəttinin texniki vəziyyətinin təyin edilməsi, onun zədələnməsinin və qəza vəziyyətinə qədər inkişafının qarşısının alınmasına xidmət edir.

Əsas hissə. Hazırda Xəzər Dəniz Gəmiçiliyində yükqaldırma qabiliyyəti 13000 ton olan 19619 layihəli "Prezident Heydər Əliyev" tipli 8 ədəd maye yük daşıyan gəmi istismar olunur. Bu tankerlər Bakı – Ənzəli, Bakı – Türkmənbaşı, Bakı – Aktau, Bakı – Mahaçqala xətlərində üzərək xeyli miqdarda neft məhsulları daşıyırlar.

Bu gəmilərin val xətti və deydvud quruluşu hər iki ildən bir Dəniz Registrinin nəzarəti altında yoxlanışdan keçir. Gəminin dok təmiri zamanı val xəttini sökərək və deydvud borusundan çıxardaraq Registr baxışı üçün hazırlanma texnologiyası xeyli miqdarda maddi vəsait və vaxt itkisinə səbəb olur. Eyni zamanda, val xəttinin sökülməsi avar valının işçi boyuncuqlarının oturduğu deydvud yastıqlarında zədələnmələrin əmələ gəlməsinə səbəb olur. Bunun da mənfi təsiri valın hərəkət rejimi zamanı özünü biruzə verir. 19619 layihəli gəmilərdə val xəttini sökmədən texniki diaqnostika üsulu ilə onun faktiki vəziyyətini diaqnostiki parametrlərlə müəyyən etmək kifayət edir.

Bu əməliyyatı gəminin yüklə tam sürətdə hərəkət rejimində Registr tələblərinə uyğun olaraq yerinə yetirmək daha məqsədəuyğundur [1].

Bu gəmilərdə val xəttinə verilən revers hərəkəti dişli çarxlı reduktor vasitəsi iə yerinə yetirilir. 19619 layihəli gəmilərdə avar vinti tərəfindən yaradılan dayaq təzyiqləri deydvud borusundan keçən avar valı və aralıq valı vasitəsilə revers–reduktorda qoyulan təkan yastığına, oradanda revers–reduktor vasitəsilə gəmi gövdəsinə ötürülür [1].

19619 layihəli gəmilərdə istismar olunan val xəttinin ümumi görünüşü və onun əsas elementləri şəkildə göstərilib. Bu gəmilər PENTJES firmasının buraxdığı WAF 1962 tipli revers–reduktorla istismar olunur. Revers–reduktorun ötürmə ədədi i=5,07 bərabərdir. Baş mühərrikin (Wartsila 9L20C) dövrlər sayı 1000 dövr/dəq olduğu halda, avar vinti 197,1 dövr/dəq ilə işləyir, hazırda avar valı 180 dövr/dəq ilə istismar olunur. Bu gəmilərdə avar valının deydvud yastıqları dəniz suyu ilə soyudulur, yastıqlardakı ara boşluqları adətən "Prosadkomer" adlanan ölçü aləti ilə ölçülür.Val xəttinin istismar rejimində texniki vəziyyətini müəyyən etmək üçün təkcə deydvud yastıqlarındakı ara boşluğunun ölçülməsi kifayət etmir. Bununla bərabər, val xəttinin vibrasiya səviyyəsini (vibrosürət, mm/san), vallarda qoyulmuş yastıqların zərbə impulslarını və temperatur rejimini müəyyən edirlər. Nəqliyyat gəmilərinin val xəttində vibrasiyanın əmələ gəlməsinin əsas iki səbəbi olur: birincisi yeyilmə həddi buraxıla bilən normadan artıq olduqda, ikincisi – avar vinti müxtəlif səbəblərdən zədələndikdə olur. Val xəttinin sökmədən istismar rejimində diaqnostik üsul ilə texniki vəziyyəti aşağıdakı cihazlarla təyin edilir [2]:

1. VİB – 10;
2. Thermopoint -40;
3. ТЕСТЕР 77Д11;
4. ВУ043 «Янтарь»

19619 layihəli gəmilərin val xəttində deydvud yastıqlarından başqa dayaq yastığı olmadığından, yoxlanma zamanı revers–reduktorda qoyulan diyircəkli təkan yastığından istifadə olunur. Val xəttinin hərəkət rejimində yuxarıda göstərilən cihazlarla revers–reduktora nəzərən

vibrosürəti (mm/san), diyircəkli yastıqlardakı zərbə impulslarını (dB), temperatur rejimini (^{0}C) asanlıqla təyin etmək olur [6].


Aralıq valının üstündə dayaq yastığının olmamasına görə diaqnostiki parametrlərin yoxlanması yalnız revers–reduktorda qoyulan təkan yastığına nəzərən aparılır. Gəminin hərəkət rejimində val xəttinin texniki vəziyyətinin yoxlanması aşağıdakı kimi aparılır (bax: cədvələ). Val xəttinin faktiki fırlanma dövrlər sayı 180 dövr/dəq olduğundan fırlanma tezliyi 3,0 Hs-ə bərabərdir. Mühərrikdən hərəkət alan reduktorun aparan valı 15 Hs tezliyində istismar olunur.

Cədvəl

Diaqnostiki parametrlərin ölçülməsi zamanı alınan qiymətlər

Revers-reduktor	Vibrasiya, mm/san		Zərbə impulsları, dB		Temperatur, ^{0}C	
	Sol val	Sağ val	Sol val	Sağ val	Sol val	Sağ val
BM–dən hərəkət alan aparan yastıq	3,8 – 4,3	3,5 – 3,9	23 – 25	20 - 24	53 - 55	51 – 54
Reduktorla aralıq valı arasında qalan yastıq (təkan)	3,7 – 4,0	3,6 – 4,5	21 - 24	24 - 26	50 - 53	49 -52
Buraxıla bilən norma	3,8 – 6,0		40		65-70	

Cədvəldən göründüyü kimi, val xəttinin hərəkət rejimində texniki vəziyyətini müəyyən edən diaqnostiki parametrlər buraxıla bilən normadadır.



Şəkil. *19619 layihəli gəmilərin val xəttinin ümumi görünüşü*
1 – avar vinti; 2 – deydvudun arxa yastığı; 3 – avar valı; 4 – deydvud borusu;
5 – deydvudun qabaq yastığı; 6 – pnevmostop; 7 – avar valının kipgəci
8 – flans birləşməsi – konusvari boltla; 9 – dişli çarx; 10 – aralıq valı; 11 – revers–reduktor.

İstismar rejimində revers–reduktorun texniki vəziyyətinə nəzarətin yerinə yetirilməsi əsas etibarilə iki ştat cihazla aparılır:

- Yağın təzyiqi – sol reduktor 21,18 bar, sağ reduktor 21,63 bar;
- Yağın temperaturu – sol reduktor 51^{0}C, sağ reduktor 53^{0}C;

19619 layihəli nəqliyat gəmilərinin val xəttini sökmədən onun faktiki texniki istismar vəziyyətinin təyini zamanı xeyli maddi vəsaitə qənaət olunur. Xəzər Dəniz Gəmiçiliyinin "Zığ" gəmi təmiri zavodunun göstəricilərinə əsasən, 19619 layihəli tankerlərin val xəttinin təmirinin dəyəri 18,69 min manat, bu təmirə sərf olunan vaxt 1000 saata bərabərdir.

Nəticə. Gəminin istismar müddəti ərzində val xəttinin etibarlı işləməsi məqsədilə onun texniki vəziyyətini təyin etmək üçün sökmədən diaqnostika metodundan istifadə olunması gəmilərin istismar rejimində əmələ gələn qəza hallarının qarşısının alınmasına kömək edir. Texniki diaqnostikanın tətbiqi nəticəsində val xəttinin deydvud yastıqlarında yeyilmənin buraxıla bilən normadan artıq olmasını və avar vintində zədələnmələrin əmələ gəlməsini hərəkət rejimində val xəttində əmələ gələn vibrosürətin ölçülməsi ilə asanlıqla müəyyən etmək olur. Bu zaman gəminin zavod təmirinə dayanma müddəti azalır, təmirə sərf olunan vəsaitə qənaət olunur, eyni zamanda gəminin isitsmar müddəti artır.

Ədəbiyyat

1. Правила классификации и постройки морских судов. Том 2. Вибрация механизмов и оборудования. Технические нормы. Санкт – Петербург, «Судостроение», 2016, 754 стр.
2. В.О. Османов и другие. «Положение о контрольно диагностической группе ЗАО «АКМП» по проведению диагностики судовых технических средств». РД №442.059 2015, Баку, КМП, 2015. 32 стр.
3. Ю. А. Пахомов. Судовые энергетические установки с двигателями внутреннего сгорания. Санкт – Петербург, «Судостроение», 2010, 200 стр.
4. Э. К. Блинов, Ф.Ш. Розенберг Техническое обслуживание и ремонт судов по состоянию. Справочник. Санкт – Петербург, «Судостроение», 1992, 188 стр.
5. Н. М. Кохан, В. И. Друт. Ремонт валопроводов морских судов. Москва, «Транспорт», 1980, 240 стр.
E-mail: leyla.hasanova.75@mail.ru, 4321ilqar@rambler.ru, gul-9697@mail.ru

Xülasə. *Məqalədə səthlərində müxtəlif temperaturlar təsir edən elastiki zədələnən lövhənin dağılması (yeyilməsi) prosesi tədqiq edilir. Lövhənin kənarları tam bağlanmışdır: kənar nöqtələri yerlərini dəyişə və fırlana bilməzlər. Səthlərdən biri aqressiv mühitin təsirinə məruz qalır. Lövhə onda yaranan temperatur gərginliklərinin aqressiv mühitin təsirlərindən yeyilmə şəklində dağılır. Yeyilmə prosesi aqressiv mühitə təsir edən səthdən başlayır və aqressiv mühit təsir etməyən səthə doğru davam edir. Aqressiv mühitin verilən konsentrasiyasına görə temperaturun sərhəd qiyməti tapılmışdır ki, bunda lövhənin ani dağılması baş verir. Dağılma cəbhəsinin zamandan, aqressiv mühitin konsentrasiyasından, səthlərdə təsir edən temperaturlardan, lövhə materialının mexaniki xassəsindən və həndəsi verilənlərdən asılı dəqiq analitik düsturu təyin edilmişdir. Bununla yanaşı, baxılan lövhənin tam yeyilməsinin baş verdiyi zaman müəyyənləşdirilmişdir.*

Abstract. *The process of failure (wear) of an elastic damaged plate is investigated, on the surfaces of which various temperatures are set. The edges of the plate are closed:they can not move and rotate. One surface is subject to the action of an aggressive environment. Under the influence of temperature stresses and an aggressive environment,the plate is destroyed in the form of wear. Wear of the plate starts from the surface where the corrosive medium takes place and continues towards the surface,where there is no aggressive medium. The temperature boundary is determined,*

in the case of exceeding which at a given concentration of the aggressive medium, the plate instantly collapses. An exact analytical formula is obtained for the fracture front as a function of time,the concentration of the aggressive medium acting on the temperature surfaces and also on the mechanical properties and geometrical data of the plate. The time of complete wear of the plate in question is also found.

Аннотация. *Исследуется процесс разрушения (износ) упругой повреждающейся пластины, на поверхностях которой устанавливаются различные температуры. Края пластины защемлены: не могут перемещаться и вращаться. Одна поверхность подвержена действию агрессивной среды. Под влиянием температурных напряжений и агрессивной среды происходит разрушение пластины в виде износа. Износ пластины начинается с поверхности, где имеет место действие агрессивной среды и продолжается в сторону поверхности, где отсутствует агрессивная среда. Определена граница температуры, в случае превышения которой при заданной концентрации агрессивной среды пластина мгновенно разрушается. Получена точная аналитическая формула для фронта разрушения в зависимости от времени, концентрации агрессивной среды, а также от механических свойств и геометрических данных пластины. Найдено также время полного износа рассматриваемой пластины.*


Açar sözlər: *korroziya dagılması, lövhə, temperatur sahəsi, temperatur gərginlikləri, yeyilmə, aqressiv mühit, dagılma cəbhəsi*

Keywords: *corrosion destruction, plate, temperature field, temperature tension, wear, hostile environment, front of destruction*

Ключевые слова: *коррозионное разрушение, пластина, температурное поле, температурные напряжения, износ, агрессивная среда, фронт разрушения*

Введение. Многие конструкции эксплуатируются в условиях агрессивных сред, под действием которых эти конструкции подвергаются коррозионному разрушению. При совместном действии агрессивной среды и внешних сил элементы конструкции растрескиваются. Коррозионное разрушение под напряжением часто приводит к тяжелым последствиям. Анализ многих экспериментальных данных, опубликованных в литературе по коррозионному разрушению, показывает, что на процесс коррозионного разрушения материалов имеют существенные влияния, в основном, механическое напряжение и поле температуры исследуемой конструкции. Серьезность последствий коррозионных разрушений делает необходимым проведение исследования по вопросу о прогнозировании подобных разрушений. Этим и объясняется актуальность темы настоящей статьи, которая имеет цель теоретически прогнозировать время до коррозионного разрушения защемленной по краям пластины на поверхностях которой устанавливаются различные температуры.

Основная часть. Рассмотрим упругую пластину, толщины h, на поверхностях $y = 0$ и $y = h$ которой установлены различные постоянные температуры T_2 и T_1 (рис.)



На поверхности $y = h$ имеется действие агрессивной среды. При этом функция, которая характеризует концентрацию агрессивной среды, может быть принята в виде:

$$C(y) = \frac{y}{h} \quad (1)$$

Формула (1) удовлетворяет диффузионному уравнению в стационарной форме, а также следующим граничным условиям:

$$C(h) = 1, C(0) = 0$$

Через некоторое время температурное поле пластины будет стационарным. При этом оно определяется по формуле[1]:

$$T = (T_1 - T_2)\frac{y}{h} + T_2 \quad (2)$$

Пусть края пластины полностью защемлены и не могут перемешаться и вращаться. При этом в пластине возникнут температурные напряжения, которые имеют следующие выражения:

$$\sigma_y = \sigma_{xy} = \sigma_{xz} = \sigma_{yz} = 0 \quad (3)$$

$$\sigma_x = \sigma_z = -\frac{\alpha ET}{1-v} = -\frac{\alpha E}{1-v}\left[T_2 + (T_1 - T_2)\frac{y}{h}\right] \quad (4)$$

Здесь Е-модуль Юнга, v - коэффициент Пуассона, α - коэффициент линейного температурного расширения. Интенсивность температурных напряжений σ_i определим по формуле:

$$\sigma_i = \frac{\sqrt{2}}{2}\left[(\sigma_x - \sigma_y)^2 + (\sigma_y - \sigma_z)^2 + (\sigma_z - \sigma_x)^2 + 6({\sigma_{xy}}^2 + {\sigma_{xz}}^2 + {\sigma_{yz}}^2)\right]^{\frac{1}{2}}$$

Учтем (3) и (4) в последней формуле. Получим

$$\sigma_i = |\sigma_x| = |\sigma_z| = \frac{\alpha E}{1-v}\left[T_2 + (T_1 - T_2)\frac{y}{h}\right] \quad (5)$$

Допустим, что $T_1 > T_2$. Тогда

$${\sigma_i}^{max} = \sigma_i|_{y=h} = \frac{\alpha\, ET_1}{1-v} \quad (4)$$

Пусть σ_0 есть обычный предел прочности материала пластины, σ_p– предел прочности материала при наличии агрессивной среды. Действие агрессивной среды уменьшает прочность материала. Согласно [2], зависимость между величинами σ_pи σ_o может быть принята в линейной форме:

$$\sigma_p = \sigma_o(1 - \gamma c) \quad (5)$$

где γ - коэффициент пропорциональности, определяемый из экспериментов. Формула (5) имеет место в случае, когда влияние агрессивной среды на материал не значительное.

Материал пластины примем упруго-повреждающимся. При этом за условия прочности, примем условие, предложенное в [3] с учетом концентрации агрессивной среды.

$${\sigma_i}^{max} + M{\sigma_i}^{max} = \sigma_o(1 - \gamma c) \quad (6)$$

где *M*-оператор повреждаемости упругого материала. Напишем условие (6) в раскрытой форме:

$${\sigma_i}^{max} + \int_o^{to} M(t-\tau){\sigma_i}^{max}(\tau)d\tau = \sigma_o(1 - \gamma c_{max}) \quad (7)$$

где t_o - время начала процесса износа (разрушения) применительно к нашей задаче поверхности $y = h$.

Учтем (4) в (7). Будем иметь

$$\frac{\alpha\, ET_1}{1-v}\left(1 + \int_o^{to} M(\xi)d\xi\right) = \sigma_o(1 - \gamma) \quad (8)$$

В (8) учтено $c_{max} = 1$.

Отсюда

$$\int_{o}^{to} M(\xi)\mathrm{d}\xi = \frac{\sigma_0(1-\gamma)(1-v)}{\alpha E T_1} \tag{9}$$

Рассмотрим случай $M(t) = m = const$. В этом случае из (9) получим:

$$t_0 = \frac{\sigma_0(1-\gamma)(1-v) - \alpha E T_1}{\alpha E T_1 m} \tag{10}$$

Формула (10) определяет время начала процесса износа (разрушения) поверхности y=h При $t_0 = 0$ разрушение происходит мгновенно. Для скрытого периода времени из (10) получаем условие:

$$T_1 < T_1^0 = \frac{\sigma_0(1-\gamma)(1-v)}{\alpha E} \tag{11}$$

При $T_1 \geq T_1^0$, где T_1^0определяется формулой (11), происходит мгновенное разрушение пластины. Как видим, наличие агрессивной среды уменьшает предельное значение максимальной температуры.

После того, как изнашивалась поверхность *y=h*, процесс изнашивания продолжается в сторону поверхности *y=0*, где отсуствует действия агрессивной среды. Пусть за время *t* изнашивалась полоса шириной u(t) (рис.). При этом фронтом разрушения является ность $y = h - u(t)$. Теперь задача состоит в определении неизвестной функции $u(t)$.

В соответствии с формулой (1), концентрационная функция $c(y,t)$будет выражаться формулой:

$$c(y,t) = \frac{h-u(t)}{h} \tag{12}$$

Интенсивность напряжений σ_t, согласно (5), будет иметь вид:

$$\sigma_t = \frac{\alpha E}{1-v}\left[T_2 + (T_1 - T_2)\frac{h-u(t)}{h}\right] \tag{13}$$

Условием разрушения в момент *t* поверхности $y = h - u(t)$, на основании условия прочности (6) будет:

$$\frac{\alpha E}{1-v}\left[T_2 + (T_1 - T_2)\frac{h-u(t)}{h}\right] + \int_0^t M(t-\tau)\frac{\alpha E}{1-v}\int_0^t \left[T_2 + (T_1 - T_2)\frac{h-u(\tau)}{h}\right]\mathrm{d}\tau =$$
$$= \sigma_0\left(1 - \gamma\frac{\mathrm{h} - \mathrm{u(t)}}{\mathrm{h}}\right)$$

Отсюда имеем:

$$\left[\frac{\alpha E}{1-v}(T_1 - T_2) + \sigma_0\gamma\right]\frac{u(t)}{h} + \frac{\alpha E}{1-v}(T_1 - T_2)\int_0^t M(\mathrm{t}-\tau)\frac{u(\tau)}{h}\mathrm{d}\tau =$$
$$= \frac{\alpha E}{1-v}T_1 + \frac{\alpha E}{1-v}T_1\int_0^t M(\xi)d\xi - \sigma_0(1-\gamma) \tag{14}$$

Уравнение (14) является уравнением для определения неизвестной функции *u(t).* Примем следующие обозначения:

$$\frac{\mathrm{u(t)}}{h} = \mathrm{v(t)},\ \lambda_{?} = \left[\frac{\alpha E}{1-v}(T_1 - T_2)\right] / \left[\frac{\alpha E}{1-v}(T_1 - T_2) + \sigma_0\gamma\right], \tag{15}$$

$$A(t) = \left[\frac{\alpha E}{1-v}T_1\left(1 + \int_0^t M(\xi)\mathrm{d}\xi\right) - \sigma_0(1-\gamma)\right] / \left[\frac{\alpha E}{1-v}(T_1 - T_2) + \sigma_0\gamma\right] \tag{16}$$

Уравнение (14) с учетом обозначений (15) и (16) записывается в виде:

$$V(t) + \lambda \int_0^t M(t-\tau)\, V(\tau) d\tau = A(t) \qquad (17)$$

Уравнение (17) относится к типу интегральных уравнений Вольтерра второго рода [4]. Решение уравнение (17) будет:

$$V(t) = A(t) + \lambda \int_0^t N(t-\tau, \lambda)\ \ A(\tau) d\tau \qquad (18)$$

Здесь *A(t)* - известная функция, определяемая формулой (16). λ -число, которое вычисляется формулой (15). Нетрудно убедится в том, что 0< λ <1. Ядро $N\left(\mathrm{t}-\tau\,;\,\lambda\right)$ решения (18) представляется через известного ядра $M(\mathrm{t}-\tau)$формулой:

$$N\left(\mathrm{t}-\tau\,;\,\lambda\right) = \sum_{\mathrm{n}=0}^{\infty} \mathrm{M_{n+1}}(\mathrm{t}-\tau)\,\lambda^{\mathrm{n}}, \qquad (19)$$

где

$$M_1(\mathrm{t}-\tau) = M(\mathrm{t}-\tau);\ \ M_n(\mathrm{t}-\tau) = \int_0^t M_{n-1}(t-t_1) M(t_1-\tau)\, dt_1, n = 2,3, \ldots$$

Ряд (19) сходится для любого числа λ. Так как, в случае рассматриваемой задачи 0< λ <1, имеет место быстрая сходимость ряда (19).

Известны все величины, которые входят в правую часть формулы (18). После определения *V(t),* искомая функция *u(t)* (фронт разрушения в момент *t*) находим по формуле: *u(t)=hV(t).* Формула (18) также определяет время полного изнашивания пластины t_*. В этом случае имеем: $u(t_*)=h$. Отсюда, $V(t_*)=1$. При этом из (18) имеем:

$$A(t_*) - \lambda \int_0^{t_*} N\left(t_* - \tau\,,\,\lambda\right) A(\tau) d\tau\ = 1 \qquad (19)$$

Из соотношения (19) определяется время t_* - время полного изнашивания пластины.

Рассмотрим следующий случаи *M(t)=m=const*. В этом случае из уравнения (17) имеем:

$$V(t) + \lambda\, m \int_0^t V(\tau) d\tau = Bt + D \qquad (20)$$

где,
$$B = \frac{\alpha\, ET_1 m}{\alpha\, E(T_1 - T_2) + \sigma_0\, \gamma(1-\nu)} = \text{const}, \qquad (21)$$

$$D = \frac{1}{\alpha\, E(T_1 - T_2) + \sigma_0\, \gamma(1-\nu)} \left(\alpha E T_1 - \sigma_0\,(1-\gamma)(1-\nu)\right) = const \qquad (22)$$

Вычислим производную соотношения (20) при учете (21), (22)

Получим

$$\acute{V}(t) + \lambda\, m V(t) = B \qquad (23)$$

Так как, $u(0) = 0$, начальное условие для уравнения (23) примем:

$$V|_{t=0} = \frac{u}{h}\Big|_{t=0} = 0 \qquad (24)$$

Следовательно, задача определения безразмерной функции *V(t)*есть задача Коши (23) и (24). Решение задачи (23) и (24) имеет вид:

$$V(t) = \frac{B}{\lambda m}(1 - e^{-\lambda mt}) \quad (25)$$

В случае постоянного ядра повреждаемости *(M(t)=m=const)* мы пришли к конечной аналитической точкой формуле для фронта разрушения пластины. С учетом (25) и формулы *u(t)=hv(t)*, имеем:

$$u(t) = \frac{hB}{\lambda m}(1 - e^{-\lambda mt}) \quad (26)$$

Из условия $u(t_*)=h$ с учетом (26) определяем время полного изнашивания пластины t_*:

$$t_* = \frac{1}{\lambda m} ln \frac{B}{B - \lambda m} \quad (27)$$

Выходящие в соотношения (26) и (27) величины λ и B определяются соответственно формулами (15) и (21).

Выводы: Исследовано разрушение защемленной по краям пластины из упруго повреждающегося материала в случае, когда на ее поверхностях установлены различные постоянные температуры и одна поверхность подвержена действию агрессивной среды. В результате:

а) определена граница температуры, в случае превышения которой при заданной концентрации агрессивной среды разрушение пластины происходит мгновенно;

б) получена точная аналитическая формула для фронта разрушения в зависимости от времени, концентрации агрессивной среды, действующих на поверхностях температуры, механических свойств и геометрических данных пластины;

в) найдено время полного износа пластины.

Литература

1. Тимошенко С.П., Гудьер Дж. Теория упругости. М: Наука, 1979, 560 с.
2. Кулагин Д.А., Локащенко А.М. Моделирование влияние агрессивной окружающей среды на ползучесть и длительную прочность металлов при сложном напряженном состоянии //Известия РАН, Механика твердого тела, 2004, №1, с. 188-199.
3. Суворова Ю.В. О критерии прочности, основанном на накоплении поврежденности и его приложение к композитам //Изв. АН СССР, Механика твердого тела, 1979, №4, с.108-111.
4. Краснов М.Л. Интегральные уравнения М: Наука, 1975, с. 304.

Tövsiyyə edib: t.e.d., prof. **Z.Z. Şərifov**

УДК: 622.22

MAŞIN HİSSƏLƏRİ VƏ KONSTRUKSİYALARIN UZUNÖMÜRLÜLÜYƏ HESABLAMA ÜSULLARI

Qafarov F.M., Səlimova E.N., Paşayeva V.B.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Az1010, Bakı ş., Azadlıq pr., 34
E-mail: f.m.qafarov@mail.ru

Xülasə. *Məqalədə maşın hissələri və konstruksiyaların uzunömürlülüyə hesablama üsulları haqqında bəhs edilir. Bu hesablama üsullarının yorğunluq zədələnmələrinin xətti toplanması hipotezinin təshih edilmiş variantı irəli sürülür. Bu hipotez, dözümlülüyə görə ehtimal hesablama metodlarının əsasını təşkil edir.*

Аннотация. *В статье рассматриваются расчетные методы на долговечность деталей машин и конструкций. В основе этих расчетных методов предполагается корректированная линейная гипотеза суммирования усталостных повреждений. Эта гипотеза положена в основу вероятностных методов расчета на выносливость.*

Abstract. *This article deals with the calculation methods of long levity of machine parts and construction. These calculation methods which based on the hypothesis of the assembly line of fatigue damages offer corrected variant.*

This hypothesis makes up basis of presumable methods for durability.

Açar sözlər: *zədələnmə, gərginlik, dağılma, yük, reqressiya xətti*

Ключевые слова: *повреждение, напряжение, разрушение, нагрузка, линия регрессии*

Key words: *damage, voltage, destruction, load, the regression line*

Giriş. Maşın hissələri və konstruksiyalara təsir edən yükün xarakterindən asılı olaraq hesablama üsulları aşağıdakı qruplara bölünür: birdəfəli, aztsiklli və çoxtsiklli yükləmələr üzrə.

Birdəfəli yükləmələr üzrə möhkəmliyə hesablamalar özlülü, kvazikövrək və kövrək dağılmalarda qüvvə, energetik və deformasiyalı kriterilərdən istifadə olunmasına əsaslanır [1]. Bu zaman elastiki-plastiki vəziyyətlərdə gərginliklərin və deformasiyanın yenidən paylanması, materialların yekun mexaniki xassələri, xətti və qeyri xətti qoyuluşlarda çat əmələgələn zonalarda gərginlik deformasiya vəziyyətlərinin xüsusiyyətləri, dağılma diaqramının xarakteri və s. nəzərə alınır.

Son zamanlar dağılmanın deformasiya kriteriyaları işlənib hazırlanmışdır, başqa sözlə, həddi yük, yerli elastiki-plastiki deformasiyalar, gərginliklərin və deformasiyalarınn intensivliyi əmsalı, zədələnmələrin növündən asılı olaraq qüsurların ölçüsü üzrə və s.

Birdəfəli yükləmələrdə möhkəmliyə hesablamanın əsasını zədəli hissələrdə həddi nominal gərginliklərin böyük olmayan səviyyələri üçün xətti dağılma mexanikası təşkil edir ki, burada gərginlik intensivliyi əmsalı və onların kritik qiymətləri istifadə edilir.

Əksər hissələrdə, çatın əmələgəlmə zonalarında həddi nominal gərginliklərin səviyyəsi axıcılıq həddinə çatır və ya ondan böyük olur. Bu zaman plastiki zonaların ölçüləri, hissələrin plastiki deformasiya olunmuş zonalarındakı çatların ölçülərini aşmış olur. Bu hissələrə xətti dağılma mexanikasının tətbiq olunması əsaslandırılmamış hesab edilir.

Bu kimi hallarda elastiki-plastiki deformasiyanın əhatə dairəsi müəyyən edilir və deformasiyanın intensivliyi əmsalından istifadə edilir [2]. Qeyri-xətti dağılma mexanikasının deformasiya kriteriyaları və parametrləri layihələndirmə mərhələsində möhkəmliyə hesablamanın əsasını təşkil edir. Normativ sənədlərdə [3,4] statiki və dinamiki yükləmələrdə dağılmanın özlülü xarakteristikalarının təyinolunma metodları verilmişdir.

Aztsiklli yükləmələrdə möhkəmlliyə hesablamalar, materialın mexaniki xassələrini nəzərə almaqla deformasiyalarda aztsiklli dağılmalar əyrisinə əsaslanır. Materialların mexaniki xasssələri dedikdə, onun möhkəmlik, plastiklik, birdəfəli və tsiklik yükləmələrdə möhkəmləndirmə dərəcəsi və tsiklin asimmetriyası nəzərdə tutulur [1].

Dəqiqləşdirilmiş hesablamalarda ümumiləşdirilmiş tsiklik mdeformasiya proqramından istifadə etməklə tsikllər sayı üzrə gərginlik-deformasiya vəziyyətinin kinetikası müəyyən olunur. Tənzimlənməyən yükləmələrdə yorğunluq toplanmasının və kvazistatistik zədələnmələrin deformasiya-kinetik kriterilərindən istifadə edilir. Bu da aztsiklli yükləmələrdə uzunömürlülüyə hesablamanı yerinə yetirməyə imkan verir.

Çoxtsiklli dəyişən yükləmələrdə uzunluğu 0.2 – 0.5 mm olan birinci makroskopik yorğunluq çatının əmələgəlməsi və onun əmələgəlməsindən tam dağılmasına qədər olan mərhələlər baxılır [1, 5]. Çatının əmələgəlməsinə dağılma ehtimalı parametrləri üzrə yorğunluq uzunömürlülüyünün hesablama metodları yorğunluq müqavimətinin və dəyişən istismar yükləmələrinin statistik xarakteristikalarının qiymətləndirilməsinə əsaslanır. Bu zaman yorğunluq zədələnmələrinin toplanması hipotezlərindən istifadə edilir [1, 5, 6].

Maşın hissələrinin müntəzəm yükləmələrində yorğunluq müqaviməti statistik xarakteristikaları sifətində maşın hissələrinin simmetrik tsiklində dözümlülük həddinin orta qiyməti (σ_{-1d}), bu kəmiyyətin variasiya əmsalı (ϑ_{-1g}) və yorğunluq əyrisinin parametrlərindən: yorğunluq əyrisinin qırılma nöqtəsinin absisi (N_0), sol qolun maillik bucağını xarakterizə edən parametrindən (m) istifadə edilir. Yüksək etibarlılıq və uzunömürlülük tələb olunan hallarda tam ehtimallı yorğunluq əyrilərinə müraciət edilir [1, 5, 6]. Tam ehtimallı yorğunluq əyriləri σ_a gərginlik amplitudası çatların əmələgəlməsinə qədər olan N tsikllər sayı və dağılma ehtimalı (P % - lə) parametrləri xarakterizə edir [1, 5,].

Həqiqi hissələr üçün σ_{-1d} və ϑ_{-1g} parametrlərinin qiymətləndirilməsi birbaşa yorğunluq təcrübələrinin köməyi ilə olduqca çətindir və bir çox hallarda isə praktiki olaraq mümkün deyil. Bu səbəbdən də yorğunluq müqaviməti xarakteristikalarının qiymətləndirilməsi hesablama metodlarının işlənib hazırlanması aktual əhəmiyyət kəsb edir.

Hissələrin yorğunluq müqavimətinin statistik xarakteristikalarını qiymətləndirmək üçün yorğunluq dağılmasının oxşar statistik nəzəriyyəsi işlənib hazırlanmışdır və bu nəzəriyyə DÜİST 25.504-82 və TGL 19340 saylı Rusiya və Almaniyanın standartlarının əsasını təşkil edir.

Qeyd olunan nəzəriyyədən yorğunluq dağılmasının oxşar tənliyi nəticə kimi meydana çıxır və müxtəlif formalı və ölçülü hissələr üçün dözümlülük həddinin paylanması funksiyasını xarakterizə edir:

$$\lg = (\xi - 1) = -\vartheta_\sigma \cdot \lg\theta + u_p \cdot S$$

Burada

$$\xi = \frac{\sigma_{-1d} \cdot \alpha_\sigma}{0.5 \cdot \sigma_{-1}},\ \theta = \frac{L/\overline{G}}{\left(L/\overline{G}\right)_0} = \frac{1}{88.3} \cdot \frac{L}{G}$$

Burada α_σ - nəzəri gərginlik konsentrasiyası əmsalı; σ_{-1} – diametri 7.5 mm olan hamar labotatoriya nümunəsinin dözümlülük həddi; θ - yorğunluq dağılmasının nisbi oxşarlıq kriteriyası; G- konsentrasiya zonasında birinci baş gərginliyin nisbi qradiyenti; L- hissənin yüksək gərginlik zonasına bitişik işçi en kəsiyinin perimetri və ya perimetrin bir hissəsi; $u_p - P$ % dağılma ehtimalına uyğun normal paylanma kvantili; υ_σ - materialın xassələrindən asılı olan parametr; S- təsadüfi lg $(\xi - 1)$ kəmiyyətinin orta kvadratik meyli.

Nəticə: Qeyri-müntəzəm yükləmə rejimlərində yorğunluq zədələnmələrinin toplanması üzrə çoxsaylı təcrübələrin nəticələrinin analizi göstərir ki, yorğunluq zədələnmələrinin xətti toplanması hipotezi hesabi uzunömürlülüyün təcrübə ilə alınan nəticələrlə müqayisədə 2-5 dəfə çox olmasına gətirib çıxarır. Bu analiz nəticəsində yorğunluq zədələnmələrinin xətti toplanması hipotezinin təshih edilmiş variantı irəli sürülmüşdür [1, 5]. Yeni hipotez, dözümlülüyə görə ehtimal hesablama metodlarının əsasını təşkil edir. Ehtimal hesablama metodlarından istifadə olunma dairəsinin

genişləndirilməsi bir sıra standartların və metodik göstərişlərin işlənib hazırlanmasına və müəyyən mərhələlərdə maşın hissələrinin möhkəmliyini, etibarlılığını və uzunömürlülüyünü qiymətləndirməyə imkan verir.

Ədəbiyyat

1. Когаев В.П., Махутов Н.А., Гусенков А.П. Расчеты деталей машин и конструкций на прочность и долговечность. М: Машиностроение, 1985. 223 с.
2. Махутов Н.А. Деформационные критерии разрушения и расчет элементов конструкций на прочность. М: Машиностроение, 1981. 272 с.
3. Методические указания РД 50-260-81. М: Изд-во стандартов, 1983. 56 с.
4. Методические указания РД 50-344-82. М: Изд-во стандартов, 1983. 52 с.
5. Когаев В.П. Расчеты на прочность при напряжениях переменных во времени. М: Машиностроение. 1977. 232 с.
6. Болотин В.В. Прогнозирование ресурса машин и конструкций. М: Машиностроение, 1977. 232 с.

Tövsiyyə edib: t.e.d., prof. **Z.Z. Şərifov**

UOT 397. 623

TV PROQRAMLARININ PAYLAYICI ŞƏBƏKƏSİNİN KEYFİYYƏTİNİN TƏCRÜBİ OLARAQ QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədov İ.R., İsmayılov Z.Ə.

Azərbaycan Texniki Universiteti
AZ 1029, Bakı ş. H.Cavid pr., 25

Xülasə. *Məqalədə TV proqramlarının paylayıcı şəbəkəsinin xarakterik nöqtələrində parametrlərin təcrübi olaraq ölçülməsi yolu ilə şəbəkənin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Parametrlərin ölçülməsinin ənənəvi sxemindən istifadə edilmiş və ölçmə aparılan məntəqələr və parametrlər seçilmişdir. Kod sürətinin, müdafiə intervalının, kanalın tezlik buraxma zolağının və kvantlama səviyyələrinin müxtəlif qiymətləri üçün ölçülmüş parametrlərin cədvəli tərtib olunmuşdur.*

Abstract. *In this paper the estimation questions of the TV programs distribution network quality by the experimental measurements of parameters in characteristic points of the network are considered. The traditional scheme for measuring parameters has been used and points and parameters have been chosen for the measurement. The corresponding table of measured parameters has been compiled for different values of the code rate, protective interval, channel band and namber of quantization levels.*

Аннотация. *В статье рассмотрены вопросы оценки качества сети распределения ТВ программ путем экспериментальных измерений параметров в характерных точках сети. Использована традиционная схема измерения параметров, выбраны точки и параметры для измерения. Составлена соответствующая таблица измеренных параметров при различных значениях кодовой скорости, защитного интервала, полосы канала и колическтва уровней оценки квантования.*

Açar sözlər: *TV yayim siqnalı, paylayıcı şəbəkə, ölçmə parametrləri, təcrübi qiymətləndirmə, kod sürəti, energetik nisbətlər*

Key words: *TV broadcasting signal, distribution network, measuring parameters, experimental estimation, code rate, power ratio*

Ключевые слова: *сигнал ТВ вещания, сеть распределения, параметры измерения, экспериментальная оценка, кодовая скорость, энергетические отношения*

Məsələnin qoyuluşu. Yerüstü televiziya (TV) yayım siqnalları retranslyatorlara adətən TV proqramlarının paylayıcı şəbəkəsi vasitəsilə çatdırılır. Çox zaman paylayıcı şəbəkə kimi çoxkanallı rabitə sistemlərindən istifadə olunur. TV proqramlarının paylayıcı şəbəkəsinin analizi göstərir ki, hazırda yüksək ierarxiyalı rabitə xətlərində TV yayım siqnallarının müxtəlif mənbələrdən daxil olunan siqnallarla birgə çoxkanallı verilişi həyata keçirilir. İnformasiyanın rəqəmli veriliş sistemlərində müxtəlif mənbələrin siqnalları birləşdirilərək, bir rəqəmli sel yaradılır. Burada siqnalların formalaşdırılması, çevrilməsi, regenerasiyası və verilişi həyata keçirlir. O cümlədən, proqramlı TV mərkəzindən daxil olan TV yayım siqnalı üzərində də müxtəlif çevirmələr aparılır. Standarta uyğun rəqəmli TV yayım siqnalının formalaşdırılması məqsədlə videosiqnal üzərində aparılan əməliyyatlar ayardıcıllığı videosiqnalın kodlanması adlanır. Videosiqnalın kompressiyasını həyata keçirmək üçün müxtəlif alqoritmlər tətbiq oluna bilər. Aparılan çevirmələrin hər biri müxtəlif təhriflərlə müşaiyət olunur. Baş vermiş təhriflərin azaldılmasının illər uzunu tədqiq olunmasına baxmayaraq, yeni TV yayım sistemlərinin və həm də onların yeni standartlarının tətbiqi, TV yayımında çoxfunksiyalılığın daha da genişlənməsi o nəticəyə gəlməyə imkan verir ki, müasir paylayıcı şəbəkələrin parametrlərinin yaxşılaşdırılması imkanlarının araşdırılmasına ehtiyac vardır.

TV yayım siqnallarının paylayıcı şəbəkəsinin müvafiq parametrləri seçilməli və istismar müddətində bu parametrlərin qiyməti operativ olaraq təyin və lazim gəldikdə tənzim olunmalıdır. Baş verən təhriflərin bəziləri məntəqədən-məntəqəyə toplanır. ona görə də bu tip təhriflər ölçülməli və xüsusən böyük uzunluqlu rabitə xəttində qəbul-veriliş məntəqələrinin sayı çox olduqda onların kompensasiyası aparılmalıdır.

Məqalənin məqsədi rəqəmli TV yayım siqnallarının paylayıcı şəbəkəsinin keyfiyyətinin qiymətləndirilməsi üçün energetiki nisbətlərin ölçülməsidir. Energetiki nisbətlər olaraq TV təsvir siqnalının daşıyıcısının P_d gücünün küylərin P_N gücünə və bir bitin E_b enerjisinin küylərin N_0 intensivliyinə nisbətləri başa düşülür. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı məsələlər qoyulmuş və həll olunmuşdur:

- TV yayım siqnallarının çoxkanallı verilişi zamanı yaranan maneələrin mənbələri və yaranma səbəbləri araşdırılmış;

- nəzəri nəticələrin yoxlanılması üçün ölkəmizin TV yayım siqnallarının rəqəmli paylayıcı şəbəkəsi olan yerüstü rabitə sistemi üzrə təcrübi tədqiqatlar aparılmışdır. Alınmış nəticələrin dürüstlüyü ədədi hesablamalar və istehsalat sınaqları ilə yoxlanılmışdır.

Təcrübənin şərtləri. Təcrübələr zamanı həm elektriki ölçmələr, həm də subyektiv qiymətləndirmələr vasitəsilə əsaslandırmalar aparılmışdır.

Aparılan ölçmələrlə təsvirin qiymətləndirilməsi arasında zəif korrelyasiya olması və hətta ayrı-ayrı hallarda adekvat olmaması artıq müəyyən olunmuşdur. Bundan başda, qiymətləndirmə təsvirlərdən asılı olaraq kəskin dəyişir.

TV yayım siqnallarının müasir rəqəmli paylayıcı şəbəkə ilə verilişi zamanı kanalın girişinə həm analoq, həm də rəqəm formalı siqnallar müxtəlif proqram mənbələrindən daxil ola bilər. Bu halda rəqəmli TV sisteminin təhriflərinə, həm də verici tərəfdə TV yayım siqnallarının analoq-rəqəm və qəbuledici tərəfdə isə bu siqnalın rəqəm-analoq çevrilməsindən yaranan təhriflər də əlavə olunur. Analoq TV yayım siqnalının parlaqlıq və rəng siqnallarına ayrılması zamanı yaranan diskretləşmə səhvləri də bu çevricilərə xasdır. Çevirmələrin keyfiyyətinin qiymətləndirilməsi üçün amplitud-tezlik xarakteristikası, qrup-zaman gecikməsi, diferensial gücləndirmə, 2T impulslarında $\overline{K}$ -faktoru, parlaqlıq və rəng siqnalların-da qeyri-xətti təhriflər ölçülməlidir [1-2].

Beləliklə, rəqəmli TV yayımında olan bəzi təhriflər analoq TV yayımındakı ilə eynidir, bəziləri isə siqnalın analoq-rəqəm və ya rəqəm-analoq çevrilmələri və rəqəmli siqnalın rabitə sistemi ilə verilişindən yarandığından yalnız rəqəmli TV yayımına xasdır.

Təsvirlərin keyfiyyətinin subyektiv qiymətləndirilməsi zamanı siqnal mənbəyi olaraq sınaq siqnalları generatoru və ya test cədvəli generatorundan istifadə oluna bilər. Müvafiq siqnallar rəqəmli TV traktı üzrə ayrıca olaraq və ya telefon kanallarının siqnalları ilə birlikdə çoxkanallı rabitə sistemi üzrə verilirlər.

Ölçmə aparmaq üçün rəqəmli TV paylayıcı şəbəkəlirində nəzarət işinin həyata keçirilməsinin ədəbiyatlardan məlum olan göstərici sxemindən və burada göstərilən məlum metodlardan istifadə edək (şəkil 1.) [4]. Bu sxemdə videosiqnalın məlumat mənbəyindən rəqəmli TV qəbuledicisinə qədər olan yolu və paylayıcı şəbəkədə ölçmə aparılmalı olan nöqtələr, siqnal mənbələri və ölçmə cihazları göstərilmişdir. Göründüyü kimi ölçmə üçün MPEG-in (Moving Picture Expert Group – Hərəkətli şəkillər üzrə ekspert qrupu) analizatoru və monitorundan, şəbəkə analizatoru və ya siqnal monitorundan, siqnal mənbəyi olaraq TV verici kamerasından və ya MPEG nəqliyyat seli generatorundan istifadə oluna bilər. Ölçmələr nəqliyyat multipleksorunun girişində, yüksək tezlik (YT) modulyatorunun çıxışında, xətti traktın çıxışında, YT demodulyatorunun çıxışında aparıla bilər. Bizim təcrübələr zamanı öçmələr nəqliyyat multipleksorunun girişində (1 nöqtəsi) və YT demodulyatorunun çıxışında (5 nöqtəsi) aparılmışdır. Proqram mənbəyi olaraq verici kameradan istifadə olunmuşdur.

Rəqəmli TV yayım siqnallarının rabitə kanalı ilə verilməsi zamanı yaranan məxsusi maneələrin operativ təyin olunması. Rəqəmli TV yayımında videosiqnalın kompressiyası (sıxılması) üçün tətbiq olunan MPEG, DV (Digital Video – Rəqəmli video) və b. alqoritmlər ilkin təsvir siqnalında məxsusi təhriflər yaradırlar. Daxil edilən bu təhriflər bitlər üzrə səhvlər, makroblokda olan səhvlər, ümumi vektor səhvləri, sahələrin düşüb itmələri və ya təkrarlanması, "yalan" sinxronlaşma, dekoderdə taktların pozulması, zaman fluktuasiyaları ("jitter") və b. şəkildə özlərini göstərirlər [2-4].

Rəqəmli TV paylayıcı şəbəkəsinin parametrlərinə nəzarətin öz spesifik xüsusiyyətləri məlumdur [4-5]. Videoməlumatın paylayıcı şəbəkə ilə verildiyi zaman sıxılması əməliyyatı öz mürəkkəb qeyri-xəttiliyi ilə fərqlənir. Təsvirin subyektiv keyfiyyəti verilən süjetdən və deməli, zamandan çox asılı olur. Bundan başqa, paylayıcı şəbəkə ilə nəqliyyat seli verilir və analizatorun köməyilə bu selin parametrləri ölçülə bilir [2, 4]. Paylayıcı şəbəkə üzrə nəzarət işi aparılan zaman bu xüsusiyyətlər nəzərə alınmalıdır.


Ədəbiyyatlarda rəqəmli TV paylayıcı şəbəkələrində nəzarət işinin həyata keçirilməsinin üç xarakterik mərhələsi göstərilmişdir [4]:

– rəqəmli TV paylayıcı şəbəkəsində tətbiq olunan avadanlıqların parametrləri seçilməli;

– seçilmiş parametrlərə nəzarət metodları işlənməli;

– ölçmə avadanlığı seçilməlidir.

Nəqliyyat selinin seçilmiş parametrlərinin və kanal avadanlıqlarının keyfiyyət göstəricilərinin ölçülməsi kimi iki qrup ölçməni bir-birindən fərqləndirmək vacibdir. DVB-T (Digital Video Broadcasting- Terrestrial – Rəqəmli video yayımı – yerüstü) sistemi üçün nəqliyyat selinin əsas ölçülməli parametrləri bitlərin səhvlər nisbəti BER (Bit Errour Ratio – Bitlər üzrə səhvlər nisbəti), siqnal/küy nisbəti və kvadratur siqnalların keyfiyyətidir [2, 4].



Şəkil 1. Rəqəmli TV proqramlarının veriliş kanalları şəbəkəsinin parametrlərinin yoxlanılmasının xarakterik nöqtələri

DVB-T sistemində kriterilərin qiymətləndirilməsi çox vacibdir. Bu sistemdə keyfiyyətin azalma astanası kriteriyası daxil edilmişdir [2]. Burada kvazisəhvsiz qəbul (QEF – Quasi-error-free) kriteriyası vardır ki, bu kriteriyaya görə ekrandakı təsvirdə hər saatda bir səhv baş verə bilər. Bu halda RS dekoderinin çıxışında BER= 10^{-11} olur. Cihaz ölçmələrində Viterbi dekoderinin çıxışında (yəni RS dekoderinin girişində) BER = $2 \cdot 10^{-4}$-dən pis olmamalıdır. TOV – təsvirdə çoxsaylı səhvləri göstərir.

Parametrlərin müqayisəsi vasitəsilə proqramların paylayıcı şəbəkəsinin təcrübi olaraq qiymətləndirilməsi. Əgər əvvəlki verilənlər çoxluğu analiz olunduqdan sonra sonrakı parametrlər həmişə dəqiqləşdirilir və düzəldilirsə, onda planlaşdırma prosesi iterativ olur. Rəqəmli TV yayım sisteminin seçilməsi iterativ xarakter daşıyır və aşağıdakı üç faza üzrə yerinə yetirilə bilər: 1. İlkin qiymətləndirmə. 2. Daha dəqiq qiymətləndirmə. 3. Kommersiya və istismar faktorlarının qiymətləndirilməsi.

Sistem ilkin olaraq seçildikdən sora onun parametrləri, yəni bu sistemi əks etdirən hər hansı variant qiymətləndirilə bilər. Radiorele xətti (RRX) stansiyası olaraq "NEC" şirkətinin "Iposolinc" verici-qəbuledici stansiyasından istifadə olunmuşdur. Cədvəl 1-də modulyasiya parametrləri verilmişdir. Eeyni bir kanalda QPSK (Quadrature Phase Shift Keying – Kvadratur faz manipulyasiyası) üçün tələb siqnal/küy nisbəti 64-QAM (Quadrature amplitude modulation – Kvadratur amplitud modulyasiyası) üçün olan siqnal/küy nisbətindən təxminən 5 dəfə artıqdır.

Bundan başqa, kanaldan asılı olaraq bu nisbət bir-birindən fərqli olur. Onun ən kiçik qiyməti Qauss kanalı, ən yuxarı qiyməti isə Reley kanalı üçün təsbit olunmuşdur. Rays kanalı isə bu iki kanal arasında orta mövqe tutur. Təcrübi olaraq tədqiq olunan kanal (Bakı-Ələt RRX xətti) açıq traslar qrupuna və AAQK (Additiv Ağ Qauss Küyləri) kanalına aid edilə bilər.

Bu kanal üçün P_d / P_N nisbətinin buraxıla bilən qiymətlərinin diapazonu məlumdur. Bu qiymətlər kanal kodlanması, faza küyləri, kvantlama küyləri və intermodulyasiya məhsullarımın səviyyəsindən asılı olur.

Cədvəl 1.

RRX stansiyasının modulyasiya parametrləri

№	Parametrin adı	Parametrin tipi və qiyməti
1.	Xidmət zonası	Bakı-Ələt RRX
2.	Daxilolma metodu	CDMA (Code division multiple access – Koda görə bölünməli çoxstansiyalı giriş)
3.	Modulyasiyanın tipi	256-QAM, 128-QAM, 64-QAM, QPSK
4.	FEC (Forward Error Correction – Səhvlərin qabaqcadan korreksiyası	3/4
5.	Veriliş sürəti	150...300 Mbit/s
5.	Dupleksin tipi	Tam
6.	Tezlik diapazonu	3,5 QHs; 5,8 QHs
7.	Tezlik torunun addımı	2,5 MHs
8.	Tezlik zolağı	8,0 MHs
9.	Veriliş və qəbul arasında tezlik fərqi	100 kHs
10.	Aralıq tezlik	70 MHs

Sistemin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi məqsədi ilə bitin enerjisinin küyün spektral sıxlığına nisbətindən istifadə olunması daha əlverişlidir [2]:

$$\frac{E_b}{N_0} = \frac{P_d}{P_N} - 10lg\left(\frac{R_b}{\Delta f}\right),$$

burada R_b -veriliş sürəti, Δf – buraxma zolağıdır. Küyün gücü ilə bir bitin davametmə müddəti T_b arasında aşağıdakı analitik əlaqə mövcuddur [2]: $P_N = \frac{N_0}{2T_b}$.

Ölçmə üçün "Promax" tipli analizator və DVB-T ölçmə radioqəbuledicisindən istifadə edilmişdir. Siqnalın gücü yüksək tezlik çeviricisinin girşində ölçülmüş və nominal tezlik zolağı üzrə qiymətləndirilmişdir. Alt daşıyıcılar söndürülərək analizator vasitəsilə küylərin gücü ölçülmüşdür.

Təcrübə zamanı müdafiə intervalı *GI* (Guard interval), kod sürəti *R*, kvantlamanın qiymətləndirmə səviyyələrinin sayı *L* və veriliş sürətinin qiymətləri seçilmişdir. Cədvəl 2-də seçilmiş qiymətlər və alınmış nəticələr verilmişdir.

Cədvəl 2

DVB-T sistemində AAQK kanalı üzrə siqnal / maneə nisbətinin qiymətləri

Sistemin parametrləri	**Astananın forması**	E_b/N_0 **nisbətinin qiymətləri**		P_d/P_N **nisbətinin qiymətləri**	
		Tələb olunan	**Təcrübi**	**Tələb olunan**	**Təcrübi**
DVB-T Δf =8 MHs; *R*=2/3; *GI*=1/32; *L=256*	TOV	10,4 dB	12,5 dB	15,19 dB	17,89 dB
	QEF	11,7 dB	13,9 dB	16,49 dB	19,29 dB
DVB-T Δf =8 MHs; *R*=2/3; *GI*=1/32; *L=16*	TOV	11,4 dB	13,3 dB	16,19 dB	19,09 dB
	QEF	12,7 dB	14,8 dB	17,49 dB	20,59 dB

Cədvəldən görünür ki, QEF-in tələb olunan qiyməti TOV-nin uyğun qiymətindən 1,3 dB artıq olmalıdır. Eksperimenlər zamanı fərqin bir qədər artıq olduğu müşahidə olunmuşdur. Bundan başqa, kvantlamanın qiymətləndirmə səviyyələrinin sayı *L*-in 256-dan 16-ya dəyişdirilməsilə E_b / N_0 nisbətinin təxminən 0,8 dB, P_d/P_N nisbətinin isə 1,2 dB artması müsahidə olunmuşdur. Bu nisbətlərin dəyişməsinə səbəb olan yuxarıda adları qeyd olunan faktorların olduğunu nəzərə alaraq, əsas səbəb kimi kvantlama küylərini göstərə bilməsək də, onların payının az olmadığını açıq-aydın görmək olur. Belə ki, çoxsaylı eksperimentlər zamanı qalan bütün parametrlər sabit saxlanmışdır.

Nəticə. TV yayım proqramlarının paylayıcı şəbəkəsinin aparılmış analizi şəbəkənin parametrlərinin əlverişli qiymətlərini seçməyə, qeyri-xətti təhriflərin mənbələrini üzə çıxarmağa, şəbəkənin əsas keyfiyyət göstəricilərini yaxşılaşdırmağa imkan verir.

QEF-in tələb olunan qiyməti TOV-nin uyğun qiymətindən 1,3 dB artıq olmalıdır. Baxılan trasdakı təcrübələr zamanı fərqin bir qədər artıq olduğu müşahidə olunmuşdur.

Ədəbiyyat

1. Временные нормы на тракт передачи сигналов цифрового вещательного телевидения, звенья тракта и измерительные сигналы. М.: 2002, 40с.
2. Зубарев Ю.Б., Кривошеев М.И., Красносельский И.Н. Цифровое телевизионное вещание. Основы, методы, системы. М.: НИИР, 2001, 568 с.
3. Stephens R. Analyzing Jitter at High Data Rates // IEEE Optical Communications, 2004, February, pp.56-60.
4. Телевидение / Под ред. В.Е. Джаконии. М.: Горячая линия Телеком, 2007, 640 с.
5. Серов А.В. Эфирное цифровое телевидение DVB-T/H. С.Пб.: БХВ-Петербург, 2010, 464 с.

Tövsiyyə edib: t.e.d., prof. **Z.Z. Şərifov**

UOT 321.762

SƏTH QATI KARBONLA VƏ BORLA DOYDURULMUŞ DƏMİR ƏSASLI BİŞİRİLMİŞ KOMPOZİSİYALARIN STRUKTUR VƏ XASSƏLƏRİ

Namazov S.N., Qəhrəmanov V.F.

Azərbaycan Texniki Universiteti
Az1073, Bakı ş., H.Cavid pr., 25
E-mail: qehremanovvurqun@gmail.com

Xülasə*. Məqalədə dəmir əsaslı ovuntu kompozisiya materiallarının daxili qatlarında xassələrinin saxlanılması şərti ilə səth qatının xassələrinin yüksəldilməsi məsələsinə baxılmışdır.*

Abstract. *The ways of improvement of the surface layer properties by keeping of the inside layers properties of the iron based powder composite materials have been investigated.*

Аннотация. *В статье исследованы пути улучшения свойств поверхностного слоя путем сохранения свойств внутренних слоев порошковых композиционных материалов на основе железа.*

Açar sözlər. *legirləmə, diffuziya, xromlama, sementitləmə, kimyəvi-termiki emal*

Key words. *diffusion, chroming, chemical-thermal processing*

Ключевые слова*. легирование, диффузия, хромирование, цементация, химико-термическая обработка.*

Məsələnin qoyuluşu. Konstruksiya təyinatlı ovuntu kompozisiyalarının səthi legirlənməsi həcmi legirləməyə nisbətən iqdisadi cəhətdən daha məqsədəuyğundur. Ona görə də bu qrup materiallar üçün kimyəvi-termiki emal daha perspektivlidir. Lakin, ovuntuların hazırlanması, presləmə, bişirmə, termiki emal və s. ovuntu kompozisiya metallurgiyasının bu xüsusi suallarından fərqli olaraq bişirilmiş kompozisiyaların işçi səthlərinin kimyəvi-termiki emalla möhkəmləndirilməsi məsələləri yəni onların mexaniki xasələrinin yüksəldilməsi məsələləri kifayət qədər öyrənilməyib.

Eyni zamanda məlumdur ki, bərk xəlitələrdən hazırlanmış alətlərin dözümlülüyünü artırmaq üçün borlama müvəffəqiyyətlə tətbiq olunur [4,5]. Ona görə də məqalədə ovuntu kompozisiya materallrının səth qatının karbonla və borla doydurulması məsələsinə baxılmışdır. Odur ki, məqalədə qoyulan məsələ aktual məsələdir.

Məsələnin həlli. Sənayedə çox böyük çəkiyə malik konstruksiya və antifiriksion təyinatlı ovuntu kompozisiya materialları mövcuddur. Bu qrup materiallara bir qayda olaraq, ucuz və difisit olmayan azlegirli ərintilər aiddir, bunlar hazırlanmada texnolojidirlər, ancaq əksər hallarda yüksək olmayan istismar xarakteristikalarına malikdir. Onların əsasını dəmir əsaslı ovuntu kompozisiya materialları təşkil edir. Akademik İ.M.Federçenkonun [1] fikrinə görə konstruksiya təyinatlı ovuntu kompozisiya materiallarından hazırlanan detalların kimyəvi-termiki emalı onların etibarlılığını və ömüruzunluğunu əhəmiyyətli dərəcədə artıra bilər [2].

875, 925, 975 və 1025^0C (τ=4 saat) temperaturlarda ilkin sementitləndirilmiş dəmirin borlaşdırılması aşağıdakı nisbətdə ilkin komponentlərin miqdarı olan alüminotermiki metodla aparılmışdır.,% (kütlə üzrə).

$$98\%\left[75\%Al_2O_2 + 25\%(30\%Al + 70\%B_2O_3)\right] + 2\%NaF$$


Bişirilmiş kompozisiyaların karbonla və borla ardıcıl doydurulması ilə alınmış diffuziya qatı boridlərin zonasından, keçid zonadan və altlıqdan ibarətdir (şəkil 1). Sementitləmə temperaturunu artırdıqca (karbonlaşma dərəcəsi) borid zonasının ümumi dərinliyi azalır, onun bütövlüyü isə artır. İlkin karbonlaşdırmanın temperaturu qatda FeB boridinin miqdarına da təsir edir (cədvəl 1). Müx-

təlif bərabər şəraitlərdə keçid zonasının quruluşu və dərinliyi ilkin sementitləmə temperaturu ilə təyin olunur. 875^0C temperaturda sementitləndirilmiş bişirilmiş dəmirdə keçid zonası ferrit və perlitin 1:1 orta nisbətində ferrit-perlit quruluşa malikdir. Sementitləmə temperaturunu artırdıqca ferrit təşkiledicilərinin miqdarı 975 və 1025^0C temperaturlarda karbonlaşdırılmış bişirilmiş dəmirin borlaşdırılmasında azalır (şəkil 1). Təxminən eyni strukturla səciyyələnən və özəkdə dəqiq ayırma səthinə malik olan və kəsiyi üzrə karbonun ilkin bərabər paylanmasına malik borlaşdırılmış kompozisiyalarda, keçid zonasından fərqli olaraq ilkin sementitləndirilmiş dəmirin borlaşdırılması halında keçid zo-nasının strukturu ferrit təşkiledicinin artması tərəfə borid qatından özəyə doğru bir qədər dəyişir [4].

Cədvəl 1.


Bişirilmiş dəmirin sementitləmə temperaturunun diffuziya qatının dərinliyinə və faza tərkibinə təsiri

Sementitləmə temperaturu, ^{0}C	Zonalar üzrə diffuziya dərinliyi, mkm				
	Borid			Keçid	Altlıq
	Ümumi	Bütöv qat	FeB,%		
875	185	95	23	450	1700
825	175	115	20	570	2200
975	160	125	18	710	2500
1025	150	130	15	800	2600



Şəkil 1. *Karbonla (τ=4 saat və borla (T=950^0C, τ=4 saat) ardıcıl doydurmaya məruz edilmiş bişirilmiş dəmirin (sıxlığı 95%) mikrostrukturu; T_{sem} = 875^0C (a), 925(b), 975(c) və 1025(d): x300 dəfə*

Keçid zonasının altında altlıq yerləşir. Xromlamaya nisbətən borlamanın daha aşağı temperaturunda aparıldığına görə borlaşdırılmış nümunələrdə altlığın dərinliyi azdır (təxminən 20%), onda karbonun konsentrasiyası ilə xromlanmış nümunələrə nisbətən çoxdur. Altlıqda karbonun konsentrasiyasının artması, onun boridlərlə həllolma qabiliyyətinin olmaması ilə izah olunur. Bununla əlaqədar olaraq, borlama halında kifayət qədər yüksək miqdarda karbon olan (0,4%-dən çox) altlığın alınması üçün bişirilmiş dəmirin ilkin sementitləmə temperaturu, təxminən 50^0C xromlamada olana nisbətən az ola bilər kompozisiyalarda, keçid zonasından fərqli olaraq ilkin sementitləndirilmiş dəmirin borlaşdırılması halında keçid zonasının strukturu ferrit təşkiledicinin artması tərəfə borid qatından özəyə doğru bir qədər dəyişir [5].



Şəkil 2. *İlkin sementitləndirilmiş dəmirin (1) və ЖХ3 (2), ЖХ6 (3) və ЖХ9 (4) kompozisiyalarının (sıxlığı $T_{sem}=975^0C$, $\tau=4$ saat borid qatının dərinliyinə doydurucu qatışığın tərkibinin və doydurma şəraitinin təsiri; a-Al/B_2O_3 = 30%/70%, $T=950^0C$, $\tau=4$ saat, b-Al_2O_3, $T=950^0C$, $\tau=4$ saat, c- Al/B_2O_3 = 30%/70%, Al_2O_3=75%, $\tau=4$ saat, d- Al/B_2O_3 = 30, Al_2O_3=75%, $T=950^0C$, $\tau=4$ saat*

Doydurucu qatışığın tərkibinin və doydurma şəraitlərinin karbonlaşdırılmış dəmirdə və tərkibində 3,6 və 9% xrom olan dəmir-xrom kompozisiyalarında borid qatının dərinliyinə təsiri şəkil 2-də verilib. Dəmirin və ЖХ3 kompozisiyasının ilkin sementitləmə prosesi bonyuj karbürizatorlarında, ЖХ6 və ЖХ9 kompozisiyaları isə, aşağıdakı tərkibli xüsusi karbürizatorlarda aparılmışdır, %(kütlə üzrə); 85% ağac kömürü+15% natrium bikarbonatı ($T=975^0C$,τ=4 saat).

Eyni və həmin ilkin tərkibli kompozisiyalara nisbətən sementitləndirilmiş kompozisiyalarda borid qatlarının dərinliyi aşağı, onların bütövlüyü isə yuxarıdır, bu karbonun borlama prosesinə ləngidici təsiri ilə əlaqədardır. Kompozisiyalarda, keçid zonasından fərqli olaraq ilkin sementitləndirilmiş dəmirin borlaşdırılması halında keçid zonasının strukturu ferrit təşkiledicinin artması tərəfə borid qatından özəyə doğru bir qədər dəyişir [6]. Özü də dərinlik üzrə bu fərq xromun miqdarı yüksəldikcə artır. Bu, sementitləndirilmiş qatda karbonun konsentrasiyasının artması və borlamada saxlama prosesində onun sorulma sürətinin azalması ilə, izah olunur. Bundan başqa xrom austenitdə karbonun diffuziyasını yavaşladaraq kompozisiyanın dərinliyinə böyüyən borid qatı ilə onun itələnmə prosesini çətinləşdirir. Ona görə də sementitləndirilmiş dəmir-xrom kompozisiyalarında diffuziya prosesləri əlavə enerji və vaxt məsrəfləri tələb edir.

İlkin sementitləməyə məruz edilmiş kompozisiyalarda qatda FeB yüksək borlu fazanın miqdarı karbürizatorlara nisbətən 10-20% azdır. Karbonlaşdırma borid fazalarının mikrobərkliyinə əhəmiyyətli təsir göstərmir.

